*Bülent GÜRÇAM*

# *BİTMƏYƏN SEVDA...*

***Jurnalist, diasporçu, lobbiçi B.Gürçamın həyat və fəaliyyəti***

4653

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2008

**Redaktor: N.Novruzov**
**Koordinator: S. Manafova**
**Dizayner: T. Zəkəryayev**
**və kollektivin digər üzvləri**

***Bu kitab "Belçika-Azərbaycan Evi"nin sədri və "Euro Xəbər" qəzetinin baş redaktoru Bülent Gürçamın ömrünün 46-cı ildönümü ilə əlaqədar onun çap edilmiş məqalələri və haqqında mətbuatda dərc edilmiş materiallar, habelə fəaliyyətini əks etdirən fotolar başçılıq etdiyi kollektiv tərəfindən toplanıb həddiyə olaraq nəşr edilmişdir.***

# *BİTMƏYƏN SEVDA*

Hörmətli həmvətənlərim, bu dəqiqə oxuduğunuz bu kitab "Belçika Azərbaycan Evi" və "Euro Xəbər" qəzetinin əməkdaşlarının mənim anadan olduğumun 46-cı ilinə görə hazırladıqları bir hədiyyədir.

Mənə deyiləndə ki, Bülent bəy, sizin Azərbaycan yolunda bugünə kimi gördüyünüz işləri bir kitabda toplamaq istəyirik, bu təklifdən böyük məmnuniyyət duydum və mənə də bu kitaba ancaq ad qoymaq düşdü.

Bilirsiniz, bir kitaba həyatı sığdırmaq çox çətindir. Elə bu kitabda da çətin olub və buna görə də adı elə "Bitməyən Sevda"dır. Yəni, bu yol, bu xidmət, bu mücadilə ömrümün axırına kimi sürəcək.

Əslində, ürəyində Vətən və millət sevgisi olan hər bir insanın həyat yolu belədir deyə düşünürəm. Buna görə də özümə bu həyat yolunda rəhbər bildiyim dahi insan milli liderimiz Heydər Əliyevin bu sözünü də özümə bayraq etmişəm: ***"Ömrümün qalan hissəsini Azərbaycan xalqına bağışlayıram!".*** Bəli, bizlər də bu sözün arxasında gedən insanlarıq, ona görə də "bu sevda heç bitməyəcək".

Bu kitabda acizanə mənim bugünə kimi Azərbaycan yolunda görə bildiyim işlərin bir qismiylə tanış olacaqsınız, yenə də təkrar edirəm "Bir ömür bir kitaba sığa bilməz", elə "Bir kitab da bir ömrün axırı ola bilməz!". Ona görə mənə elə gəlir ki, bu kitabın hələ davamları olacaq, hələlik bununla tanış olun, fəaliyyətimizin davamında görüşmək üzərə. Sağolun!

***B.Gürçam***

# BÜLENT GÜRÇAMIN TƏRCÜMEYİ - HALI

*Gürçam Bülent Fərman oğlu 1962-ci ildə İğdırda anadan olub. Əslən Qərbi Azərbaycanın Canfida kəndindəndir.*

*1931-ci ildə Türkiyə ilə o zamankı Sovet Ermənistanı arasında ikitərəfli deportasiya başlayanda atası Fərman Əli oğlu və ailəsi də Qərbi Azərbaycandan - öz dədə-baba torpaqlarından İğdıra köçüblər.*

*1980-ci ildə Bülent Gürçam Belçikanın paytaxtı Brüssel şəhərinə yollanmışdır. İlk vaxtlar Türkiyədə çıxan «Son Havadis» qəzetinin, daha sonra isə nüfuzlu «Tərcüman» və «Hürriyyət» qəzetinin Belçikadakı ofislərində çalışıb.*

*Bu illərdə Bülənt Gürçam həmçinin milli diasporumuzun formalaşması və inkişafı naminə böyük işlərə başlayır və bir sıra layihələr həyata keçirir.*

*Bülənt Gürçamın peşəkar diaspor rəhbəri kimi fəaliyyəti 1980-ci illərdən başlayır. Brüsselə gəldiyi gündən Azərbaycan həqiqətlərinin təbliğatı ilə məşğul olan Bülənt Gürçam 1987-ci ildə Belçikada ilk türk qəzeti olan «Qürbət» adlı qəzet nəşr edir. Elə həmin illərdə Azərbaycanda yaranmış «Vətən» cəmiyyəti ilə əlaqələr quran Bülent Gürçamın məqalələri «Odlar Yurdu» qəzetində də çap edilməyə başlayır və "Vətən» cəmiyyəti ilə bir sıra tədbirlər həyata keçirir. O, Belçikada dəfələrlə "Xocalı çadırı» təşkil etmiş, Ümümdünya Gömrük Təşkilatının Brüsseldəki mərkəzi malikanəsi önünə bütün türk dünyasının rəmzi olan Dədə Qorqud abidəsinin qoyulmasını təşkil etmiş, üzərində Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın çağdaş prezidenti İlham Əliyevin şəkilləri olan xüsusi poçt markaları nəşr etdirmiş, azərbaycanlı əlillərə təmənnasız olaraq dəfələrlə qaçqın və əlillərə xaricdən yardımlar gətirmiş, milli bayramlarımızda, xüsusilə Qurban bayramında Azərbaycanın bölgələrində məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə baş çəkərək onlara qurbanlar paylamış, paytaxt Bakıda ilk dəfə olaraq Avropada geniş qeyd olunan "Qonşular bayramı»nı təşkil etmiş, xarici turistlər üçün fransız dilində «Azərbaycan milli mətbəxi» və «Əsir Torpaq Qarabağ» adlı kitablar nəşr etdirmiş və bir sıra yaddaqalan tədbirlər həyata keçirmişdir.*

*"Vətən» cəmiyyətinin dəstəyi ilə 1989-cu ilin dekabr ayında vətəni görmək üçün Azərbaycana gələn Bülənt Gürçam qanlı 20 yanvar hadisələrinin şahidi olmuş və bu hadisələri özü ilə gətirdiyi video-kamera və foto-aparatlarla çəkərək bütün dünyaya yaymışdır. 1990-cı il yanvar ayının (ocaq ayının) sonunda Bakıdan çıxarılan Bülənt Gürçam Moskvaya yola düşərək orada Beynəlxalq KİV nümayəndələri ilə canlı əlaqələr quraraq Bakıdakı hadisələri xarici dillərdə bütün dünyaya çatdırmışdır.*

*B. Gürçam 1995-ci ildə Brüsseldə ilk Azərbaycan səfirliyinin yaranmasında iştirak etmiş, 2000-ci ilədək, 5 il müddətində səfirlikdə çalışmışdır.*

*Lakin vətəndaşlıq statusu ala bilmədiyi üçün öz ərizəsi ilə tutduğu vəzifədən istefa vermiş və 2000-ci ildə «Belçika Azərbaycan Evi» adlı diaspor təşkilatı yaratmışdır.*

*«Belçika Azərbaycan Evi» Azərbaycan mədəniyyətini, tarixini, incəsənətini avropalılara tanıtmaq, eləcə də dünya azərbaycanlılarını bir araya toplamaq məqsədilə yaradılmış bir diaspor təşkilatıdır.*

*2000-ci ildən "Azərbaycan Kültür və İnformasiya» dərgisini, 2003-cü ildən isə hər il Xocalı faciəsinin anımı ərəfəsində dörd dildə "Genocide» jurnalını nəşr edən Bülent, Xocalı həqiqətləri, ermənilərin azərbaycanlılara qarşı terrorçu əməlləri barədə avropalılara bu gün də ən yeni və operativ informasiyalar verməkdə davam edir.*

*Bülent Gürçam bu gün Avropada yaxşı tanınan, Azərbaycan diasporunun görkəmli nümayəndəsi, «Belçika Azərbaycan Evi»nin təsisçisi və rəhbəri, ölkəmizdə və xaricdə yayımlanan "Euro Xəbər» qəzetinin Baş Redaktorudur.*

*Təsadüfi deyildir ki, Milli Liderimiz Heydər Əliyev Bülent Gürçamın fəaliyyəti ilə həm bir diplomatik korpus əməkdaşı-səfirliyin işçisi kimi, həm də bir diaspor rəhbəri kimi şəxsən maraqlanmış, onunla söhbət etmiş, tövsiyələr vermişdir. Prezident İlham Əliyev isə Brüsselə gələrək, Dünya Gömrük Komitəsinin iqamətgahı önündə qoyulmuş «Dədə Qorqud» heykəlinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Xatırladaq ki, Bülent Gürçam Azərbaycan Beynəlxalq Universitetinin hüquq fakültəsini bitirib.*

# BELÇİKADAN MƏKTUB

*Bülent Gürçam: «Gəlin, güclü bir Azərbaycan üçün əl-ələ verək»*

**Çox dəyərli həmvətənlərim. Sizə bu məktubu illərdir Azərbaycanın taleyi uğrunda çalışan Bülent Gürçam yazır. Mənə sizin qəzetinizi Azərbaycandan daim mənimlə əlaqə saxlayan həmvətənlərim göndərib. Nəhayət ki, Belçikada uzun illərdən bəri arzusunda olduğumuz bir «Kültür Evi» təşkil edə bilmişik. Cəmiyyətimiz müəyyən işlər görə bilib. Tərkibi 30 nəfər azərbaycanlıdan ibarət olan bir futbol komandası yaratmışıq. Belçika Futbol Federasiyasına daxil olan komandamızın geydiyi idman formasının rəngləri bayrağımızın rəngindədir. İnşallah, yaxınlarda fotoşəkilləri sizlərə göndərərik.**

Bizim fəaliyyət sahələrimiz çox genişdir. Belçika hökuməti tərəfindən qəbul edilən fəaliyyətimizin bəzi istiqamətlərini nəzərinizə çatdırırıq:

1. Azərbaycan mədəniyyətini, tarixini, turizmini, təbii zənginliklərini Belçika xalqları arasında tanıtmaq. Azərbaycanla Belçika arasında dostluq və mədəni əlaqələri genişləndirmək.
2. Azərbaycandan Belçikaya, Belçikadan Azərbaycana qarşılıqlı olaraq iş adamları, jurnalistlər, elm adamları, dövlət adamları dəvət etmək, ticarət və mədəni əlaqələrə təminat yaratmaq.
3. Azərbaycanda yüksək təhsil görmüş gənclərin Avropada (Belçikada) təcrübə keçmələrinə imkan yaratmaq.
4. Belçikaya hər hansı bir məqsədlə gələn həmvətənlərimizi bu ölkədə qarşılamaq, onlara kömək etmək.

Fəaliyyətimiz daha genişdir, hamısını söyləmək uzun çəkərdi. Öz fəaliyyətimizdə ən böyük gələcəyi isə həmvətənlərimizdən gözləyirik. Xahiş edirik ki, bizimlə əlaqələrinizi davam etdirəsiniz. Bizə Azərbaycan haqqında kitablar, fotolar, sənədlər və öz qəzetinizi göndərin. Göndərilən işlərin qiymətini ödəməyə hazırıq.

Sonda özümü sizlərə daha yaxından tanıtmaq istəyirəm:

1980-ci ildə Belçikaya gəlmişəm. İğdırda doğulmuşam. Atam İğdıra Naxçıvan tərəfdən köçüb. Ancaq çox heyif ki, biz bu kəndi indi tapa bilmirik. Orada bizim çoxlu qohumlarımız qalıb. Belçikada uzun müddət jurnalist işləmişəm. 1987-ci ildə Belçikada «Qürbət» adlı ilk dəfə olaraq türk dilimizdə qəzet nəşr etmişəm. 1990-cı ilin faciəli günlərində Bakıda olmuşam. Ayın 21-də (faciədən bir gün sonra) məni təyyarəyə mindirib Moskvaya yolladılar. 21-i gününün axşamı o acı hadisələrin fotoşəkillərini bütün dünya qəzetlərinə və fransız televiziyasına mən çatdırdım. Moskvadan çıxanda 18 video kaseti özümlə apardım. Bu kasetləri müxtəlif yerlərdə göstərdim. İndi Brüsseldə təşkil etdiyim «Kültür Evi»ndə bütün imkanlarımızı səfərbərliyə alaraq, Azərbaycan adlı məmləkəti tanıtmaqla məşğulam.

Mənim bir sözüm var, onu məktublarda çox həmvətənimə yazmışam: «Güclü bir Azərbaycan üçün gəlin əl-ələ verək!». İndi sizdən xahiş edirəm gəlin bir-birimizlə çəkişmələrə son qoyaq, tam vücud olaq, yalnız bu zaman düşmənin belini sındıra bilərik. Lütfən, qəzetinizdə bizim ünvanımızı dərc edin. Qoy, həmvətənlərimiz bizimlə əlaqə saxlasınlar, işlərimiz haqqında da öyrənmək istəsələr bizdən soruşsunlar. Ticarət, mədəni əlaqə, turizm, təhsil, sənəd və sair sahələrdə yardımçı ola bilərik. Sizlərə xoş günlər, işlərinizdə başarılar diləyirəm. Sağ olun!

***Yazışma ünvanı:* Gürçam 1000, Brüssel**
***Bülent Gürçam***
***5 noyabr, 1992***
***"Odlar yurdu" qəzetində çap olunmuşdur***

# QARANLIQ YOLLARDA YOLÇULUQ OLMAZ!

**Dəyərli oxucular, addım-addım irəlilədiyimiz Avropa ideyası yolunda bu gün sizlərə təqdim etdiymiz qəzet çoxdan qəlbimizdə bəslədiyimiz bir istəyin tamamıdır. Bu gün fikirlərimizi qəzetimiz vasitəsilə sizlərlə bölüşsək də, əməyimizin bəhrəsi daha çox sizlərin rəyindən asılı olacaq. Önəm verəcəyimiz ən böyük amil qarşıdakı Avropa yolunda öhdəmizə düşən işlər və onların tərəfimizdən necə yerinə yetirilməsidir.**

Məqsəd, xaricdə yaşayan diasporun gücünə inanmağın vacibliyini, imkanlarını diqqətə çatdırmaqdır.

Uzun illər xaricdə yaşayan azərbaycanlı kimi Azərbaycanı tanıtmaq naminə bir diaspor təşkilatı olaraq fəaliyyətimizi bu günədək davam etdirməkdəyik. Bu gün qarşınızda gördüyünüz qəzet həmin fəaliyyətimizin bir nümu-

nəsidir. Qəzetin məramı göz önündədir. Mən sadəcə diqqətinizi bəzi məqamlara yönəltmək istərdim. Bu günədək gördüyümüz işlərdə və mətbuat səhifələrində problemimizdən çox bəhs etdik, amma çox az şeyler dəyişdi..

Amalımız qarşılıqlı ittihamlardan uzaq mediaçılığa önəm verib, mətbuata yeni bir ruhda ayaq basmaqdır. Qəzetimizdə oxuyacağınız xəbərlər xaricdə yaşayan soydaşlarımızın, əcnəbilərin kənardan Azərbaycana baxışlarını əks etdirəcək. Yazarlarımız arasında bu sayımızda olduğu kimi beynəlxalq təşkilatların təmsilçiləri, əcnəbi jurnalistlər və dünya siyasətinin tanınmış simaları olacaq. Onlar, Azərbaycan haqqındakı fikirlərini, problem və perspektivlərini sizlərlə bölüşəcəklər.

Digər məqsədimiz, Avropaya gedən yolda oxucularımıza daha qaynar və ilkin məlumatlar verməkdir. Məqsəd, sıravi Azərbaycan vətəndaşının bu proseslərin axarına düşməsinə yardımçı olmaqdır. Avropa qanunları, həyat səviyyəsi, siyasi sistemi və düşüncə tərzi barədə dolğun materiallar da səhifələrimizdə yer alacaq. Milli mənafelərimizə xələl gətirə biləcək hər hansı olayın da şərh olunaraq oxucularımıza çatdırılması əsas məqsədlərimizdəndir.

Hələlik qəzetimizin ayda iki dəfə işıq üzü görməsi nəzərdə tutulub. Yaxın gələcəkdə həftədə bir dəfə olmaqla görüşünüzə gəlmək arzusundayıq. Qəzetin baş redaktoru kimi sizlərin təşəbbüsümüzə diqqət verəcəyinizə böyük ümidlər bəsləyirəm. Ən kiçik qeydiniz belə bizim üçün önəmlidir.

Milli mənafelərimiz naminə gördüyümüz işlərdə sizlərin dəstəyinə böyük ehtiyacımız var. Gələcək sayımızda daha yüksək bir qəzet səviyyəsində görüşmək ümidilə!

*22 iyul, 2004-cü il*

## AVROPA BİZİ QƏBUL ETDİ!

**Hörmətli oxucular, bu gün qəzetimizin ikinci sayı ilə yenidən sizlərlə görüşə gəlmişik. Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, qəzetimizin oxucuları gündən-günə artmaqda davam edir. Öncədən xəyal etdiyimiz arzuların demək olar ki, bir çoxu tədricən həyata keçir. Uğurlarımızı labüd edən sizlərin qəzetimizə münasibəti, diqqəti və qayğısıdır. Digər tərəfdən, Avropa ictimaiyyəti də qəzetimizi yüksək səviyyədə dəyərləndirməkdədir. Ümummilli Liderimizin çox böyük önəm verdiyi Avropaya inteqrasiya yolunda yeni nailiyyətlər əldə etmək qəzetimizin başlıca məqsədidir. Elə bu yazımda da əldə etdiyimiz nailiyyətlərin ləzzətini sizlərlə paylaşmaq fikrindəyəm, əziz həmvətənlərim!**

Bir jurnalist və diaspor rəhbəri kimi indi həyatımın ən həyəcanlı anlarını yaşayıram. Xalqımıza belə bir xidmət göstərmək imkanından qürur duyuram. Yol artıq açılıb, hədəflərimiz də məlumdur. Əsas məsələ irəliyə doğru əzmlə addımlamaqdır.

Dəyərli oxucular! Diqqətinizi Ümummilli Liderimiz Heydər Əliyevin 27 dekabr 2002-ci il tarixdə imzaladığı «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» fərmanına yönəltmək istərdim. Aradan xeyli müddət keçməsinə baxmayaraq, fərmanın icrasıyla bağlı mövcud problemlər hələ də aradan qalxmayıb. Gələn saylarımızdan başlayaraq, sözü gedən qanunun bəndləri və icra mexanizmləri barədə oxucularımıza ətraflı məlumat verəcəyik. Xalqımız üçün olduqca önəmli olan belə bir məsələnin müzakirəsində dəyərli fikirlərinizə ehtiyacımız var.

*13 avqust, 2004-cü il*

## MÜXALİFƏT DEYİLƏN SÖZ...

**Üç ölkənin mədəniyyətini bir yerdə yaşamaq insanlara həyatda çox şeylər öyrədir və çox şeylərdən də nifrət etdirir. Mən azərbaycanlıyam. Türkiyədə anadan olmuşam. İyirmi beş ildir Belçikada yaşayıram. Türkiyədə gördüklərim və yaşadıqlarım, Belçikada gördüklərim və yaşadıqlarım mənə Azərbaycan haqqında çox açıq düşünməyə kömək edib. Buna görə də istəyirəm ki, bu düşüncələrimi siz həmvətənlərimlə də paylaşım.**

Bilirsinizmi, ən demokratik ölkələrdə belə insanlara xitab şəkilləri var. Tənqidin özünün də dərəcəsi və təhəri var. O cümlədən, müxalifət deyilən təbəqənin də öz siyasəti var. Əlbəttə, bu barədə söhbət açmaqla kimlərəsə dərs demək fikrində deyiləm. Mənim məqsədim sadəcə olaraq, müxalifət barədə düşüncələrimi oxucularımla bölüşməkdir. Çünki, bu məsələ ilə bağlı söylənən fikirlərdə çoxlu xətalara yol verilir. Mənim məqsədim heç də bu xətalara yol verənləri arayıb-axtarmaq, yaxud tənqid etmək deyil.Olsa-olsa, bu səfsəfələri oxuyanlara (əgər varsa) dünyanın inkişaf etmiş ölkələrində bu məsələlərə necə münasibət bəslənildiyini nümunə göstərməkdən ibarətdir. Yaxşısı budur keçək mətləbə. Məsələ orasındadır ki, bəzi insanların tamamilə fərqli düşüncəyə malik olmalarına baxmayaraq, müxalifət sözü leksik anlamda heç də yabançı, yaxud vulqar və pis bir məna ifadə etmir. Bu söz yal-

nız bizim Azərbaycanda-bizim ölkəmizdə pis və arzuolunmaz bir mənada işlədilir. Əslində, müxalifət dünyanın hər yerində olan və olması vacib olan bir nəsnədir. Müxalifət yaxud müxalifətçilik klassik fəlsəfi anlamda həyatı, inkişafı şərtləndirən və dialektikanın cövhərini təşkil edən zərurətdir. Müxalifət həmçinin, əksiklərin vəhdətini şərtləndirən bir qanunauyğunluqdur. Bunsuz cəmiyyətin normal inkişafı qeyri-mümkündür. Bu mənada müxalifət hər bir cəmiyyətdə hər sahədə-istər ictimai-siyasi, istərsə də digər sahələrdə ola bilər və olmalıdır da. Yəni müxalifət sözünün xarici dillərdəki mənasına baxsanız görərsiniz ki, müxalifət bəzilərinin zənn etdiyi kimi, ancaq siyasətə aid bir istilah deyildir. Həyatın hər sahəsində istifadə olunan bir sözdür. Elə mən də bu dəqiqə bu yazımla nəyəsə və kimlərəsə müxalifətdəyəm. Əlbəttə, söhbət konstruktiv, yaradıcı, qurucu müxalifətdən gedir, destruktiv, dağıdıcı müxalifətdən yox!

Lakin nədənsə, bizdə bu iki yoldan hec biri ilə düz-əməlli gedən yoxdur. Sual olunur, bəs nə var? Bizdə müxalifət adı altında fərqli düşüncə sahibi olan insanların bir-birlərinə ancaq çamur atmaq, ləkələmək, gözdən salmaq sistemi yaranib. Dünyanın inkişaf etmiş mədəni ölkələrinin heç birində bizdə olan belə rüsvayçılıq yoxdur və ola da bilməz. Çünki, mədəni ölkələrdə insanların fərqli düşüncə sahibi olmalarına görə bir-birlərinə çamur atıb ləkələməsi qanunla cinayət sayılır. Cinayət isə heç vaxt cəzasız qalmır. Yəni bilmədiyin, ətraflı məlumatın olmadığı, kimlərinsə ağzından eşitdiyin sözləri əlində bayraq edib kimlərisə ləkələmək istəyi qanunun bütün sərtliyi ilə cəzalandırılır. Ancaq bizim Prezidentimiz son dərəcə humanizm nümayiş etdirməklə destruktiv müxalifəti düz yola dəvət edir. Cənab Prezident deyir ki, "Mənim bu insanlara söz deməyə ehtiyacım yoxdur. Şikayət etməyəcəyəm və dövlət məmurlarına da bunu tövsiyyə edirəm". Əsl böyüklük də elə burasındadır. Əslinə baxsan, sənin haqqında nalayiq sözlər deyən insana mədəni yanaşmaq, onun səviyyəsinə enməmək, bəlkə əksinə onu belə nalayiq işlərdən çəkindirmək böyüklük, insanlıq, ziyalılıq sayılır. Lakin belə bir mədəniyyət, bunu anlayan, qiymətləndirən, başa düşən insanlara qarşı həyata keçirilməlidir. Bunu anlamayanlara qarşı isə nə etmək olar?! Çünki, bu insanlar ətrafa ancaq "At eynəyindən baxırlar", bunların niyyəti ölkəni anarxiyaya (siyasi kriz) sürükləməkdir. Bu insanlar bu sözləri yalnız bizim ölkəmizdə yox, xaricdə də əcnəbi insanlara deyəcək qədər cahil bir həyat yaşayırlar. Belə əqidə sahibləri nə mətbuatdan xəbərdardırlar, nə də siyasətdən. Mən üzümü bu insanlara tutaraq, fransızların və mənim çox sevdiyim bir atalar sözü ilə cavab vermək istəyirəm: "Bəylər, sizinlə ova getmək olmaz!".

***12 may, 2005-ci il***





# *DAK-da TƏZƏ QAN*

**Dünya Azərbaycanlılarının ən böyük təşkilatlarından olan DAK (Dünya Azərbaycanlıları Konqresi) İsveçin Stokholm şəhərində 8-ci qurultayını başa çatdırdı. Mən, «Belçika Azərbaycan Evi»nin rəhbəri kimi ikinci dəfə idi ki, bu qurultayda iştirak edirdim. İlk dəfə DAK- ın 6-cı qurultayında iştirak etmişdim.**

Doğrusu, o zaman Hollandiyanın Haaqa şəhərində keçirilən bu qurultaydan heç razı qalmamışdım və bu narazılığımı sonradan keçirdiyim bir neçə mətbuat konfransında və yazdığım məqalələrimdə də dilə gətirmişdim. Mən, o zaman DAK-ın belə gedərsə parçalanacağını söyləmişdim. Həmçinin təklif etmişdim ki, DAK adını dəyişdirib DAO-yəni (Dünya Azərbaycanlıları Otağı) qoysunlar. O zaman mənim bu təkliflərimə həm DAK İdarə heyətindən (sədr daxil olmaqla), həm də başqa çevrələrdən çox təpkilər gəlmişdi. Bir çoxları mənim təkliflərimlə razılaşmadıqlarını və fikrimin doğru olmadığını bildirmişdilər. Lakin az sonra zaman mənim haqlı olduğumu sübut etdi. DAK-da mənim əvvəlcədən görüb duyduğum hadisə baş verdi. Təşkilat parçalandı, yəni, gözlənilən o hal yarandı və DAK ikiyə bölündü. Bunun səbəbləri əlbəttə ki, çoxdur. İndi bütün bu səbəbləri bir-bir araşdırmağa həm ehtiyac yoxdur, həm də buna zamanımız yetməz.

Onu da qeyd edək ki, bu qurultayda adı çəkilən təşkilatın idarə heyəti üzərinə götürdüyü çox böyük və məsuliyyətli vəzifələri yerinə yetirə bilmədiyini, DAK adına layiq işlər görə bilmədiyini açıq-aşkar etiraf etdi. Təsadüfi deyildir ki, bu qurultaydan əvvəl də təşkilat üzvlərinin əksəriyyəti tərəfindən DAK-da əsaslı islahatların aparılmasına, bu təşkilatda kadr dəyişikliyi keçirilməsinə böyük ehtiyac olduğu söylənilirdi. Zaman bu deyilənlərin doğruluğunu sübut etdi.

DAK-ın 8-ci qurultayında bu məsələ bütün aktuallığı ilə ortaya çıxdı. Yəni, gözlənilən hadisə baş verdi. Obrazlı şəkildə desək, DAK-a lazım olan "təzə qan" tapıldı.

Mən bir təşkilatçı kimi deyə bilərəm ki, bundan belə Dünya Azərbaycanlıları çox dəyişik bir DAK görəcəklər. Onu da deyim ki, Azərbaycanımızdakı bəzi təşkilatları və əsasən də Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsini təbrik eləmək istəyirəm. Çünki bu qurumun xətti ilə bir çox təşkilatların nümayəndələri, siyasətçilər, millət vəkilləri, jurnalistlər, o cümlədən müxalifət düşərgəsi mənsubları bu qurultaya qatılmışdılar. Bu isə artıq xaricdə yaşayan həmvətənlərimizə dövlət səviyyəsində göstərilən

qayğının təzahürüdür. Mərhum xalq şairimiz Məmməd Arazın şerlərindən birində belə bir misra var: «Bu daş çoxdan atılmışdı, indi düşdü!». Əslində, şair bu şeri tamam başqa bir məqam üçün yazsa da, mən bu misralarda ifadə olunan fikirlə, DAK-ın bugünkü durumu arasında bir oxşarlıq və bənzəyiş görürəm. Doğrudan da, qayğı əsas şərtdir və bu qayğı da bizim Ümummilli Liderimiz tərəfindən çox öncədən göstərilmişdi. Təəssüflər olsun ki, bu qayği bizim ibarəpərdazlar tərəfindən yalnız indi, yalnız baş vermiş hadisələrdən sonra, özü də təzə bir şey kimi başa düşülməkdədir. Məhz Ümummilli Liderin bu qayğısı xaricdə yaşayan həmvətənlərimizdə belə bir əminlik yaradır ki, DAK-ı çox gözəl günlər gözləyir. Belə bir nikbinlik həm də ondan irəli gəlir ki, DAK-ın bu qurultayında çox ciddi, mən deyərdim ki, taleyüklü dəyişikliklər oldu. Üç gün davam edən bu qurultayda çox ciddi qərarlar qəbul olundu. Xaricdə yaşayan hər bir soydaşımızın doğma Vətəni olan Azərbaycan üçün görülən işin bünövrəsinə bir daş qoymasının zəruriliyi qeyd olundu.Təsadüfi deyil ki, bu işə könüllü olaraq ürəkdən qoşulanlardan biri də mən özüm oldum. Elə bu amacla da böyük həvəs və şövqlə DAK-ın sıralarına qatıldım. Bu təşkilatın Belçika üzrə təmsilçisi və eyni zamanda da DAK sədrinin maüvini vəzifələrini aldım.

Qurultayda diqqət çəkən məqamlardan biri də Londonda təhsil alan gənç tələbələrimizdən Tale Heydərovun çıxışı oldu. Azərbaycanlı tələbə Avropanın paytaxtı sayılan Belçikada dünya azərbaycanlıları tələbə-gənclərinin forumunun keçirilməsi təklifini irəli sürdü. Bu təklif mənim də ürəyimdən oldu. DAK-ın Belçika şöbəsi olaraq, bu işi də boynumuza götürdük və qəbul elədik. Heç şübhəsiz ki, yaxın zamanlarda «Belçika-Azərbaycan Evi»nin təşkilatçılığı və dəstəyi ilə azərbaycanlı gənclərin Brüsseldə keçiriləcək Forumu milli diasporumuzun tarixinə qızıl hərflərlə yazılacaq.

*3 iyun, 2005-ci il*

## «MƏNİ CANDAN USANDIRDI»

**Məni candan usandırdı, cəfadan yar usanmazmı?». Böyük şairimiz Məhəmməd Füzulinin bu ölməz misraları birdən yadıma düşdü. Fikirləşdiyim şey isə xaricdə yaşayan azərbaycanlıların gələcəyi oldu. Səhər fikirləşirdim ki, bu barədə bir yazı yazım, birdən ağlıma bu gözəl misralar gəldi. Mən də bu misraları beləcə götürərək, indi yazdığım məqaləm üçün sərlövhə seçdim. Bunun əsas səbəbi bu məqaləmdəki mətləblərlə dahi şairin məlum misraları arasında bir bənzəyişin və oxşarlığın olması oldu. Ədəbiyyatda belədir. Öncə yazıb sonra fikirləşib ona məna vermək. Mən də dahi şairin bu məşhur misraları ilə mənim düşüncələrim arasındakı oxşarlığın səbəblərini açıqlamaq istəyirəm.**





Öncə deyim ki, bu məşhur misralardakı «can» sözü mənə ilk növbədə Azərbaycan kəlməsini xatırlatdı. Çünki bu bir kəlmə «can» sözü bütün əsrlərdə doğma vətənimiz Azərbaycan sözünün tərkib hissəsi olub. «Can» kəlməsini soydaşlarımız vətən üçün işlədiblər əsrlər boyu. Bu gün bizlər-yəni xaricdə yaşayan (müəyən tarixi səbəblərdən) azərbaycanlılar da «can» sözünü çox işlədirik. Bilirsinizmi, «Can» sözündəki məni bu qədər təsirləndirən və mütəəssir edən cəhət nədir? Elə isə mən ərz edim, siz isə dinləyin, əziz həmvətənlərim.

Söhbət xaricdə yaşayan 50 miliyon azərbaycanlı soydaşımızdan gedir. O soydaşlarımızdan ki, 35 miliyonu öz tarixi vətənində yad kimi yasayir. Belə baxanda dünyadakı bəzi dövlətlərin əhalisindən qat-qat çox olan, lakin ikiyə bölünmüş böyük bir xalqın Cənubdakı yarısı öz torpaqlarında özünün ana dilində məktəbi olmadan yaşayır. Özünün milli bayrağı, milli gerbi, milli himni olmadan yaşayır. Əgər buna yaşamaq deyilərsə.

Otuz beş milyon xalqımız belə yaşayır. Hazırda dünyanın müxtəlif ölkələrində yaşayan 5 milyon azərbaycanlı öz tarixi vətəni olan Azərbaycanın vətəndaşlığını qəbul etmək istəyir. Bu insanlar «can» sözünü özlərinə bayraq, ürəklərinə dağ eləyiblər. Bu insanlar dünyanın harasında yaşamaqlarından asılı olmayaraq, doğma vətənləri olan Azərbaycan naminə hər bir əziyyətə və möhnətə qatlaşmağa hazırdırlar. Ona görə də bu soydaşlarımız milli diasporumuzu vahid qüvvə və güc mərkəzi kimi görmək istəyirlər.

Belə fikirləşəndə görürsən ki, biz dünyada bu dərdi yaşayan yeganə ölkəyik. Bəs, görəsən, bu vəziyyətdən çıxış yolu nədədir? Əlbəttə, bu suala nə zamansa cavab tapılacaq. İndi isə icazənizlə qayıdaq əvvəlki mövzumuza-yəni ulu Füzuliyə və onun bayaq adını çəkdiyim məşhur misralarındakı «usandırdı» sözünə. Mənə elə gəlir ki, bu bir kəlmə söz inciklik, qırıqlıq, əlaqəsizlik, sahibsizlik, çagırışdır. Bəli, dünyada yaşayan hər bir azərbaycanlının ürəyində bu inciklik var. Bu sözün altında isə vətən həsrəti, vətən üçün bir iş görə bilmək yanğısı, ikiyə bölünmüş doğma sahilləri birləşdirə bilmək, özünün haqq və hüquqlarını həyata keçirə bilmək amalı gizlənib.

Bütün bunlar xaricdə yaşayan azərbaycanlılar üçün ən böyük cəfadır. Bəli, vətən həsrəti vətəndən uzaqlarda yaşayanlar üçün ən böyük cəfadır de-

sək, yanılmarıq. Bu gün 40 miliyon insan çəkir bu cəfanı. Bəlkə də ona görədir bizim muğamlarımız da bu qədər kədərli, bu qədər dərdli və bu qədər ələmlidir. Bu muğamları dinləyərkən insan övladı bir şam kimi əriyir bu nisgilin, bu həsrətin, bu hicranın önündə.

Dahi Füzulinin «cəfadan yar usanmazmı?» misralarını isə elə bilirəm ki, bu boyda vətən nisgilini, vətən həsrətini bizlərə yaşadan siyasətbazlara ünvanlamaq çox yerinə düşər. Söhbət bizləri vətən həsrəti çəkməyə vadar edən insafsız, ürəksiz, qəlbsiz insanlardan gedir. Bunun səbəbi isə ikili vətəndaşlıq haqqında qanunun hələ də Milli Məclisin müzakirəsinə çıxarılmamasıdır. Belə bir qanunun həyata vəsiqə almaması, doğma vətənimizin vətəndaşı olmaq üçün burnunun ucu göynəyən, xaricdə yaşayan azərbaycanlıların taleyinə biganə münasibət deməkdir.

Lakin bu da bir həqiqətdir ki, hələ 2003-cü ildə Ümummilli Liderimizin xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında fərmanı olub. Elə bu məqalədəki söhbətimizin mətləbi də əlaqədar dövlət qurumlarının və vəzifəli məmurların bu fərmana məhəl qoymamalarıdır. Onu da deyim ki, Prezidentimizin bu məsələ ilə bağlı daha bir qərarı da var.

Mən bu məqaləni çox əlamətdar bir vaxtda-cənublu qardaşlarımızın Babək qalasına yürüş elədikləri bir zamanda yazdım. Çünki bu gün doğrudan da çox əlamətdar bir gündür. Bu gün Arazın o tayındakı soydaşlarımızın öz hüquq və azadlıqları uğrunda mübarizəyə qalxdıqları bir gündür. Bu yolda isə həm də lazım gələrsə, vətən naminə ölmək də var, düşmənə qalib gəlib qazi olmaq da. Bəli, bu gün mübarizə aparan hər bir Azərbaycanlı Qazidir.

"Qəzamız mübarək olsun!".

*15 iyun, 2005-ci il*

# XARİCDƏ YAŞAYANLAR....

**Xaricdə yaşayanlar! Bu ad bizim adımızdır-vətəndən uzaqlarda yaşayanların. Türkiyədə buna «qürbətçi» deyirlər. Bu gün Avropa Birliyinə daxil olan ölkələrin böyük əksəriyyətində doğma vətənini tərk etmiş belə soydaşlarımıza rast gəlmək mümkündür. Yeri gəlmişkən, Avropa Birliyinin tarixinə ötəri bir nəzər salmaq yerinə düşər.**

İkinci Dünya müharibəsindən sonra Avropada bir neçə ölkə öz aralarında birləşərək, həmin dövrdə kömür və polad birliyi adlandırılan Birlik yaratdılar. Lakin, yerin yüzlərcə metr dərinliyindən bu iki cövhəri çıxaracaq ucuz insan qüvvəsinə ehtiyac vardı. Çünki, çətin bir savaşdan çıxmışdı Avropa və işçi qüvvəsi kifayət qədər deyildi. Məhz belə bir zamanda iqtisadi cəhətdən zəif olan və işsizliyin hökm sürdüyü ölkələrdən ucuz işçi qüvvəsi istənilməsi qərara alındı. Bu ölkələrin sırasında Türkiyə də vardı. O vaxt minlərlə türk vətəndaşı öz ölkələrinin icazəsi və müvafiq müqavilələr imzalamaqla Avropaya üz tutdu. Almaniya başda olmaqla, Belçika, Hollandiya, Fransa və digər ölkələr minlərlə türkə məskən oldu və bu insanlara Türkiyədəki ailələri, qohumları tərəfindən belə bir ad verildi: «Qürbətçi». Yəni doğma yurdunu tərk edib qürbətə pul qazanmağa gedən, amma bir gün dönəcəyi ümid edilən yolçu.

Lakin Avropadan istənilən nəticəni ala bilmədi bu vətəndaşlar. Çünki öz vətəndaşlarını xarici ölkələrə göndərməklə mənfəət əldə etmək, paralar qazanmaq istəyən dövlət öz vətəndaşlarını Avropaya göndərdikdən sonra onların taleyi ilə maraqlanmadı, onların hüquqlarının nə dərəcədə müdafiə olub-olunmadığının fərqinə varmadı. Bu insanları sözün həqiqi mənasında ara - yıb axtarmadı. O zaman dövlət xarici ölkələrə göndərdiyi vətəndaşlarının din, dil, milli mentalitetlə bağlı problemləri barədə də demək olar ki, düşünməmişdi. Belə incə məsələlərdəki çox vacib cəhətlər nəzərə alınmamışdı. Nəticə isə olduqca gözlənilməz oldu. Çünki, xarici ölkələrə göndərilmiş bu insanların əksəriyyəti sonradan cahil, oxumağı və yazmağı bacarmayan savadsız bir kütləyə çevrildiyi üçün onlarda milli heysiyyət, milli təəssübkeşlik və milli mentalitet kimi hisslər də təbii ki, ölezidi və tədricən unuduldu. Bu insanlar xaricə yola düşməzdən öncə heç nəyin fərqinə varmamışdılar. Belə yaranmışdı «Qürbətçinin hekayəsi». Bu söz yuxarıda qeyd etdiyim türkiyəli qardaşlarımızla yanaşı, azərbaycanlı soydaşlarımız üçün də aktualdır. Çünki, xaricdə yaşayanlarımız üçün-istər Türkiyə vətəndaşı olsun, istərsə də Azərbaycan vətəndaşı, ortaq cəhətlərlə yanaşı, həm də bir fərqlilik var. Bu məsələyə təsir edən tarixi səbəbləri anlatmağa da ehtiyac yoxdur. Çünki, bunu hər bir Azərbaycan vətəndaşı çox yaxşı bilir. Burda mənim anlatmaq istədiyim tamam başqa şeydir. İlk öncə mən xaricdə yaşayan azərbaycanlıların taleyi ilə maraqlanmalı olan Dövlət Komitəsinə bir neçə sual vermək istərdim. Amma bizdə suala cavab almaq və ya o sualın məsul orqan və şəxsə yetişməsini təmin edən nə bir vasitə var, nə də ümid. Mədəni ölkələrdə hər bir vətəndaşın, onu maraqlandıran suala cavab almaq məqsədilə istədiyi dövlət qurumlarına və təşkilatlarına müraciət etməsi çox adi bir haldır. Çünki, həmin ölkələrdəki məmurlar dövlətin onlara həvalə etdiyi işin öhdəsindən gəlməyin məsuliyyətini çox yaxşı anlayır və buna əməl edirlər. Lakin, bizdə bu sistem hələ ki, öz yoluna düşməyib.

Elə bu səbəbə görə də soruşacağım suallar həddindən artıq çox olsa da, hələlik bir sualla kifayətlənməyi lazım bilirəm: «Görəsən, nə üçün 2002- ci ildə qəbul olunan qanun hələ də kağız üzərində qalmaqdadır?». Əgər bu qanuna bundan sonra da belə biganə münasibət davam edərsə, o zaman xaricdəki vətəndaşlarımızın vəziyyəti necə olacaq?

Bu məsələlərə baxan şəxslərdən xahiş edirəm ki, bu iki suala cavab versinlər və biz də həmin cavabları elə qəzetimizdə yayımlayaq. Mətbuatın 130 illik yubileyi ərəfəsində yeni bir səhifə açılsın mətbuatla dövlət qurumları arasında. Çünki, dünyanın inkişaf etmiş ölkələrində belədir.

*5 iyul, 2005-ci il*

## *10 İLİN XATİRƏLƏRİ*

**Dəyərli həmvətənlərim, bildiyiniz kimi Azərbaycanın media məkanında ilk diaspor qəzeti olan «Euro Xəbər»in iki sayı çapdan çıxıb. Məlum olduğu kimi bir müddət meydana çıxan texniki problemlərin ucbatından bu qəzetin nəşri müvəqqəti olaraq dayanmışdı. Allaha şükürlər olsun ki, artıq bu çətinliklər arxada qalıb və biz Siz oxucularla yenə də üz-üzəyik. Bu gün bizim qürür günümüzdür, sizlərə təkrar qovuşduğumuz üçün. İnanırıq ki, bu qovuşmamız artıq əbədi olacaq.**

Bu günün digər gözəl hadisəsi isə Belçika Krallığında Azərbaycan səfirliyinin acılmasının 10 illiyinin tamam olması ilə bağlıdır. Mən bu yazımda da məhz bu hadisə ilə bağlı təəssüratlarımı sizinlə bölüşmək istəmişəm. Məlum olduğu kimi artıq dünyanın əksər ölkələrində səfirliklərimiz mövcuddur və digər ölkələrlə diplomatik əlaqələrimiz yaranır, yeni səfirliklərimiz açılır. Biz bu barədə qəzetimizdə müntəzəm olaraq məqalələr dərc etrmişik və gələcəkdə də bu barədə silsilə yazılar verməк, sizləri xarici ölkələrdəki səfirliklərimizin fəaliyyəti ilə tanış etmək fikrindəyik.

Oxucularımıza xatırlatmaq istərdim ki, «Euro Xəbər» qəzetini hazırlayıb ərsəyə gətirən təşkilat- yəni «Belçika-Azərbaycan evi» mənim 25 ildən bəri yaşadığım Brüssel şəhərində yerləşir. Mən hələ 1995-ci ildə bu şəhərdə «Odlu Vətən» adlı bir dərgi nəşr etdirməyə başlamışdım. O zaman milli diasporumuz olduqca zəif, fəaliyyəti hiss olunmayacaq bir vəziyyətdə idi. Belə çətin zamanda mən soraqlaşaraq Belçikaya gəlmiş, burada məskunlaşmış soydaşlarımızı çətinliklə də olsa axtarıb tapır, onlarla xaricdə yaşayan həmvətənlərimizin problemləri və bu problemlərin həlli yolları barədə söhbətlər aparır, burdakı azərbaycanlıları bir diaspor və güc mərkəzi halında təşkil etmək üçün yorulmadan çalışırdım. O zaman əlaqə yaratdığım və işbirliyi yapdığım soydaşlarımızdan biri də hal-hazırda Azərbaycanın Yunanıstandakı səlahiyyətli və fövqəladə səfiri Mirhəmzə Əfəndiyev idi.



Biz o zaman Mirhəmzə Əfəndiyevdən xahiş etmişdik ki, Bakıya qayıdan zaman dövlət rəhbərliyi qarşısında Azərbaycanın Belçikada da səfirliyinin açılması barədə məsələ qaldırsın. İş elə gətirdi ki, az bir zaman ərzində bizim bu ölkədə həqiqətən də səfirliyimiz açıldı. Yaxşı yadımdadır, Mirhəmzə Əfəndiyev may ayının axırı və iyun ayının əvvəllərində Belçika Krallığına Azərbaycan Respublikasının ilk fövqəladə və səlahiyyətli səfiri kimi gəldi. O zaman Mirhəmzə müəllimlə çiyin-çiyinə mən-Bülənt Gürçam və Arif Məmmədov, yəni cəmi üç nəfər yeni açılmış səfirliyimizin yaradılması işinə başladıq. Yeri gəlmişkən deyim ki, sonradan Arif Məmmədov Mirhəmzə Əfəndiyevi səfir postunda əvəz etdi.

Bu gün 10 illiyini qeyd etdiyimiz Belçikadakı səfirliyimizin ilk təməl daşlarını qoyanlardan biri də mən olmuşam. Lakin bu gün ötüb keçən 10 ilə nəzər salanda istər-istəməz təəssüflənir, içimdə bir sınıqlıq hissi duyuram. Çünki biz o zaman səfirliyin ilk təməl daşlarını qoyanda həm də Azərbaycan diasporunun gələcəyini, bu ölkədəki səfirliyimizin xaricdə yaşayan həmvətənlərimizlə iş birliyi quracağını, sıx əlaqələr yaradacağını, milli diasporumuzun və lobbimizin inkişafına dəstək verəcəyini güman etmişdik. Təəssüflər olsun ki, bü umidlərimiz özünü doğrultmadı. Ancaq hər şeyin yaxşı olacağına ümüdliyik. Çünki yeni səfirimiz bizimlə əlaqələri daha yüksək səviyyədə qurmağa çalışır.

İnşallah gələcəkdə Belçikadakı səfirliyimiz və Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin birgə səyi ilə çox böyük işlərin görüləcəyi planlaşdırılır. Bu barədə qəzetimizin gələcək saylarında həmvətənlərimizə məlumat verəcəyik. Düşünürəm ki, İnşallah bir daha 10 illəri itirmərik.

***2005-ci il***

## *BİR YAŞINDAYIQ!*

***(«EURO Xəbər» qəzetinin nəşrə başlamasının bir illiyi münasibətilə)***

**Bu gün bizim çox xoşbəxt bir günümüzdür. Bu xoşbəxtliyimizi də ancaq sizinlə paylaşa bilərik. Çünki bizi bu yaşımıza siz gətirdiniz, sizlərin diqqəti ilə ərsəyə gəldik, bir yaşına çatdıq, bir yaş böyüdük, əziz oxucularımız!**

Əslində, qəzetimizin bir yaşının tamam olması Sizin bayramınızdır, əziz həmvətənlər! Əgər yadınızdadırsa, qəzetimiz çox əlamətdar bir gündə-22 iyul Azərbaycan Jurnalistikasının bayramı sayılan «Əkinçi» qəzetinin nəşrə başladığı bir tarixdə işıq üzü görüb. 2004-cü ilin 22 iyul tarixində qəzetimizin ilk sayı əldən-ələ gəzdi, Azərbaycan mətbuatında daha bir «körpə» dünyaya göz açdı. Adını biz verdik bu təzə qəzetin, lakin onu yaşadan sizlər oldunuz. Əgər xatırlayırsınızsa hər bir mətbu nəşrin «doğuluşu» kimi bizim «EURO Xəbər» qəzetinin də doğulması asanlıqla başa gəlməyib. Çox çətinliklə yaranmışıq. Bu işdə bizə dəstək olan, dayaq duran, əlimizdən yapışanlarla yanaşı, işimizə pəl vuranlar, maneçilik törədənlər, bu işdə şansımızın olmadığını deyənlər də çox idi o zaman. Çünki Azərbaycanda çox sayda qəzet və jurnal vardı. Onların arasında barınmaq çox çətin olacaqdı. Amma ən çətini isə mütləq hər hansısa bir təşkilata və ya quruma mənsub olmağımız idi. Yəni biz ya kiminsə qoltuğuna sığınmalı, kimlərinsə dediyi ilə oturub-durmalı, kimlərinsə qəzeti olmalı, ya da azad və müstəqil bir mətbu orqanı kimi fəaliyyət göstərməli idik. Hətta bizim hər-hansı bir partiyanın orqanı olduğumuzu güman edənlər də var idi.

Bəli, çoxları belə düşünürdü. Lakin biz bütün bunların hamısını rədd etdik. Biz heç kəsin və heç bir partiyanın tərəfdaşına, ruporuna, təbliğat maşınına çevrilmədik. Yarandığı ilk gündən «EURO Xəbər» qəzetinin bir yolu, bir məqsədi, bir amalı oldu: «Xaricdə yaşayan soydaşlarımızın həyatını, işini, onların qayğı və problemlərini işıqlandırmaq, müstəqillik yolu ilə irəliləyən Azərbaycanın Avropaya inteqrasiya prosesinə dayaq durmaq, dəstək vermək, yardımçı olmaq».

Bəli, belə bir gündə və şəraitdə yarandı «EURO Xəbər» qəzeti. İndi soruşa bilərsiniz ki, deyilənlərin hansı oldu, hansı olmadı? Çox şey oldu. Bəzi oxucular bizim hansısa bir partiyanın tərəfdaşı olub olmadığımızı, kimlərinsə tərəfini saxlayıb-saxlamadığımızı, qərəzli, yoxsa qərəzsiz və bitərəf bir mövqedə dayanıb dayanmadığımızı, bu bir ildə lap yəqin elədi. Əlbəttə, bu yolda çətinliklərimiz də çox oldu. Məlum olduğu kimi bir müddət qəzetimiz hətta öz nəşrini dayandırmaq məcburiyyətində qaldı. Normal bir ofis, peşəkar jurnalist, səriştəli dizayner sarıdan çətinlik çəkən redaksiyamız necə deyərlər, bütün bu məhrumiyyətlərə mətanətlə sinə gərdi, büdrədi, lakin ayaq üstə durdu.

O zaman bizə başqa gözlə baxan bədxahlarımızın niyyətləri isə baş tutmadı. Bizim hansısa bir tərəfin qəzeti olduğumuzu zənn edənlər yanıldıqlarına əmin oldular.

Şükürlər olsun ALLAHA ki, biz bu müddətdə öz məsləyimizə sadiq qaldıq və İNŞALLAH bundan sonra da bu yoldan geri çəkilən deyilik.

Əziz oxucular, bu gün əlinizdə «EURO Xəbər» qəzetinin 8-ci sayını tutmusunuz. Yəni, bir il içində ancaq 8 sayımız işıq üzü görə bilib. Lakin biz bu bir ildə keçdiyimiz yola nəzər salaraq, çox böyük bir məmnunluq duyuruq.

Təbiətin qanunu belədir-hər bir körpə normal halda 9 ayın tamamında dünyaya göz açır. Əgər biz qəzetimizi bir körpəyə bənzətsək deməliyik ki, «EURO Xəbər» bu prosesi 8 aya başa vurdu. Deyilənlərə görə bu da xeyirliyədir, əziz oxucularımız. Xeyirli günlər görəsiniz.

*23 iyul, 2005-ci il*

## TARİXİ ANLARI YAŞAMAQ

**Dəyərli həmvətənlərim, insan həyatında çox nadir hadisədir tarixi anlar yaşamaq. İnsanlar var ki, yaşantıları boyu belə bir anı yaşamırlar, insanlar da var ki, yaşantıları boyu nadir olsa da belə anları bir neçə dəfə yaşayırlar. Mən bu anları yaşayan bir həmvətəniniz olaraq çox xoşbəxtəm, sevincliyəm və istəyirəm ki, bu gün bu xoşbəxtliyimi sizinlə də paylaşam.**

Birincisi öz vətənim Azərbaycanın müstəqilliyinə qovuşduğu günləri mən də sizinlə paylaşdım, o günləri yaşadım həm də dolu-dolu yaşadım, 1989-cu ilin dekabr ayının axrıncı günləri idi. Vətən cəmiyyətinin qonağı olaraq Azərbaycana dəvət olunmuşdum. Birinci dəfə, həm bir diaspor təmsilçisi kimi həm də jurnalist olaraq işlədiyim Türkiyənin nüfuzlu qəzetlərindən Hürriyet qəzetinin müxbiri kimi qatılmışdım. Ziyarətimin əsas səbəbi Vətəni görmək və bizə o vaxtlar çox böyük köməyi olan Vətən cəmiyyəti ilə daha sıx əlaqələr yaratmaqdı. Ancaq hadisələr başqa cür cərəyan etdi. O istənilməyən yanvar hadisələri baş verdi və mən o hadisələri yerində yaşadım, paylaşdım və dünyayla Azərbaycan arasında əlaqə körpüsü yaradıb dünyanın bu hadisələrə nəzər diqqətinin cəlb olunmasına kömək göstərdim. Acımız böyük idi, amma sonunda müstəqillik vardı, orda da xoşbəxtliyimiz vardı. Xalqımızın rifahı vardı və demokratikləşmənin addımları atılırdı. Bu anları yaşadım kədəriylə, xoşbəxtliyi ilə.

İkinci böyük hadisəni isə keçdiyimiz günlərdə Kiprdə yaşadım. Bu elə bil Tanrının bir lütfüdür vətənin bu tarixi hadisələrində mənim iştirakım. Özümü xöşbəxt bir vətəndaş (pasportu olmayan) hesab edirəm. Buna görə də qürurluyam, xoşbəxtəm. Bəli ölkə prezidentinin o tarixi addımından sonra Azərbaycanlı iş adamlarının və mətbuat təmsilçilərinin birgə başlatdığı bu tarixi addıma mən də öz tərəfimdən Türkiyədən iştirak etməyi və bu anı yaşamağı bir borc kimi gördüm və hələ təyyarəmiz ora düşmədən bir neçə gün öncə Kiprə gedib bu havanı qəbul etdim. Hələ təyyarəmiz ora düşmədən Kipr xalqında və kipr qəzetlərində böyük həyəcan vardı. Adətən həyat durmuş, bütün nəfəslər tutulmuş, hər kəs bu böyük günü səbirsizliklə gözləyirdi. Restoranlarda, kafelərdə qaldığım oteldə Azərbaycanlı olduğumu dediyimdə insanların üzü gülürdü və nə düşündüklərini o an mənə anlatmağa başlayırdılar və Azərbaycanın ölkə başçısına təşəkkür edib bu böyük addımın Azərbaycan kimi kiçik və gənc bir Türk dövlətindən gəlməsinin çox anlamlı olduğunu anladırdılar. Təbii bunlar mənə çox böyük ləzzət verirdi.

Bəli dəyərli həmvətənlərim bu böyük hadisənin ərəfəsində belə idi Kiprdə vəziyyət və 27 iyul tarixi gəlib çatanda mən bizim təyyarəni Kipr Türk xalqıyla bərabər Ərcan Hava meydanında qarşıladım. O anı burda yazıyla anlatmaq mümkün deyil qəzetimizdə şəkillər var orda daha yaxşı yaşaya bilərsiniz bu anı, Kiprli Türklər əllərində Kipr, Türkiyə və Azərbaycan bayraqlarıyla Ərcan Hava meydanının ətrafına yığılmışdı, alqışlar və dostluq və qardaşlıq sözləri ətraflarda duyulurdu "Xoş gəldin Azərbaycan". Ölkənin ən yüksək səviyyəli dövlət adamları nümayəndə heyətini sevinclə qarşıladı. Başda ölkə qurucusu Rauf Denktaş heyətimizlə görüşdü və xoşbəxtliyini bizlərlə paylaşdı. Daha sonra Cümhurbaşkanı M.Əli Tələt heyətimizlə görüşüb və yemək ziyafətində iştirak etdi. Bundan sonra digər dövlət nazirlərinin-xarici işlər naziri Sərdar Denktaş nümayəndə heyətimizin şərəfinə axşam yeməyi və yeməkdə bizim müğənnilərin Azərin və Mayestro Ceyhunun musiqisi və səsindən Azərbaycan mahnılarıyla əylənib, coşdular. Müğənnimiz Azərinin "Çırpınırdı Qaradəniz, baxıb Türkün Bayrağına" mahnısı bütün dəvətlilər tərəfindən bir ağızdan oxundu və saatlarca ayaqda alqışlandı. xoşbəxtlik çox böyükdü biz də çox xoşbəxtdik bu anı yaşadığımız üçün. Bir diaspor təşkilatı və «EURO XƏBƏR» qəzeti olaraq bu anı bizə yaşadan ölkə başcısına da könüldən təşəkkür edirik və belə anları bizə çox tez-tez yaşatmasını diləyirik.

***25 avqust, 2005-ci il***



# XARİCDƏKİ SƏFİRLİKLƏRİMİZ VƏ DİASPOR

**Məqalədəki məsələ çoxlarımıza məlum olan bir mövzudur. Başqa şəkildə desəm, qələmə aldığım bu yazı bu gün xaricdə yaşayan hər bir həmvətənimizi, diaspor nümayəndələrini zaman-zaman narahat edən bir problemə həsr olunub.**

İcazənizlə, mən də bu mövzuya bir az açıqlama gətirmək istərdim. Bəli, söhbət yazımın başlığından da göründüyü kimi, xaricdəki səfirliklərimiz və onların fəaliyyəti, həmçinin xaricdəki diaspor ilə olan əlaqələrdən gedir. Bu mövzu barədə kifayət qədər məlumatı, təcrübəsi olan bir insan kimi öz səlahiyyətim çərçivəsində münasibətimi bildirmək istəyirəm.

Doğrusu, qəzetimizin bu sayında ümumən diplomatın kim olduğuna, səfirlərin nə işlə məşğul olmalarına, xarici siyasət missiyasını həyata keçirən məmurlarımızın hüquq və səlahiyyətlərinə açıqlıq vermək və aydınlıq gətirmək fikrindəydim. Çatdıra bilmədik. Növbəti sayımızda bu mövzuya bir daha qayıdacaq və sizlərdən gələn fikirlərə də yer verəcəyik. Xeyli müddətdir, həm qəzetimizin səhifələrindəki, həm də digər mətbuat orqanlarındakı məqalələrimdə, habelə səlahiyyətli məmurlarla söhbətlərimdə dəfələrlə təkrar etmişəm ki, səfirlik və diplomatik missiyalar bu ölkələrdəki milli diasporumuzun fəaliyyətini qeyri-rəsmi olaraq təşkil etməlidirlər. Yəni xaricdə yaşayan vətəndaşlarımızın bütün qayğı və problemləri ilə məşğul olmalı, öz həmvətənlərinin bu və ya digər sahədəki (təhsil, dil, din, mədəniyyət, incəsənət, toy, bayram, ölüm və.s) fəaliyyətlərinə daima dəstək verməyə ən azı bir vətəndaş kimi borcludurlar. Təəssüflər olsun ki, bu barədə necə deyərlər, elə özümüz deyib, özümüz də eşidirik. Əslində bu çox vacib bir problem olaraq qalmaqdadır. Axı nə üçün? Elə biz də bu məqalədə bu suala cavab tapmaq istəyirik.

Əvvəla onu deyim ki, bizim xarici ölkələrdəki səfirliklərimizin fəaliyyəti göz qabağındadır, necə ki, xarici ölkələrin bizim ölkəmizdəki səfirlikləri-nin də fəaliyyəti eynən bizim gözümüzün qabağındadır. Elə ona görə də müqayisə etmək yerinə düşər. Gördüyümüz kimi başqa ölkələrin bizdə olan səfirlikləri və bu səfirliklərin əməkdaşları nəinki öz ölkələrinin vətəndaşlarının xeyrinə işləyirlər, hətta bizim daxili işlərimizə belə müdaxilə etməkdən çəkinmirlər. Məsələn, bir ölkənin Azərbaycandakı səfiri durub rayonlara sə-

fərə çıxır. Həmin bölgənin insanları ilə istədiyi mövzuda söhbət edir, sorğu keçirir. Belələrinin arasında özlərini müxalifət adlandıran (əslində müxalifətlə heç bir əlaqəsi olmayan) adı məlum insanlarla olan görüşlər diqqəti xüsusilə cəlb edir. Bu isə o deməkdir ki, həmin səfir cənabları bizim daxili işlərimizə qarışır. Hələ bu harasıdır. İş o yerə gəlib çatıb ki, bəzi xarici ölkələrin missioner təşkilatları ölkəmizdə qanunla qadağan olunmuş fəaliyyətlə məşğul olur, yəni müxtəlif vasitələrdən istifadə etməklə, ölkə vətəndaşlarını öz dinlərindən döndərməyə çalışırlar. Bu belə. İndi gəlin keçək xarici ölkələrdəki səfirlərimizə. Görək, bizim səfirlərimiz nə iş görürlər?

Yadımdadır, 5 il bundan əvvəl Türkiyədəki qəzetlər xaricdəki səfirliklərini «Arpalıq» deyə adlandırırdılar. Yəni gedib, yeyib-içib, yatmaq üçün yer mənasında işlənilən bu söz vəziyyətin nə qədər acınacaqlı olmasını bir kəlmə ilə çox sərrast ifadə edirdi. Hal-hazırda həmin vəziyyəti Azərbaycanın da bəzi xarici ölkələrdəki səfirliklərinin də ünvanına demək olar. Artıq bu barədə həyəcan təbili çalmağın vaxtı çatıb.

Odur ki, mən bu məqaləmdə xarici ölkələrdəki səfirliklərimizlə bağlı fikirlərimi bildirməyi zəruri hesab etdim. Çünki yaşadıqlarımı, gördüklərimi deyirəm. Vətənin bir ömür yolunda addımlayan bir təşkilatçı kimi bunu deməyə bilmərəm.

Onu da deyim ki, bu mövzu hələ bitməyib. Mən hər yazımdan sonra gözləyirəm ki, kimsə mənə cavab versin. Hələ ki, cavab almamışam. Vəziyyət isə bildiyiniz kimi dəyişməz olaraq qalmaqdadır, atalar demişkən, «Köhnə hamam, köhnə tas».

Amma nə qədər ki, bizim sorğularımıza cavab yoxdur, biz də yazmağımızda davam edəcəyik.

*26 avqust, 2005-ci il*

## *XARİCDƏN BAXIŞ*

**Dəyərli həmvətənlərim! Bizlər, yəni anadan olan gündən xaricdə yaşayan azərbaycanlılar, öz doğma yurdumuza xaricdən baxmaq kimi bir çətinlik içərisində yaşamışıq. Yəni biz ölkəmizdən qıraqda, vətənə həsrətlə, əlimizdən çox şey gəlmədən, beləcə, baxıb-baxıb ürək ağrısıyla yaşamışıq.**

Bu hissləri yaşamayan insana anlatmaq çox çətindir. Ölkə daxilində yaşayıb ölkəsini sevməyən və qiymətini bilməyən insanlara bunu anlatmaq çox çətindir. Bu gün icazənizlə ürək ağrısıyla bu barədə Sizlərə duyğularımı anlatmaq və sizlərlə paylaşmaq istəyirəm. Bir igidin ömrü qədərdir mənim ölkəm üçün etdiyim mücadilə. Çox çətinliklər içində, həm də düşmən kimi tanıdığımız insanlardan izafə daha çox öz içimizdə olan vətən xainlərinə qarşı idi bu mücadilə. Bu mübarizədə yubanmamızın başlıca səbəbi ancaq və ancaq içimizdə olanların özümüzə qarşı, usanmadan yaratdıqları əngəllərdir. Bu əngəllərə həyatımın hər dövründə rast gəldim. Düşmən bildiyim xalqdan yox, öz doğma vətənimin "vətəndaşları" tərəfindən törədilən əngəllərə rast gəldim hər dəfə. Amma buna baxmayaraq bu qədər yol qət etdim, Allaha şükürlər olsun. Amma qarşıma qoyduğum məqsədlərə baxanda çox geri qaldığıma heyifslənirəm. Çünki gördüyüm işlərin on-on beş qat artığını görə bilərdim. Lakin bu insanlara qarşı da mücadilə etməyə məcburuq. Çünki onlar ən azından düşmənimiz qədər təhlükəlidirlər.

*"Ağacın ən böyük düşməni öz içindədir"* deyib atalar. Bu tamamilə çox doğru sözdür. Bunu xaricdən ölkəmizə baxanda çox aydın görə bilirik. Bəşəriyyət tarixi göstərir ki, vətən sevgisinin qarşılığı ölümdür. Türk xalqının tarixində də belə hallar çox olub. Baxın Türkün ən dahi insanları bunu hansı sözlərlə ifadə ediblər: ***"Torpaq uğrunda ölən varsa Vətəndir" və ya "Basdığın yerlere torpak deyib geçme, tanı. Düşün altında binlerce kefensiz yatanı, sen şehit oğlusun, incitme yazıkdır atanı, verme dünyaları alsan da bu cennet vatanı".*** Bəli bu Türk tarixinə qızıl hərflərlə həkk olunmuş sözlərdir. Biz bu sözlərlə böyüdük. Bizim mənəviyyatımızda, qanımızda və canımızda vətən uğrunda ölmək kimi bir duyğu var. Bunu hər kəs çox yaxşı bilsin.

Sözlərimi Ozan Arifin çox gözəl bir kəlamı ilə bitirmək istəyirəm. Bu kəlam Quran kimi ərəb dilindədir: ***"Nubul vətən, min el cihat"*** yəni vətən sevgisi, savaşla eynidir.

*28 sentyabr, 2005-ci il*

## *NƏHAYƏT*

**Bugünkü qəzetimizin ön səhifəsində bir xəbər var. Bu xəbər bizim qəzetimizin məramını və uzun illər diaspor təşkilatçısı kimi mənim keçdiyim yolu çox dürüst və doğru əks etdirir. Bu yol xalqımızın sevərək addımladığı bir yoldur. Ona görə də elektron saytımızın başında ümummil-**

**li liderimiz Heydər Əliyevin sözlərini özümüzə bayraq etmişik: «Xaricdə yaşayan azərbaycanlılar təşkilatlanma prossesini keçib böyük bir güc olublar, bu gücdən faydalanmaq lazımdır!».**

Bəli, bu sözlərdə böyük bir həqiqət var.Təsadüfi deyildir ki, Ulu Öndərin bu ideyalarını bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə həyata keçirir. Prezident İlham Əliyevin çıxışlarının birində söylədiyi bu sözlər deyilənlərə bariz sübutdur: O, deyib: *«...söhbət Azərbaycanı dünyada və Avropada tanıtmaqdan gedir və dolayısıyla söhbət xaricdə yaşayan Azərbaycan diasporundan gedir...».*

Həqiqətən, bu gün Azərbaycanın dünyada tanıdılması yolunda xaricdə yaşayan azərbaycanlıların, milli diasporumuzun malik olduğu gücdən faydalanmaq böyük əhəmiyyət kəsb edir. Bizlər bu məsələ barədə çox danışmışıq, çox demişik, gücümüzü çox göstərmişik. Lakin bu gün bu həqiqəti artıq ölkə başçısı özü təsdiq edir, Azərbaycanı xaricdə tanıtmağın zəruriliyini təsdiqləyir. Bəs belə bir zamanda bizim qarşımızda duran vəzifə nədən ibarətdir? Biz hesab edirik ki, indiki vaxtda dünya Azərbaycanlılarını, xaricdəki milli diasporumuzu vahid bir qüvvə və güc mərkəzinə çevirmək, hərəkətə gətirmək hər hansı bir vaxtda olduğundan daha vacibdir. Dünyanın harasında yaşamalarından asılı olmayaraq, hər bir soydaşımızın qüvvəsini hərəkətə gətirəcək tədbirlər görülməli və istiqamətlər müəyyənləşdirilməlidir. Elə bu qüvvələrdən biri də bizik. Həm qəzetimiz, həm də rəhbəri olduğum «Belçika-Azərbaycan Evi» buna hər zaman hazırdır. Yetər ki, bizə dəstək verən, səsimizə səs verən tapılsın.

Biz yaşadığımız ölkədə bu günə kimi bütün çətinliklərə baxmayaraq, həyata keçirdiyimiz işləri davam etdirməyə hazırıq. Çünki, bu bizim bir vətəndaşlıq borcumuzdur. Biz üzərimizə, öhdəmizə düşən vəzifəni layiqincə yerinə yetirməyə hazırıq. Yetər ki, ölkə Prezidenti bizə inansın.

Biz bu amalı özümüzə hədəf götürüb vəzifəyə hazır olduğumuzu burda bütün Azərbaycan xalqının qarşısında bəyan edirik. İnanırıq ki, dünyanın bütün guşələrində yaşayan azərbaycanlılar, milli diasporumuz bu çətin, müqəddəs və şərəfli vəzifəyə hazırdır. Yetər ki, onlara inanan, onlara güvənən, onlara əminlik verən insanlar olsun. Biz inanırıq ki, o zaman Azərbaycanın adı bütün dünyada eşidiləcək və Azərbaycan dünya dövlətləri arasında layiq olduğu yeri tutacaqdır.

Hörmətli Cənab Prezident! Xaricdə yaşayan çoxsaylı Azərbaycan diasporunun bir nümayəndəsi kimi Sizin tapşırığınızı və göstərişinizi gözləyirik. Sizi əmin edirik ki, çox qısa zamanda doğma Azərbaycanımızı dünyaya tanıdacağıq. Biz bu günü çoxdan gözləyirdik.



*1 oktyabr, 2005*

## SİLAHSIZ SAVAŞ

**Qəzetimizin bu günkü sayında çox ciddi bir məsələ qaldırmışıq. Azərbaycan üçün bu məsələnin əhəmiyyəti mənim qənaətimə görə zəbt olunmuş torpaqlarımızın qaytarılması səviyyəsindədir. Bu milli diasporumuzun və lobbiçiliyin inkişafı, xaricdəki səfirliklərimizin və diplomatik korpuslarımızın fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması kimi zəruri əməli fəaliyyətlə bağlı bir problemdir. Elə biz də bu məqalədə məhz bu haqda fikir mübadiləsi etmək, polemika açmaq niyyətindəyik. Bəlkə də bu məsələyə müraciət etməkdə gecikmişik. Ancaq atalar demişkən "ziyanın yarısından qayıtmaq da xeyirdir". Bir diaspor qurumu və diaspor qəzeti olaraq biz bu işi özümüzə borc bilirik.**

Uzun illərdən bəri fəaliyyətimin yönümü və məqsədi məhz bu istiqamət olduğu üçün və bir diaspor təşkilatçısı kimi bu barədə fikrimi sizlərlə paylaşmaq istəyirəm. Diasporun formalaşmasının özülündən başlayan bir təşkilatçı kimi bu işin əziyyətini özüm duymuş və keçirmişəm. Bütün ölkələrdə olan diasporlarımızın bir yeganə oxşar problemi var: məlumatsızlıq, əlaqəsizlik və sahibsizlik. Məhz bu problem diasporumuzun fəallaşmasına əngəl yaradır. Bunun əhəmiyyətini dəyərləndirən Ümummilli Liderimiz 2003-cü ildə «Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında"» forman imzaladı. Xaricdə yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi də məhz bu səbəbdən yaradıldı. Əfsuslar olsun ki, bu gün nə haqqında danışılan bu fərmanın icrası, nə də qurumların fəaliyyəti hiss olunmur. Bu məsələni dəfələrlə qaldırmışıq, qaldıracağıq da. O zamana qədər ki, bütün bu məsələlərə məsul olan şəxslər başa düşsünlər ki, Dövlət+Diaspor vəhdəti=Lobbi deməkdir. Lobbiçiliyin yeganə tərifi budur, bunun belə olduğunu dünya dövlətləri və millətləri çoxdan sübut ediblər. Biz isə rəhmətlik M.Ə.Sabir demişkən hələ «yatmışıq».

Təəssüflər olsun ki, bizlər bir-birimizdən qaçmağa, bir-birimizə qarşı olmağa üstünlük veririk. Bu səbəbdən də haqlı tələblərimizi beynəlxalq təşkilatların qarşısında layiqincə qaldıra bilmirik. Bunun üçün nə etmək lazımdır? Bizim qənaətimiz və gördüyümüz çıxış yolu qəzetin ön səhifəsində göstərilən kimidir. Bunun belə olması xalqımızın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Xaricdəki səfirliklərimiz, diaspor təşkilatlarımızla sıx əlaqə ya-

ratmalıdırlar. Yalnız bu halda,yalnız xaricdəki səfirliklərimizin həmin ölkələrdəki Azərbaycan diaspor təşkilatları ilə birgə fəaliyyət göstərdikləri halda biz lobbiçilik fəaliyyətimizi düzgün istiqamətləndirməyə nail ola bilərik.

Allah sonumuzu xeyir eləsin!

*3 noyabr, 2005*

# O GÜNLƏRİ XATIRLARKƏN...

**Redaksiyamızdan hər dəfə qəzetin növbəti sayı hazırlananda məndən soruşurlar: "Bülənt bəy, köşə yazınızı nə vaxt göndərəcəksiniz?". Mən də hər dəfə bildirirəm ki, bütün səhifələri hazırlayın, sonra mən yazımı göndərim. Bunun belə olmasının başlıca səbəbi, qəzet səhifələri hazır olduqdan sonra mütləq mənim yaza biləcəyim, münasibət bildirəcəyim mövzunun müəyyənləşməsidir. Çünki söhbət Azərbaycandan gedir və mənim bu haqda deyəcəyim, yazacağım çox məsələlər var. Bütün bu məsələlər uzun illərdən bəri qanımda, canımda, damarlarımda yaşatdığım həqiqətlərdir.**

Bu dəfə də belə oldu. Qəzetin artıq çapa tam hazır olması barədə redaksiyadan məlumat aldım. Brüsseldə olduğumdan adətim üzrə, hazır səhifələri göndərin baxım,-dedim. Baş redaktorun sütunu olan səhifədə "Azadlıq" meydanı haqqında hazırlanmış yazı və şəkilləri gördüm. Xəyalım məni uzaq 1989-cu ilin dekabr ayının sonuna, Azərbaycana, vətən torpağına ilk dəfə ayaq basdığım günlərə qaytardı. Uzun illər həsrətini ürəyimdə yaşatdığım və müstəqilliyi üçün mücadilə etdiyim ata yurduma ayaq basırdım. O vaxtlar bizə informasiya almaq üçün çox böyük köməklik göstərən, bu gün fəaliyyətinin yoxluğuna təəssüfləndiyim «Vətən" cəmiyyəti»nin sədri, «Odlar Yurdu»" qəzetinin redaktoru Elçin müəllimin dəvəti məni çoxdankı arzuma qovuşdurdu. Vətənimi görmək üçün, öncə Brüsseldən Moskvaya, oradan da Bakıya gəldim. Mənim "Azadlıq" meydanı ilə ilk tanışlığım da elə o günlərə təsadüf edir.

İndiki kimi yadımdadır, təsadüf elə gətirmişdi ki, «Azərbaycan»" mehmanxanasının on birinci mərtəbəsində yerləşən otağımın pəncərəsi "Azadlıq" meydanına (o zaman bura "Lenin" meydanı adlanırdı) açılırdı. 1989-cu ilin meydan hadisələri, 1990-cı ilin yanvar ayında qızıl ordunun törətdiyi qırğınlar məhz bu pəncərələrin önündə, mənim gözlərimin qarşısındı baş vermişdi. Nə isə, bu barədə bir qədər sonra danışacağam. İndi isə qayıdaq Bakıya gəldiyim o ilk günlərə.



Düzü Bakıya səfərimin səbəbi vətəni gəzmək, görmək, uzun illər ürəyimdə gəzdirdiyim həsrət hissinə son qoymaq idi. Ancaq şahidi olduğum olaylar mənim planlarımı büsbütün dəyişdi. O zaman mən Türkiyənin ən nüfuzlu qəzetlərindən biri olan «Hürriyyət»" qəzetində çalışdığım üçün Bakıya da bir jurnalist kimi, yəni, videokamera, fotoaparat, diktofon və sairlə gəlmişdim.

Necə deyərlər, bu da bir qismət, bir alın yazısı idi. Mən həsrətində olduğum vətənə onun ən ağır və dar günündə gəlmişdim. Kim bilir, bəlkə də bu mənim üçün taleyin bir sınağı, imtahanı imiş.

O dövrdə mən bir çox ağlagəlməz hadisələrin şahidi oldum. O qanlı günlərdə «Vətən» cəmiyyətinin əməkdaşı, dostum Abid Tahirli ilə birlikdə o hadisələrin hər anını yaşadıq. Qərargahlara getdik, mitinqlərdə çəkilişlər apardıq, söhbətlər etdik, bir sözlə, vətən oğullarının müstəqillik, azadlıq uğrunda apardığı mücadilənin elə ilk günlərindən bu mübarizənin canlı şahidləri olduq. Taleyimdən razı idim, mənə belə bir şans verdiyi üçün. Bəli, böyük və əlamətdar tarixi hadisələrin iştirakçısı və şahidi olmaq həyatda hər adama qismət olmur.

Vaxt azlığından Bakını artıq tərk etməli idim. Hadisələr getdikcə daha vahiməli məcraya istiqamətlənirdi. Məni dəvət edən qurumun rəhbərliyi artıq getmək zamanı yetişdiyin bildirdi. Əlimdəki materiallar Bakının küçələrində çəkdiyim foto şəkillərdən, video kadrlardan, diktofon lentinə yazdığım müsahibə və söhbətlərdən ibarət idi. Nəhayət, Bakıdan Moskvaya qayıtdım və orda Azərbaycan nümayəndəliyinin mehmanxanasında qaldım. Vəziyyət çox ağır idi. Artıq 20 yanvar hadisələri baş vermiş, yüzlərlə günahsız insanlarımız gülləyə tuş gəlmiş, şəhid olmuş, tankların tırtılları altında əzilmiş, yaralanmış, itkin düşmüş, həbs olunmuşdu.

Bu dəfə isə Moskvada mitinqlər başladı. Azərbaycanlılar Sovetlər İttifaqının paytaxtında quruluşu lənətləyən yürüşlər keçirirdilər. Mən də onlara qoşulmuşdum.

Yanvarın 21-də səhər bizim nümayəndəliyimizdə, xarici jurnalistlərin qarşısında fransız dilində çıxış etdim. Bütün dünya mətbuatına başımıza gələn hadisələri anlatdım. Bakıda topladığım materialları dünyaya vaxtında çatdırdığım üçün özümü xoşbəxt sanırdım. Çünki mən bir vətən övladı kimi öz borcumu azca da olsa, yerinə yetirmişdim. Artıq dünyanın hər tərəfinə bizim həqiqətlər bəyan edilmişdi. Lakin elə bu zaman ortalığa yeni bir əngəl çıxdı.

Mənə çəkdiyim şəkillər və lentlərlə birgə Moskvadan çıxmağıma icazə verilmədi. «Vətən"» cəmiyyəti burada da dadıma yetdi. Məhz bu cəmiyyətin köməkliyi ilə mənə verilmiş məktubda bir təşkilatçı olduğum, apardığım ka-

set və lentlərdə isə guya mədəniyyət və incəsənət əsərlərinin surətləri olduğu bildirilmişdi. Buna görə «Vətən"» cəmiyyətinə minnətdaram.

Tezliklə həmin lentlər və şəkillər Brüsselə çatdırıldı, buradan isə dünyaya. Doğrusu çox uzaqlara, ötən illərə apardı məni "Azadlıq" meydanı haqqındakı bu yazı. *Allah o günləri bir daha göstərməsin!*

***16 noyabr, 2005-ci il***

## 31 DEKABR YAXINLAŞARKƏN

**Dekabr ayının 31-i xaricdə yaşayan azərbaycanlılar üçün yeni il törəmindən daha əhəmiyyətli bir anlamdır. Bu tarix xaricdə yaşayan azərbaycanlıların yada düşdüyü, varlığımızın xatırlandığı, bizlərə nəzər və diqqət göstərildiyi bir günüdür. Təqvimin bu gününü bizlərə bəxş etdiyinə görə Ümummilli Liderimiz Heydər Əliyevin adı və əməlləri bütün dünya azərbaycanlılarının qəlbində əbədi olaraq yaşayacaqdır.**

Bəli, 31 dekabr dünya azərbaycanlılarının həmrəylik günüdür. Neçə illərdir ki, bu günü böyük qürurla, təntənəli bir şəkildə qeyd edirik. Bu günü bizlər sözün həqiqi mənasında bir bayram ovqatı ilə qarşılayırıq. Böyük salonlarda bu işə heç bir aidiyyatı olmayan insanların atəşli, bir az da pafoslu çıxışları ilə görkəmli şairlərimizin ürək yandıran, damarlarda qanımızı coşduran gözəl kəlamları ilə qarşılayırıq. Çox güman ki, yenə də belə olacaq. Diaspor sözünün məna və mahiyyətini dərk etməyən bəzi millət vəkillərinin, məmurların, səlahiyyət sahiblərinin təmtəraqlı çıxışlarının sədası altında «dünya azərbaycanlılarının həmrəyliyi"ndən danışacağıq. Lap yəqin bilirəm ki, hər dəfə olduğu kimi yenə də 31 dekabr gününü qeyd etməyə toplaşanlar təmtəraqlı çıxışlar edəcək, boğazdan yuxarı və həqiqətdən uzaq məddah sağlıqlar söyləyəcək, sonra da yeyib-içib gedəcəklər. Vəssalam. Bu çıxışlarda həqiqət səslənməyəcək. Çünki bu həqiqətlərdən xəbərdar olan, diaspor təşkilatçılığına ömür sərf etmiş insanlar yenə bu salonlara və bu bayram ziyafətlərinə dəvət olunmayacaqlar.

Yadımdadır, ötən bayramlardan biri idi. 31 dekabra həsr olunmuş təntənəli mərasim qurulmuşdu. Lakin, məclisə milli diasporumuzun nümayəndələri, liderləri və təşkilat üzvləri deyil, bu işdən xəbəri olmayan insanlar dəvət olunmuşdular. Sonda yenə də bir nəticə əldə edilmədi. Problemlər necə həllini tapmamışdısa, elə də qaldı.

Bəli, hörmətli həmvətənlərim, biz yenə də məhz bu bayrama-Dünya



Azərbaycanlılarının Həmrəyliyi bayramına hazırlaşırıq. Həm də böyük təntənə ilə. Bununla yanaşı heç bir faydalı iş əmsalı olmayan, ürəyi yaralı, torpaqları işğal altında, diasporu formalaşmamış, lobbiçilik fəaliyyəti hiss olunmayan, bir- birindən xəbərsiz (bu siyahını kifayət qədər uzatmaq olar) diaspor *təşkilatlarımızla görən, necə həmrəy ola bilərik?* Görən, bu bayramda biz nəyi qeyd edəcəyik? Həll olunmamış problemlərdən danışacağıqmı? Hələ ki, məlum deyil.

Mən əminəm ki, hər dəfə olduğu kimi bu il də yüksək kürsülərdən danışanlar, bu işlə əlaqəsi olmayan insanlar olacaqlar.Yenə də şeirlər oxunacaq, ürək yandıran sözlər deyiləcək. Bunun əksinə olaraq, ürəyidolu, söz demək istəyən insanlara danışmaq haqqı verilməyəcək. Onlar isə təbii ki, sözləri ürəklərində, salonu tərk etmək məcburiyyətində qalacaqlar. Yenidən gələn il dekabrın 31-də görüşmək ümidi ilə ayrılacaqlar. Bu artıq bir bayağı ənənə şəklini alıb.

Bu yerdə mənim mədəniyyət xadimlərimizdən bir xahişim var: hələ təmtəraqlı məclislərin keçirilməsinə bir ay qalıb. Yaxşı olar ki, bu bayrama həsr olunmuş bir tamaşa hazırlayıb səhnələşdirsinlər. Düşünürəm ki, bu mənasız bayram təntənəsi keçirməkdən daha faydalı olardı. Şəxsən mən özüm yaşadığım şəhərdə həmin tamaşaya baxmağa gələrdim. Bu daha mənalı keçirilmiş vaxt olardı.

Yeri gəlmişkən, cənab Prezidentimizə 2006-cı ilin büdcəsində Azərbaycan diasporunun təşkilatlanması və lobbiçilik fəaliyyətinin inkişafına keçən ilə nisbətən ayrılan vəsaiti iki dəfə artırdığına görə öz dərin təşəkkürümü bildirirəm. Bu vəsait hesabına ürəyimizdə qalan və həyata keçirə bilmədiyimiz neçə-neçə planlarımızı həyata keçirə bilərik. Təbii ki, əgər büdcədə nəzərdə tutulan bu vəsait məqsədyönlü xərclənərsə. Biz burada döyüş paltarları geyinib əmrə müntəzir dayanmışıq. Ən böyük arzumuz isə odur ki, bu ilki 31 dekabr diasporumuzun fəaliyyətsizliyinin sonu olsun. İnşallah!

Bizim qəzetimiz bu məsul işi öz üzərinə götürüb. Çünki "EURO Xəbər" qəzeti bir diaspor qəzeti olaraq bu işi davam etdirəcək. Bu bizim həyat mövqeyimiz, əqidəmizdir. Biz bu yoldan dönməyəcəyik, biz bu mübarizəyə bilərəkdən gəlmiş, könül vermiş insanlarıq. Bu yoldan dönmək əsla mümkünsüzdür. Bu mübarizədə çəkilən tətik, atılan güllə haqdır. Sonda çox sevdiyim bir ərəb misalını xatırlatmağa lüzum görürəm: «hübbül vətən min əl cihad" «yəni, vətən sevgisi mübarizədir".

***1 dekabr, 2005***

# ULU ÖNDƏR

**Qiymətli həmvətənlərim, bu gün sizinlə ürəyimdən gələn sözlərlə danışıb, arzularımı paylaşmaq istərdim. Bu yazıma başlıq seçdiyim sözü isə ürəyimdən gəldiyi kimi ifadə etdim. Həyatda ən çox istədiyim arzularımdan biri Heydər Əliyevin-bu böyük insanın yanında çalışmaq, onun dünya, həyat, dövlətçilik, millətçilik və bir insan kimi Allahın çox az adamlara bəxş etdiyi keyfiyyətlərindən faydalanmaq olub. Mərhum Mustafa Kamal Atatürkə yaşım çatmamışdı. Amma, bu böyük insandan-Heydər Əliyevdən öyrənmək istədiklərim çox, lap çox olub. Başqalarından fərqli olaraq, mənim bu böyük insana olan sevgi və sayqılarımın sonu, həddi-hüdudu olmayıb.**

Qeyd etmək istəyirəm ki, tale mənə bu böyük şəxsiyyətlə üç dəfə görüşmək səadəti nəsib edib. Mən ilk dəfə Heydər Əliyevlə 1997-ci ildə Belçika səfirliyində işlədiyim zaman görüşmüşəm. O günləri indi də yaxşı xatırlayıram. O zaman Heydər Əliyev səfirliyin bütün işçiləri ilə bir-bir görüşüb mənə yaxınlaşanda bir anlığa dayandı. Səfir məni ona təqdim etdikdən sonra, rəhbərin mənə verdiyi ilk sual belə oldu:

-Hardansan, oğlum?

-İqdırdanam, -dedim.

O, sualını bir qədər də dəqiqləşdirdi:

-Əslən haralısan?

-İrəvandanam,- dedim və sözümə davam edərək atamın Türkiyəyə neçənci ildə, necə və hansı şəraitdə gəldiyi barədə məlumat verdim. Hiss edirdim ki, bu məlumatlar onun üçün çox maraqlıdır. O anları heç vaxt unutmaram. Bu dahi insan mənimlə söhbət etdikcə düz gözlərimin içinə baxırdı. O baxışlar, o gözlər qəlbimin dərinliklərinə sirayət edirdi. Bu görüşdən sonra mən bu böyük şəxsiyyətin şəklini evimin ən şərəfli guşəsində divardan asdım.

Bəli, artıq iki ildir ki, Ulu Öndər Heydər Əliyev aramızda yoxdur. Lakin onun bu el, bu xalq, bu vətən üçün elədikləri qalır. Tarixdə həmişə belə olub. Böyük və dahi insanları itirdikdən sonra dərk ediblər, başa düşüblər, anlayıblar. Türk dünyasının Ulu Öndəri Mustafa Kamalın da həyatı ilə tanış olanlar yaxşı bilirlər ki, o zaman bu dahi şəxsiyyətə qarşı təqib və düşmənçiliyə əl atanlar, onu Türkiyə çapında yox etmək istəyənlər, onun gücünü inkar edənlər, ilk Türkiyə Cümhuriyyətinin Milli Məclisinə girməsinə əngəl törədənlər, onun Baş komandan olmasını istəməyənlər də olub. Ancaq o günlərdə Türkiyənin ən ucqar guşələrindən gələn kəndlilər, fermerlər və adi vətəndaşlar Mustafa Kamala dayaq durdu, o insanı ölkənin xilasedicisi kimi qəbul etdilər.





Allah Mustafa Kamalı Türkiyənin xilaskarı kimi yetirdiyi kimi, Heydər Əliyevi də Azərbaycan xalqının xilaskarı kimi göndərdi. Mən Mustafa Kamal Atatürkün həyatına nəzər salarkən, Ulu Öndərimiz Heydər Əliyevin həyatı gözlərim önünə gəlir. Siz də baxın! Bu iki Ulu Öndərin həyatına baxın! Həm də diqqətlə baxın. O zaman mənim gördüklərimi siz də görəcəksiniz. Buna əminəm, ruhu şad olsun.

Heydər Əliyevin ruhu bizimlədir. Biz böyük Azərbaycan uğrunda atacağımız hər bir addımda bu böyük insana və onun adına arxalanmalıyıq. Bu hər kəs üçün belə olmalıdır. İstər müxalifət, istərsə də başqaları bu böyük insanın fikirlərindən və keçdiyi həyat yolundan çox şeyləri öyrənməli, ölkəmizin gələcəyi üçün əllərindən gələni əsirgəməməlidirlər. Hər kəs, hər bir Azərbaycan vətəndaşı belə etməlidir.

Bu gün, sizinlə paylaşmaq istədiyim arzularım bunlar idi. Biz «Belçika Azərbaycan Evi"»nin üzvləri, «Euro Xəbər»" qəzeti redaksiyası və Belçikadakı bütün azərbaycanlılar Ulu Öndərin məzarı önündə böyük ehtiramla baş əyir, onun ruhunu əmin edirik ki, bayraq etibarlı əllərdədir. Böyük Azərbaycan yolunda ürəklər bir, sıralar sarsılmaz, addımlar mətin, yumruqlar sıx, arzular birdir.

***16 dekabr, 2005***

# BU BİZİM BAYRAMDIR

**31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü biz xaricdə yaşayan azərbaycanlıların bayramıdır. 31 dekabr sözün əsl mənasında bizlərin xatırlandığı gündür. Bizlər bu günü səbirsizliklə gözləyir, böyük əhval-ruhiyyə, sevinc və fərəh hissi ilə qarşılayırıq. Axı, biz-xaricdə yaşayan azərbaycanlılar məhz bu gün yada düşür, gözəl sözlərlə xatırlanırıq. Möhtərəm şairlərimiz, siyasətçilərimiz, əli qələm tutanlarımız bizim şənimizə gözəl sözlər deyirlər.**

Bəli, 31 dekabr günü belə günlərdən biridir. Yada düşdüyümüz, əzizləndiyimiz bir gündür. Budur, yenə də dekabrın 31-dir və mən də Bakıdayam. Özümü çox xoşbəxt hiss edirəm, lap uşaqlıqdakı kimi. Şən və sevincli. Nədənsə dekabrın 31-də hamı bizi təbrik etməyi, bizimlə kəlmə kəsməyi,

hal-əhval tutmağı, qayğımıza qalmağı, özünə borc bilir. Bu gün bizlərə-xaricdə yaşayan diaspor nümayəndələrinə müxtəlif dəvətlər edilir. Ancaq inanıram ki, bütün bunlar müvəqqətidir və cəmi birco günlük ömrü var. Sabah, yanvarın biri gələcək və hər şey adi halına qayıdacaq. Artıq bayram qurtardı.

Biz-«Euro Xəbər» redaksiyasının kollektivi qəzetin bu sayını bayram münasibəti ilə Dünya Azərbaycanlılarına həsr etmək qərarına gəldik. Siz qəzetimizin bu sayında müxtəlif məsələlər barədə, diasporumuzun vəziyyəti haqqında məlumatlarla tanış olacaq, xaricdə yaşayan həmvətənlərimizin həyatından maraqlı məlumatlar alacaqsınız. Ancaq bizim üçün yanvarın birində heç bir şey bitməyəcək. Bəlkə də əksinə hər şey təzədən başlayacaq. Yeni il, həm də yeni mübarizələr deməkdir. Amma təssüflənirəm ki, bayram şərəfinə düzənlənmiş tədbirlərdə təəssüf ki, bizim arzu və istəklərimiz eşidilməyəcək. Çünki bizə çıxış etməyə söz verilməyəcək. Fikirlərimizi soruşub, vəziyyətimizlə maraqlanmayacaqlar. Hər kəs danışacaq, tək bizdən-diaspor təmsilçilərindən başqa.

Amma bunlara baxmayaraq bu bayram bizimdir. Çox sevinirəm. Bu sevincim bir neçə gün çəksə belə, xoşbəxtəm. Lap cocuqlar kimi, şad və sevincliyəm. Və bu bayram münasibətilə dünyanın dörd bir tərəfinə səpələnmiş həmvətənlərimi səmimi qəlbdən təbrik edirəm. Qoy, bu bayram və yeni il bizim diasporumuza uğurlar gətirsin, xalqımızın bütün ağrıları sona çatsın, erməni işğalı altında olan torpaqlarımız azad olunsun, sevincimiz əbədi olsun! Təkcə bayramdan bayrama yox, həmişə həmrəy olaq!

Bayramınız mübarək!

***30 dekabr, 2005***

## QURBAN BAYRAMI VƏ DİASPOR

**Bu günlərdə İslam aləminin ən böyük bayramlarından biri olan Qurban bayramını qeyd etdik. Bu il ilk dəfə olaraq xaricdəki Azərbaycan diasporu bir qərarla qurbanlarını öz vətənlərində -Azərbaycanda, ehtiyacı olan insanların yaşadıqları rayonlarda kəsməklə birləşdi.**

Bəli, bu ilki Qurban bayramını digər illərdəkindən fərqli olaraq, öz vətənimizdə, həmvətənlərimizlə birgə qeyd etdik. Bu il Belçika və Almaniyadakı diaspor təşkilatlarımız qurbanlarını qaçqın və didərgin düşmüş soydaşlarımızın yaşadıqları ərazilərdə kəsdilər. Ona görə ki, İslam dini qurbanları ehtiyacı olan insanların yaşadıqları ərazilərdə kəsməyi vacib bilir. İkincisi isə bu bayram bizi vətənimizə daha çox bağladı. Həmvətənlərimizlə xaricdəki diaspor arasında bir növ əlaqə yaratdı.

Bizə göstərdiyi köməyə görə Lənkəran rayon İcra hakimiyyətinin başçısı Süleyman bəyə Azərbaycan diasporu adından öz təşəkkürümü bildirirəm. Arzu edirəm ki, lap yaxın gələcəkdə İnşallah, bu qurbanları qaçqın və məcburi köçkünlərimiz üçün deyil, düşmən işğalından azad olunmuş Qarabağ torpağında, igid əsgərlərimizin şərəfinə kəsək. Allah didərginlərimizə gələcək bayramlarda öz torpaqlarında qurban kəsməyi nəsib etsin! AMİN!

***17 yanvar, 2006***

## DAK VƏ AZƏRBAYCAN

Dünya Azərbaycanlıları Konqresi Stokholmda keçirdiyi son toplantıdan sonra aktiv bir qurum halını alıb, fəaliyyətini xeyli qüvvətləndirib. Bu qurum dünya azərbaycanlılarını birləşdirən və özündə milli dəyərlərimizi ehtiva edən çox ciddi işlər görməyə başlayıb.

Bu istiqamətdə görülməsi nəzərdə tutulan tədbirlərdən biri də 26 fevral-Xocalı soyqırımının ildönümü ilə əlaqədardır. Bu münasibətlə DAK Avropanın paytaxtı Brüsseldə iclas və konfraslar keçirməyi nəzərdə tutub. Bu tədbir Brüsselin görkəmli yerlərindən biri olan Beynəlxalq Mətbuat Mərkəzində keçiriləcəkdir. Digər tədbir isə həmin gün axşam Brüsselin beşulduzlu otellərindən birində təşkil olunub. Bunlarla yanaşı fevralın 25-də təşkilat Avropa Parlamentinin binası qarşısında mitinq keçirilməsini də planlaşdırıb. Həmin gün eyni zamanda Hollandiyanın Haaqa şəhərindəki Beynəlxalq İnsan Haqları Məhkəməsinin binası qarşısında da mitinq keçirilməsi planlaşdırılıb.

Bəli, Azərbaycan diasporu artıq bütün dünyada öz fəaliyyətini genişləndirmək və qüvvətləndirmək istiqamətində məqsədyönlü iş aparır. Qəzetimizin bu sayının 2-ci səhifəsində bir müsahibə var. Bu müsahibə Azərbaycan diasporunun təmsilçilərindən biri olan Tale Heydərova məxsusdur.

Tale Heydərov İngiltərədə (London) cox böyük fəailiyyətlər göstərir. Ötən il DAK-ın qurultayındakı (Stokholm) cıxışında gözəl bir təklif irəli sürmüşdü. Təklif beləydi ki, nəyə görə xaricdəki Azərbaycan gənclərinin bir yığıncağı olmur, yəni bir Azərbaycan gənclər forumu keçirilmir?

Mən o zaman bu təklifi çox yüksək səviyyəli təklif kimi qəbul etmiş-

dim və «Belçika-Azərbaycan Evi»" olaraq bu işi öz öhdəmizə götürməyə söz vermişdim. Təəssüf ki, ötən il bu işi həyata keçirə bilmədik. Azərbaycanda keçirilən seçkilər tədbirimizi təxirə saldı. Lakin bu il belə bir yığıncağı ilin birinci yarısında keçirməyə hazırlaşırıq. Talc Heydərovun da öz müsahibəsində dediyi kimi, bu ilin yazında Avropanın paytaxtı Brüsseldə Azərbaycan günləri adı altında üç gün davam edəcək böyük bir tədbirin keçirilməsinə hazırlaşırıq.

Yazımın əvvələrində dediyim kimi, Azərbaycan diasporu öz fəaliyyətini gələcəkdə daha da gücləndirmək, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmaq üçün daha səmərəli fəaliyyət göstərəcəkdir.

*2 yanvar, 2006*

# BRÜSSEL PƏNCƏRƏSİ

**Bu il əlamətdar hadisələrlə zəngin bir il olacaq bizim üçün. Həm işğal olunmuş torpaqlarımızın azad olunması ili, həm də diasporumuzun hərəkətə gəldiyi bir il olacaq, 2006-cı il. Bəli, dəyərli həmvətənlərim, qarşıladığımız təzə ilin Azərbaycan dövləti və Azərbaycan xalqı üçün çox mühüm bir il olacağı ümidindəyəm. İlk olaraq Ümummilli Liderimizin təməlini qoyduğu Dünya Azərbaycanlıları Qurultayı bu il öz işini davam etdirəcək-mart ayının 16-da paytaxt Bakıda özünün növbəti qurultayını keçirəcək. Prezidentimiz İlham Əliyevin sərəncamına uyğun olaraq, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi isə çox önəmli bir toplantı keçirmək barədə qərar verib. *Bu ilin mart ayının 16-da Bakıda* bütün dünya azərbaycanlılarını bir araya gətirəcək Qurultaydan doğrusu çox şey gözləyirik. İnanırıq ki, bu qurultayda milli diasporumuzun inkişafına, Azərbaycanın dünyaya tanıdılması işinə, xaricdə yaşayan soydaşlarımızın qayğı və problemlərinin həllinə yönəlik çox mühüm qərarlar qəbul ediləcək.**

Digər tərəfdən inanıram ki, bu il işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad olunması istiqamətində də əsaslı irəliləyişlər olacaq. Eyni zamanda arzu edirəm ki, Qarabağ problemi bu il öz həllini tapsın, qaçqın və məcburi köçkünlərimiz öz doğma torpaqlarına qayıtsınlar. Ölkə başçısının dediyi kimi,- əgər bu problem sülh yolu ilə həll olunmazsa, bunu öz gücümüzlə həll etməyə qadir olan bir xalq olduğumuzu sübut etməyə hər zaman hazırıq.

Bəli,bu sözlərdə böyük bir həqiqət var. Prezidentimizin bu sözləri bir





daha sübut edir ki, müstəqil Azərbaycan dövləti artıq öz taleyini və gələcəyini həll etmək və qələbə çalmaq iqtidarına malikdir. Öz mövqeyini çox aydın bir şəkildə dünyaya bəyan edən Azərbaycan münaqişənin dinc yolla nizama salınmasına tərəfdar olduğunu dəfələrlə, dönə-dönə bəyan etsə də, qarşı tərəf-işğalçı Ermənistan tərəfi münaqişənin sülh yolu ilə həllindən hər vasitə ilə yayınmağa çalışır. Lakin artıq, düşmənin qaçmağa yeri yoxdur.

Atatürkün gözəl bir sözü var:- «*Ya istiqlal, ya ölüm*"!». Bəli, başqa yolumuz yoxdur. Bu işdə Azərbaycan dövləti yalnız ölkə daxilində yaşayan soydaşlarımıza deyil, eyni zamanda xaricdə, dünyanın hər bir guşəsində yaşayan milli diasporumuzun gücündən də istifadə etməlidir. Qarşımızdakı düşmən çox hiyləgərdir. Bu gün dünya ölkələrinə qondarma «erməni soyqırımı» barədə yalan və riya dolu məlumatlar yayan, qara-qışqırıq qoparan, hay-küy salan, *hətta müxtəlif ölkələrin Ali Qanunverici hakimiyyət orqanlarına* müxtəlif üsullarla təsir edərək öz istəklərinə uyğun qərarların qəbul olunmasına nail olan erməni lobbisinə və erməni diasporuna qarşı hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, müsəlləh əsgərə çevrilməlidir.

Bu yolda, dünyaya səpələnmiş hər bir vətən övladı bütöv bir vücud kimi birləşməli, yumruğa çevrilib düşmənin- erməni işğalçılarının başına enməlidir.

Təsadüfi deyldir ki, düşmən artıq yenildiyini çox yaxşı başa düşüb və məhz buna görə də indi çox gülünc iddialar irəli sürür. Naxçıvanda guya, ermənilərin abidələri məhv edilib və ilaxır, və sair. Doğrusu işğalçı ermənilərin bu iddiaları çox gülünc görünür. Təəssüflər olsun ki, bizlər-torpaqlarının 20 faizdən artığı işğal olunmuş, milyona yaxın qaçqını və məcburi köçkünü olan Azərbaycan tərəfi nədənsə ermənilərə qarşı eyni iddialarla çıxış etmirik. Biz bu istiqamətdə öz tələblərimizi hələ bu il irəli sürməyə hazırlaşırıq. Sual olunur, gecikməmişikmi? Bizim tələblərimiz onlarınkı kimi gülünc olmayacaq ki? Göründüyü kimi çox maraqlı və maraqlı olduğu qədər də ciddi suallardır.

Biz, beynəlxalq təşkilatlar qarşısında bütün haqq və hüquqlarımızın bərpasını tələb etməliyik. Biz erməni işğalçılarından Xocalıda törətdikləri və insanlığa sığmayan vəhşiliklərin hesabını sormalıyıq. Erməni vandalları Azərbaycan torpağında dağıtdıqları abidələrimizin, yandırdıqları şəhər və kəndlərimizin, amansızlıqla qətlə yetirdikləri günahsız insanların cavabını verməlidirlər. Biz eyni zamanda tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan qovulmuş minlərlə soydaşımızın taleyi üçün də haqq-hesab istəməliyik. Onu da deyim ki, erməni işğalçıları Qarabağ torpağından çıxsa da, bizim iki əlimiz onların yaxasında olacaq, bunun belə oduğunu bilsinlər.

Budur, rəhbəri olduğum «Belçika-Azərbaycan Evi» diaspor təşkilatının

Brüssel şəhərindəki ofisində, pəncərə önündə dayanıb bütün bu problemlər barədə düşüncələrə dalmışam. Fikirlər, xəyallar, ümidlər başım üzərindən buludlar kimi ötüb keçdikcə mən vətənim Azərbaycan naminə bu günə kimi etdiyim və etmək istədiklərim barədə düşünürəm. Düşünürəm ki, iyirmi beş ildən bəri hər səhər qarşısında dayanıb vətənim Azərbaycan barədə düşüncələrə daldığım bu "BRÜSSEL PƏNCƏRƏ"lərini bir gün taybatay açaraq üzümü dünyaya tutub hayqıracağam. Dünyadakı bütün soydaşlarıma xoş bir müjdə verəcəyəm və belə deyəcəyəm:-*Gözün aydın, qalib Vətən!* Gözün aydın, qalib Azərbaycan!

*16 fevral, 2006*

## DİASPORUN GÜCÜ

**Bizlər, xaricdə yaşayan azərbaycanlılar uzun illərdir ki, «diaspor» sözünü işlədirik. Bizim digər əlaqədar qurum və təşkilatlarımız da bu sözü işlədirlər. Ancaq, təəsüflər olsun ki, diasporun gücü məsələsində hələ də ortaq bir fikrə gəlməmişik. Yəni, diaspor necə olmalıdır, nə etməlidir?**

Hər hansı bir səbəbdən xarici ölkələrə getmiş və ya getməyə məcbur olmuş bizlər, nə iş görəcəyimizi və vətənə nə şəkildə kömək edəcəyimizi çox yaxşı bilirik. Ancaq bu bildiklərimizi bəzilərinə anlada bilmirik.

Bu günə kimi gördüyümüz işlərlə təbii ki, «diasporun gücü» məsələsini bir çoxlarına anlatmağa çalışsaq da, bu günədək kimsəni bu gücə inandıra bilməmişik. Ona görə də milli lobbiçiliyin inkişafı ilə bağlı problemlərimizi hələ də aradan qaldırmağa müyəssər olmamışıq. Bu sahədə çox zəifik və zəif də olaraq qalmışıq. Bunu kimsəyə başa sala bilmirik. Bununla bağlı bəzi məsələlərə bir-bir toxunmaq istəyirəm.

İlk öncə onu qeyd etmək istəyirəm ki, Xocalı faciəsinin ildönümü ilə əlaqədar DAK-ın və «Belçika-Azərbaycan Evi»nin birgə hazırladığı tədbir çox yüksək səviyyədə alındı və proqramda heç bir çatışmazlıq olmadı. Ancaq, meydana çıxan bəzi hadisələr hər zaman olduğu kimi, yenə də bizi üzdü. Bu hadisələrdən ən diqqəti çəkəni, obrazlı desək «DAK-da qanitirmə»nin davam etməsidir. Bu Belçikada da özünü göstərdi. Xocalı aksiyası zamanı DAK-ın təşkilatımızla münasibətlərində problemlər olduğu ortaya çıxdı. Mənə elə gəlir ki, DAK-da güclü bir reform aparmağın zamanı gəlib. Görüşdüyüm DAK məclis üzvlərinin çoxu mənə bu məsələ haqda öz fikirlərini söyləyiblər. Yəni DAK artıq içində olduğumuz yeni dünya anlayışına uyğun hərəkət edə bilmir. Burada həm də kadr problemi var. Təşkilat proqramsızdır, xaricdəki qurumlarımızla düzgün bir əlaqə qura bilmir.

Mənim fikrimcə DAK bir təşkilat kimi qalmalıdır, amma əsaslı bir yenidənqurmaya böyük bir ehtiyac var. Bayaq dediyimiz kimi DAK-a «təzə qan» lazımdır. Ona görə də bizlər vaxtı fövtə vermədən, DAK- da reform aparmaq üçün hərəkətə keçməliyik.

Məni tanıyanlar çox yaxşı bilirlər ki, mən illərdən bəridir bu məsələ barədə təklif verənlərdən biriyəm. Çünki mən bir şeyə inanıram ki, güclü bir diaspor, güclü bir lobbi, ancaq və ancaq bizim xarici ölkələrdəki diplomatik korpus və səfirliklərimizlə qarşılıqlı əlaqələrimizin zəmnində həyata keçə bilər. Ancaq biz son 10 ildə bu sadə həqiqəti dönə-dönə xatırlatmağımıza baxmayaraq, kimsəyə anlada bilməmişik.

Bu günlərdə hay-küyçü erməni lobbisinin təsiri ilə ingilis parlamentində guya Naxçıvandakı erməni qəbiristanlığına hörmətsizlik edilməsinin müzakirəyə çıxarılması bizi yenə də çox ciddi düşündürməlidir. Bu hadisənin ardınca Brüsseldəki səfirimiz onlara məktub göndərdi. Məktubda deyilirdi: «Anlaşıldığı qədər, siz düz demirsiniz, elə bir vəziyyət yoxdur!!!" Türkiyədə bir söz var: «ata minən, üsküdarı keçdi".» Yəni, iş-işdən keçəndən sonra oyandıq. *Hər zaman olduğu kimi, biz yatırıq, yatırıq*, hər bəla başımıza gələndən sonra, oyanıb haqq iddia edirik. Biz beləyik. Öz haqlı davamızı anlada bilmirik. 17-ci yüzilin axırından bu günə qədər bizə edilən zülmləri anlada bilmədiyimiz kimi, 19-cu yüzilin əvvəlində yüz minlərcə azərbaycanlının (öz ailəm də bunların içərisində olub) İrəvandan, öz doğma torpaqlarından sürgün edilməsi faktını da dünyaya lazımi səviyyədə çatdıra bilməmişik. Ötən əsrin əvvəllərində soydaşlarımızın Qərbi Azərbaycandan deportasiyası zamanı ölənlərimiz öldü, qalanlarımızın aqibətindən isə bu günə kimi heç bir xəbər (mənim ailə fərdlərim də onların içərisində olmaqla) yoxdur. Bizlərin haqq davası yada düşmədiyi halda, ermənininin arada bir ortaya atdığı yalanların arxasınca gedən bəzi Qərb dövlətlərinin ikili siyasəti qarşısında da bir ideloji və təbliğat zəifliyi nümayiş etdiririk.

Xarici ölkələrdəki səfirliklərimizdə çalışan məmurlarımızın çoxu, ya bundan xəbərsizdirlər, ya da düşmən təbliğatının qabağına çıxmağa gücləri çatmır. Yəni əslində belə bir gücə malik deyillər. Yoxsa, indiyədək düşmən təbliğatının qarşısında susmazdılar.

Bir azərbaycanlı kimi bunları deməyi özümə borc bilirəm. Bunun hesabını öncə özümüzdən, soruşmaq mənim vətəndaşlıq borcumdur. Ömrümün axırına kimi bu davadan əl çəkməyəcəm- hansı şərtlərdə olursa-olsun!

***3 mart, 2006-cı il***

# *XƏYALLARIMIZ GERÇƏK OLSAYDI*

*(Qurultayda söz verilmədiyindən ictimaiyyətə çatdırılmayan çıxışım)*

**Hörmətli Prezidentimiz, dəyərli müsafirlər və qurultay nümayəndələri, hamınızı salamlayıram. Atam 1931-ci ildə tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan deportasiya olunanlardandır. Məkrli erməni siyasətinin qurbanı olan minlərlə soydaşlarımız kimi mənim ailəm də məcburi köç edərək qardaş Türkiyənin İğdır şəhərinə pənah gətirmişdir. Mən də bu şəhərdə dünyaya göz açmışam. Lakin gənc yaşlarında ikən taleyin hökmü ilə Avropaya, daha doğrusu Belçikaya üz tutmuşam. 25 ildir ki, Belçikanın paytaxtı Brüsseldə yaşayıram. Lakin bütün bu illər ərzində özümü doğma ata vətənim olan Azərbaycansız təsəvvür etməmişəm. Ən böyük amalım isə vətənə xidmət etmək olub.**

Hörmətli qurultay nümayəndələri! Mən 25 ildir ki, Brüsseldə işləyib, yaşayır və burada milli diasporumuzun təşəkkül tapması və inkişafı üçün əlimdən gələni əsirgəmirəm. Hal-hazırda «Belçika-Azərbaycan Evi» adlı diaspor təşkilatının sədri və Azərbaycanda nəşr etdirdiyim «Euro Xəbər» adlı qəzetin Baş redaktoru, həmçinin, Bakı Beynəlxalq Universitetinin hüquq fakültəsinin məzunuyam. Avropa qanunları barədə araşdırmalar aparıram.

Hörmətli, qurultay nümayəndələri! Bugünkü çıxışımda müəyyən məsələlərlə bağlı tələblər irəli sürmək istərdim. Əvvəllə demək istəyirəm ki, bu günü bizə bəxş edən ulu öndərimizin ruhu qarşısında, dünya azərbaycanlılarının hüzurunda hörmətlə baş əyirəm. Bu gün Ulu Öndərin güclü ruhu bizimlədir və mən buna inananlardan biriyəm. Mənə görə Ulu Öndərin bu günü bizlərə bəxş etməsinin səbəbi dünya azərbaycanlılarının birliyinə və bərabərliyinə nail olmaqdır. Liderimizin 2002-ci ildə imzaladığı fərman bu dediklərimə əyani sübutdur. Xaricdə yaşayan azərbaycanlılara bütün haqq və hüquqların verilməsini nəzərdə tutan bu fərman eyni zamanda soydaşlarımızın özlərini azərbaycanlı kimi hiss etmələrinə imkan verəcək. Bu gün bizləri- dünya azərbaycanlılarının XI qurultayına topladığına görə hörmətli Prezidentimizə öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Cənab Prezidentimizdən bizlərə-xaricdə yaşayan soydaşlarımıza özümüzü bir azərbaycanlı olaraq hiss etməyimiz, bu ülvi sevgini hər zaman duyub-yaşamağımız üçün Azərbaycan vətəndaşlığına qəbul olunmamıza kömək göstərməsini, bununla bağlı qərar verməsini xahiş edirəm.

Bu qərar bizlərin Azərbaycanın inkişafında daha böyük rol oynamağımıza, milli ruhumuzun daha da yüksəlməsinə, Vətən naminə daha artıq dərəcədə çalışmağımıza təkan vermiş olardı.

Milli liderimizin ifadə etdiyi kimi: ***"Xaricdə yaşayan azərbaycanlılar təşkilatlanma prosesesinin ilk mərhələsini keçiblər, bir güc olublar, bu gücdən istifadə etmək lazımdır".***

İkinci bir arzum isə budur ki, dövlətimizin xarici siyasəti, xaricdəki lobbi fəaliyyətimizin planlı bir şəkildə həyata keçirilməsi üçün bu Qurultayda yeni bir Komissiya yaradılması barədə sərəncam versin. Yaradılacaq bu Komissiyanın bu iki məsələ haqqında araşdırmalar aparmasına və gələcəkdə bu məsələlər ətrafında həyata keçirəcəyimiz bütün işlərimizə nəzarət etməsinə böyük ehtiyac var. Bu işləri proqramlaşdırarkən xaricdə yaşayan azərbaycanlıların da fikirlərinin nəzərə alınması, onların təkliflərinin dəyərləndirilməsi və bu fikirlərin əsasında yeni bir xarici siyasət metodunun hazırlanmasına böyük ehtiyac var.

Hörmətli Prezidentimiz, dəyərli həmvətənlərim!

İnanıram ki, mənim bu təkliflərim həm də sizlərin hər birinizin arzusudur. Bunların həyata keçirilməsinə isə biz hamımız köməklik göstərməliyik.

Tanrı türkü qorusun! Diqqətinizə görə sağ olun!

*16 mart,2006-cı il*

# *16 MARTIN ARDINDAN*

**Bir tarixi hadisəydi 16 mart, Azərbaycanın tarixinə yazıldı. Bizlər- xaricdə yasayan azərbaycanlılar çoxdan gözləyirdik bu günü, ümid dolu ürəklərlə. Gözləyirdik və bu gün gəldi çatdı, amma ümidlərimizin də sonu çatdı sanki. Əsası Ulu Öndərimiz tərəfindən qoyulmuş Düya Azərbaycanlılarının Birinci Qurultayında iştirak etməmişdim. O zaman səfirlik işçiləri məni dəvət etməyi unutmuşdular. Ikincisinə dəvət edildim, çox da sevindim, ürəyim dolu-dolu gəldim vətənə. Dünyanın dörd bir yanından gələn həmvətənlərim kimi. Ancaq bu dəfə də sözümü deyə bilmədim, ya da dedirtmədilər.**

Bilirsinizmi, qiymətli həmvətənlərim, ən çox nəyə üzüldüm? Öz redak-

siyamızdakı əməkdaşlarımızın vəziyyətinə. Onlar öz üzüntülərini istəmədən qələmə almaq zorunda qaldılar. Mənə dedilər ki, Bülənt bəy, siz niyə çixiş etmədiniz? lBelçika-Azərbaycan Evi»"nin gördüyü işlərlə tanış olanlar da mənə eyni sualla müraciət etdilər. Bu suala cavab vermək çox çətindir. Lakin özüm də bilmirəm mən niyə çıxıs etmədim. Halbuki çıxışımı tam bir ay əvvəldən yazılı olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İs üzrə Dövlət Komitəsinə göndərmişdim.

Maraqlı bir faktı da nəzərinizə çatdırmaq istərdim ki, XYAİDK qurultayda paylamaq üçün iki kitab da çap etdirmişdi. Amma təəssüf ki, həmin kitablarda «Belçika-Azərbaycan Evi»nin təşkil etdiyi tədbirlərin heç birinə yer verilməmişdi. Kitabların birində isə 2003-cü ildə Xocalı soyqırımı ilə bağlı təşkil etdiyimiz sərgi barədə kiçik bir məlumata rast gəlmək olardı, vəssalam. Bunu da sanki, məcburiyyət qarşısında qalaraq vermişdilər. Necə deyərlər, «xala, xətrin qalmasın».

Bilirsiz, deyiləcək söz çoxdur, lakin deməyə ehtiyac varmı, onu da bilmirəm. Biz tam 25 ildir deyirik, danışırıq, tənqid edirik. Ancaq heç nə dəyişmir. Bunun əsas səbəbi isə odur ki, gərək işi işbilənə verəsən.

Bu gün Brüsseldəki Mərkəzi ofisimizdə, nədənsə köhnə şəkilləri nəzərdən keçirir, ötən günlərimi, gördüyümüz işləri, həyata keçirdiyimiz tədbirləri xəyalımda canlandırırdım. Fikrə daldım. Bütün bunlar xəyalımı çox uzaqlara apardı. Təvazökarlıqdan uzaq olsa da özüm-özümlə fəxr edib, təsəlli tapdım. Özüm-özümə, vətəndən incimək olmaz,-dedim. Sonra da düşündüm: Görən, kimlərsə bizi incitdimi? Yox, yox, bizi incitmək nədir, lap atəşlədilər, elə bil. Yayımızdan fırlatdılar. Bundan sonra daha çox çalışmaq lazım olduğuna inandım. Deməli, biz ordenlərə layiq görülən həmvətənlərimiz qədər işləməmişik. Deməli, onlar kimi işləməliyik ki, biz də mükafatlara layiq görülək.

Bəli, sadalamaq istəmirəm «Belçika-Azərbaycan Evi»nin gördüyü işləri. Çünki qəzetimizin 16 səhifəsi buna azlıq edər. Amma, etiraf edim ki, bütün bu işlərimiz qurultayda söz sahibi olmağımıza azlıq edir. Elə ona görə də öz-özümə söz verdim ki, bundan sonra daha çox xidmət etməliyəm doğma vətənə. Qurultayda orden alan həmvətənlərimə qarşı gözəl bir qısqanclıq hissi yarandı ürəyimdə. Düşündüm ki, bu günə qədər gördüyüm işlərdən daha çox iş görməliyəm, orden və medal alan həmvətənlərimə çatmaq üçün. Soydaşlarıma söz verirəm ki, bir diaspor rəhbəri kimi vətən uğrunda daha çox çalışacağam!!! Nə bilmək olar, bəlkə də heç gələcək qurultaylara dəvət olunmayacağam. Ona görə də çox çalışmalıyam, lap çox.

*31 mart, 2006-cı il*





# *TARİXİ HADİSƏLƏR*

**Hər gün istər daxili, istərsə də xarici mətbuat səhifələrində vətənimiz Azərbaycanla bağlı yeni-yeni hadisələrin şahidi oluruq. Belə hadisələrdən biri də bu yaxınlarda Macarıstanın paytaxtı Budapeştdə 2004-cü ildən bəri məhkumluq həyatı yaşayan həmvətənimiz Ramil Səfərovun məhkəməsində yaşandı.**

Mən bu prosesi bir diaspor təşkilatçısı kimi kənardan seyr etməklə kifayətlənməyib, birbaşa məhkəmədə iştirak etməklə görmək istədim. Elə bu məqsədlə də aprelin 3-də Brüsseldən Budapeştə yola düşdüm. Aprelin 4-də saat 13:30-da bu tarixi anı Macarıstan Ali Məhkəməsinin II mərtəbəsində 36 saylı zalda yaşadım. Məhkəmə prosesində Budapeştdə oxuyan tələbələrimiz, orada yaşayan türk qardaşlarımız və Azərbaycanın Macarıstandakı səfirliyinin bütün işçiləri tərcüməçilərlə birgə iştirak edirdilər. Məhkəmədə tamamilə bir kollektivlik, həmrəylik və diaspor kimi gözlədiyimiz birlik içindəydik. Bir sözlə, Ramil tək deyildi, bir Azərbaycan vardı onun yanında. Ramil Səfərov məhkəmə zalına gətirildi. Mən onunla üzbəüz oturmuşdum, aramızda 3 metr məsafə vardı. Bir-birimizi yaxından tanımırdıq, amma 4 saatlıq məhkəmə prosesində göz-gözə çox gəldik. Bir həmvətənli kimi nə mən onu unudacağam, nə də o məni. Ramilin çox qürurlu, özünə güvənən, qorxmaz görkəmi vardı. Mən bir neçə dəfə onun yaxından şəklini çəkdim. Zərrə qədər qorxu yox idi onun üzündə. Əsl azərbaycanlıya yaraşan qürur və mətanətlə seyr edirdi məhkəmə prosesini. Onun bu qədər sakit duruşu məhkəmə prokuroru xanım Kichvern Nicedanı təəccübləndirmişdi. O, bunu hətta öz məruzəsində də qeyd etdi: ***«bir nəfəri öldürən, birini də öldürmək istəyən bir şəxsin bu qədər sakit durması çox qəribədir».***

Doğrudan da Ramili anlamaq mümkün deyildi. Prokuror: «Ramil bu hadisəni qəsdən törətmişdi və əvvəlcədən planlaşdırmışdı. Çünki o, bu hadisəni məhz 1992-ci ilin fevralında törədilmiş Xocalı qətliamının ildönümü ərəfəsində- 2004-cü ilin fevral ayının 19-da törədib. O, öz xalqına zülm edən bir tərəfin əsgərini məhz o gün öldürmək istəmişdi»-dedi.

Burada bir məsələyə də aydınlıq gətirməyi özümə borc bildim. Prokuror çox açıq şəkildə ifadə etdi ki, Ramil erməni zabitinin otağına səhər saat 05:15 radələrində daxil olaraq işığı yandırıb. Yəni hadisə baş verən zaman er-

məni zabiti oyaq olub.

O, sonda Ramilin 30 il azadlıqdan məhrum edilməsini istədi. Məhkəmə ayın 13-də Ramilin sonuncu məruzəsini dinləmək üçün öz işini tamamladı.

Allah Ramilin yardımçısı olsun! O, bir şeyi yadından çıxarmasın ki, 50 milyon Azərbaycan xalqı onun yanındadır və axıra qədər də olacaq.

Onu da xatırlatmaq istərdim ki, məhkəmə hakimi Dr. Vaskuti Andras Ramilin yanına heç kimi qoymurdu. Çünki erməni diasporu onu öldürənə mükafat ayırıb. Ramil, sən yalnız deyilsən!

Mən Macarıstandakı səfirimiz Həsən müəllimə və səfirliyin bütün əməkdaşlarına öz dərin təşəkkürümü bildirirəm. Onlar bu məhkəmədə əsl diaspor və diplomatik kadr həmrəyliyi yaratmışdılar.

*15 aprel, 2006-cı il*

## *DAK-da QAN İTİRMƏ DAVAM EDİR*

**Məlum olduğu kimi xeyli müddətdir ki, bir qrup DAK idarəçisinin adı çəkilən qurumdan ayrılıb yeni DAK yaratması yenə də öz aktuallığını qoruyub saxlamaqdadır. Son zamanlar hər iki DAK-ın birləşməsi haqqında gedən söhbətlərə isə tərəflərdən birinin Stokholmda qurultay keçirmək barədəki qərarı ilə son qoyuldu. Biz, yəni «Belçika-Azərbaycan Evi» bu məsələni uzun zamandır ki, ciddi müzakirə edən diaspor təşkilatıyıq. Yeri gəlmişkən deyim ki, hələ DAK ikiyə bölünməzdən əvvəl bütün bu prosesləri dərindən müşahidə edənlərdən, baş verənlərə ən obyektiv qiymət verənlərdən biri də mən olduğum üçün indi bu hadisələrə bir o qədər də təəccüblənmirəm. Çünki, mən DAK daxilində yaşananları həmişə yaxından izləyən və tərəfsiz şəkildə qiymət verənlərdən olmuşam. Bu birləşmə məsələsini də bir çox həmvətənim kimi mən də çoxdan arzulamışam. Uzun illər qazandığım təşkilatçılıq təcrübəm nəticəsində belə ayrılmaların və ya yeni qurumlar yaratmağın mənasız olduğunu da yaxşı başa düşürəm. Gözəl bir atalar sözü var: «Dərə keçərkən at dəyişdirməzlər». Bu atalar sözü ilə anlatmaq istədiyim odur ki, qarşımızda milli diasporumuzla, təşkilatçılıq işimizlə, lobbiçiliklə bağlı həyata keçiriləsi layihələrimizin durduğu bir vaxtda yeni qurumlar yaratmaq və ya mövcud qurumları parçalamaq səhv addımdır.**





Mart ayında Dünya Azərbaycanlılarının Bakıda keçirilən İkinci Qurultayında mən və mənim həmfikirlərim bu məsələləri bir diaspor təşkilatçıları kimi bir daha ətraflı şəkildə müzakirə etdik. Elə salondaca problemlə bağlı müəyyən fikirlər səsləndirildi. Belə baxanda iki qrupdan hər kəs birləşmək tərəfdarıydı. Sanki DAK-ın məclis toplantısını keçirdik. Həmin iclasda müxtəlif təkliflər verildi. Bu təkliflərdən biri də DAK-ın təcili olaraq növbədənkənar Konqresinin keçirilməsi ilə bağlı idi. İkinci təklif isə ondan ibarət oldu ki, bu Konqresə DAK-dan uzaqlaşmış digər həmvətənlərimizi də dəvət edək.

Bu iclasdan sonra mən İstanbula qayıtdım. Buradakı «Azərbaycan» dərnəyində Əhməd bəy Obalı ilə görüşdüm. Onunla uzun-uzadı söhbət etdik və o da bizim fikrimizlə şərik olduğunu və bu birləşməyə razı olduğunu söylədi. O, heç bir şərtsiz-filansız qurultaya digər dostlarıyla qatılacaqlarını bildirdi. Amma təəsüf ki, zaman keçsə də bir nəticə hasil olmadı. O vaxtdan çox sular axıb. Azərbaycan diasporunun birləşməsindən qorxan qüvvələr yenə də öz işlərini görürlər. Və bu birləşmə sindromu hələ də davam etməkdədir. Təbii ki, bu işə sevinənlər də oldu, üzülənlər də. Onlar öz üzüntülərini istefalarla və ya səssizcə sıralardan çəkilməklə bildirdilər. Uzun sözün qısası, məsələ orasındadır ki, DAK-da qan itirmə hələ də davam edir.

«Euro Xəbər» qəzetində dərc etdirdiyim «DAK-a təzə qan lazımdır» sərlövhəli məqaləmdə bütün bu deyilənlər barədə öz fikirlərimi açıqlamışam. Amma ortada bir sual durur: - Bu qanı haradan tapmaq? Elə bu qanın hələ də tapılmadığı səbəbindən DAK-da qanitirmə davam edir.

Amma, bu gün bu məsələyə başqa tərəfdən baxmağa çalışacam. Bu bir yeni ssenaridir, desəm, səhv etmərəm. Bu məsələnin üzərində düşünməyin nə qədər gərəkli olduğuna inanıram. Mənə elə gəlir ki, DAK artıq içində olduğumuz dövrün tələblərinə cavab verə bilmir. Yəni qloballaşan dünyada və təbii ki, yaşadığımız regionda ictimai-siyasi proseslərin, strateji və taktiki hərəkətlənmələrin, sərhədlərin yenidən bölünməsi prosesinin sürətlə davam etdiyi bir dönəmdə DAK-ın öhdəsinə düşən vəzifələri yerinə yetirməyə qadir olmadığı göz qabağındadır. Burada bir şeyə diqqət etmək lazımdır ki, DAK-ın fəaliyyətini yalnız və yalnız Güney məsələsi, oradakı həmvətənlərimizin vəziyyəti ilə bağlamaq düzgün yol deyildir.

Bu mənada mən hələ də DAK sözünün (Dünya Azərbaycanlılarının

Konqresi) mahiyyətini anlaya bilməmişəm. Əgər DAK doğrudan da Dünya azərbaycanlılarının qurumudursa, özünü tamamilə Güneyə bağlı tutmamalıdır. DAK sivil bir qurum kimi ölkə daxilindəki təşkilatlarla işgüzar əlaqələr qurmalıdır. Yalnız güneylə deyil, bütün dünyadakı Azərbaycan məsələləri ilə məşğul olmalıdır. Beynəlxalq qurumların önündə önəmli sənədlər və məlumatlar qoymalıdır. Özünün yayım və informasiya mənbəyini yaratmalıdır. Sənədlər, kitablar, bukletlər çap etdirib paylamalıdır. Ancaq bu gün biz bunların heç birini görmürük. DAK və eyni adı daşımaq üstündə qalmaqal salan qurumlar milli diasporun problemlərini unudaraq, yalnız və yalnız ad və rəhbərlik kürsüsündə oturmaq uğrunda gedən savaşla məşğuldurlar. Bir soruşan yoxdur ki, nə üçün bu təşkilat Azərbaycanla əlaqələrini hələ də istənilən səviyyədə qura bilməyib? DAK-a pul lazımdır, ya yox? Bəs bu pulları haradan tapmaq olar?

Göründüyü kimi suallar çoxdur. Amma bu suallara cavab vermək istəyində olanlar nədənsə gözə dəymirlər. Amma, onu da deyim ki, lazım gələrsə mən bir diaspor başçısı kimi bütün bu sualları cavablandıra bilərəm. Amma, təki bunu məndən soruşanlar olsun.

Bəli, əziz oxucular, DAK-a təzə qan lazımdır. DAK-da əsaslı şəkildə islahatlar aparmağın vaxtı çoxdan çatıb. Atalar demişkən, bu arada «ata minən suyu çoxdan keçəcək».

*aprel, 2006-cı il*

# DÜNYA AZƏRBAYCANLILARI KONQRESİNİN (DAK) AQİBƏTİ

**Hər bir problemin öz həlli yolu var. Lakin elə problemlər var ki, arayıb-axtarıb ona çarə tapa bilmirsən, nəticədə dönüb-dolaşıb eyni yerə gəlirsən. Bu DAK problemi də belədir, həlli yolunu heç cür tapa bilmirik. Bu qədər problemlərimizin içində bir də DAK var ki, onu yoluna qoya bilmirik. Eynilə bulud arxasından çıxan günəş kimi gah batır, gah görünür DAK sədri Dr. Cavad Derəxti. Hər dəfə maraqlı bir söz deyir, amma dediyi sözə özü də inanmadığı üçün söz elə deyildiyi yerdə də qalır.**

Mənim DAK haqqında yazılarım və görüşlərim göz qabağındadır. Açıq-aydın DAK-ın düz yolda olmadığını dəfələrlə «Euro Xəbər» qəzetində və ya başqa mətbuat orqanlarında dilə gətirmişəm. Lakin DAK rəhbərləri hər dəfə mənim bu iradlarımı qulaq ardına vurur, ya da atalar demişkən «at eynəyi taxaraq» nöqsanları görmək istəmirlər.

Ancaq bu gedişlə çox da uzağa getmək olmaz. DAK təşkilatında ciddi bir referenduma ehtiyac var. İslahatların aparılması artıq qaçılmazdır. Bunu bilən DAK sədri də vəziyyətdən çıxmaq üçün özünü dağa-daşa vurur.

Mənim DAK sıralarından istefamın əsas səbəblərindən biri də elə budur. DAK-da ciddi dəyişikliklər etmək lazım gəldiyinin tərəfdarıydım, bunu bir daha təkrar edirəm. Bizim İnternet saytımızda da (www.euxeber.com) bu barədə bir anket sorğusu var. Anketdən aydın olur ki, Azərbaycan diasporu DAK-ın fəaliyyətindən və idarə sistemindən narazıdır və qurumun təşkilat cəhətdən dəyişdirilməsində maraqlıdır. Biz DAK-ın Bakıda keçirdiyimiz məclis yığıncağında bu məsələni aydın şəkildə müzakirə etdik. Qərara gəldik ki, bu il növbədənkənar DAK qurultayı keçirilsin və bu problemlər orada qaldırılsın. Qurultayın Avropanın paytaxtı Brüsseldə keçirilməsinə qərar verildi. Ancaq sözü gedən təşkilatın üzvləri arasında nədənsə növbədənkənar qurultayın keçirilməsindən qorxanlar da oldu. Əgər belə olmasaydı əvvəlcədən gəlinmiş razılığı pozaraq DAK-ın növbədənkənar qurultayını təxirə salmazdılar.

Belə çıxır ki, DAK Dr. Cavad Derəxtinin şəxsi obyektidir. İstədiyi kimi hərəkət edir, istədiyi insana vəzifə verir, istədiyini işdən çıxarır, istədiyi sözü deyir. Lakin dediyi sözlərin əhəmiyyətli olub- olmayacağını bilmir. Yetər ki, söz olsun, yetər ki, DAK adı mətbuatda hallansın.

Əslində bu təşkilatın adının, yəni DAK sözünün özünün də müzakirə olunmağa ehtiyacı var. Bu böyük adı öz əlinə alıb, dünyadakı Azərbaycanlıları zəif bir hala salmağa heç bir insanın haqqı yoxdur. DAK bu günə kimi öz adına layiq heç bir fəaliyyətdə bulunmayıb. Bundan belə də bu kadrlarla heç bir iş görə bilməyəcək. Bunu hər bir azərbaycanlı bilir və deyir. Təəssüf ki, biz DAK-ı özbaşına buraxmışıq və yana-yana seyr edəyirik.

Artıq bəsdir! Mən bir daha bəyan edirəm və üzümü DAK rəhbərlərinə tutub deyirəm: «Milli Azərbaycan ruhuna, milli Azərbaycan yoluna bir əngəl təşkil edirsiniz. Əgər bir az milli ruha inamınız varsa və Azərbaycanın gələcəyinə xeyir vermək istəyirsinizsə, xahiş edirəm 50 milyon azərbaycanlının adından bu təşkilatın önündən çəkilin! Çəkilin ki, yolumuza daha uğurlu da-

vam eləyək. Çəkilin ki, şəhidlərimizin ruhu narahat olmasın! Çəkilin ki, DAK təşkilatı layıq olduğu yerə, layıq olduğu sıralarda yoluna davam etsin ki, Azərbaycan diasporu zəif görünməsin. Sizlərdən hər biriniz Avropanın hansısa bir ölkəsində yaşayırsınız. Avropa mədəniyyətinə görə bilmədiyin işdən yapışmaq olmaz. Bu mədəniyyət adından sizdən xahiş edirəm ki, istefanızı Verin! İstefanızı verin ki, DAK-ın önündəki problemlər ortadan qalxsın və DAK özünə, adına layıq bir istiqamətdə hərəkət etsin.

Təkrar edirəm, DAK-ın idarə heyəti istefa verməlidir və növbədənkənar qurultaya getməlidir. Qanını təzələməlidir. Yeni və irəliyə doğru iş görə biləcək kadrlar yetişdirməlidir. Burda sədrlik söhbəti yox, Dünya Azərbaycan Türkləri söhbəti olmalıdır. Ona görə də bu böyük ideyanın önündə əngəl olmayın! Bu günə kimi etdiyiniz və etmədiyiniz işlərə görə sizə təşəkkür edirik. Ancaq xahiş olunur ki, istefanızı verin! İstefanızı verin ki, böyük Azərbaycan yolunda əngəllər ortadan qalxsın.

*may, 2006-cı il*

# MACARISTAN SƏFƏRİ

## *B.Gürçamın Ramil Səfərovun məhkəməsindən təəssüratları (mediada yayımlanmamışdır)*

**Elə bil zəmanə, tarix, dövr bizim əleyhimizə işləyir. Elə bir gün olmur ki, dünyanın hansısa bir guşəsindən Türk dünyasının əleyhinə olan bir hadisə, bir təcavüz xəbəri gəlməsin. Bilmək olmur ki, bütün bunlar Türk dünyasının böyüklüyünün dünyanı qorxuya, əndişəyə salmasının nəticəsidir, yoxsa, bizi parçalayıb yox etmək istəyənlərin oyunlarıdır? Maraqlıdır ki, hər gün demokratiyadan, insan haqlarından dəm vuran Avropa və digər ölkələrdəki hüquq-müdafiə təsisatları, ədliyyə və məhkəmə sistemi türk mənşəli xalqlara məxsus insanların taleyi ilə bağlı məsələlərdə, tamamilə fərqli bir mövqedə dayanır, fərqli bir qərar və ya hökm çıxarır, fərqli bir «demokratiya» nümayiş etdirir.**

Ramil Səfərovun Macarıstanın paytaxtı Budapeşt şəhərində erməni zabiti Qurgen Markaryanı qətlə yetirməsi ilə bağlı keçirilən məhkəmə prosesi





yuxarıda deyilənlərə misal ola bilər.

Xalqımızın bu igid oğlunun məhkəməsində şəxsən iştirak etməyi, onu lap yaxından görməyi və mənəvi dəstək verməyi özümə borc bilirdim. Eyni zamanda bu Avropa ölkəsindəki bir demokratik məhkəmə prosesini izləməkdə də böyük marağım vardı. Ramil Səfərovun 3 aprel 2006-cı il tarixdə başlanan məhkəmə prosesinə mən bir gün əvvəl, aprelin 2-də gəlmişdim. Doğrusunu deyim ki, bu məhkəmənin doğrudan da ədalətli keçəcəyinə şübhələnməyə başlamışdım. Bu şübhələr məni hələ Brüsseldə ikən narahat edirdi. Ürəyim ağrımağa başlamışdı. Budapeştdəki Azərbaycan səfirliyinə telefon bağlantısı açarkən qarşılaşdığım bürokratik əngəllər isə ürəyimin ağrılarını daha da şiddətləndirdi. Əvvələ onu qeyd etmək istəyirəm ki, Avropanın bir sıra ölkələrində olduğu kimi Budapeştdəki səfirliyimizdə də mənim telefon zəngimə gözləmədiyim bir halda ingilis dilində cavab verdilər. Səfirliyimizin əməkdaşı olan və mənimlə ingilis dilində danışan xanıma anlatdım ki, «mən sizinlə Azərbaycan dilində danışmaq istəyirəm». Lakin məlum oldu ki, bu xanım Azərbaycan dilini bilmir. Belə olan surətdə mən səfirliyimizdə ana dilimizi bilən bir əməkdaşa müraciət etmək istədiyimi bildirdim. Nəhayət ki, məni cavan bir əməkdaşla birləşdirdilər. Mən ona Budapeşt məhkəməsində iştirak etmək istədiyimi və bununla bağlı bu ölkədəki Azərbaycan səfirliyinin mənə yardımçı olmasını xahiş etdim. Səfirliyin əməkdaşı mənə sabah müraciət etməyi məsləhət gördü. O, mənə bildirdi ki, bu məsələ ilə bağlı səfirin özünə müraciət etdikdən sonra qərara gəlmək olar.

Səhəri gün yenidən səfirliyə açdığım telefon zənginə ingilis dilində danışan həmin xanım cavab verdi. Yenə dünənki əzablı proses başlandı. Vaxt daraldıqca məhkəmə prosesi də yaxınlaşır, mənim narahatçılığım isə artırdı. Nəhayət ki, çox uzun-uzadı anlaşmadan sonra Budapeştə getmək və məhkəmədə iştirak etmək üçün səfirliyimizdən «razılıq» ala bildim.

Beləliklə, aprelin 2-də, saat 8.30-da Macarıstanın paytaxtı Budapeştə Ramil Səfərovun məhkəmə prosesində iştirak etmək üçün yola düşdüm. İş elə gətirmişdi ki, Budapeştdə qaldığım otel məhkəmə binasının lap yaxınlığında idi. Elə ona görə də aprelin 3-də səhər tezdən oyandım. Doğrusu çox həyacanlı idim. Səhər saat 8-də jurnalistə lazım olan bütün texniki avadanlıqları-fotoaparat, kamera, diktafon və sair götürüb məhkəməyə yollandım. Güman edirdim ki, məhkəmə binasının qarşısında əllərində Azərbaycanın bayrağını və «Ramil Səfərova azadlıq» sözləri yazılmış şüarlar tutmuş həmyerlilərimizlə qarşılaşacağam. Təəssüflər olsun ki, mən məhkəmənin qarşı-

sına çatarkən xəyal qırıqlığına uğradığımı anladım. Burda heç kəs yox idi. Mən burada macar polisi tərəfindən çox diqqətlə yoxlanıldıqdan sonra məhkəmə binasına buraxıldım. Lakin burada da bir xeyli oyan-bu yana gəzişsəm də nə tanış bir simaya, nə də azərbaycanlı soydaşlarımızın tanış çöhrəsinə rast gəldim. Çox çətinliklə də olsa məhkəmə əməkdaşlarından birindən öyrəndim ki, proses binanın ikinci mərtəbəsində 36 nömrəli salonda, saat 14.30-da başlanacaq. Əslində səfirliyimizdən mənə verilən məlumatda yanlışlığa yol verilmişdi və qeyd olunmuşdu ki, proses saat 8.30 da başlanacaq. Doğrusu hələ vaxta xeyli qaldığına sevindim. Ancaq eyni zamanda səfirliyimizin belə qeyri- dəqiq məlumat verməsinə təəssüfləndim. Prosesə hələ xeyli vaxt qaldığı üçün otel xidmətçisindən Budapeştin bir plan-xəritəsini alıb şəhərlə tanış olmaq qərarına gəldim. Dunay çayının sahillərini gəzdikcə Ramil Səfərovla necə görüşəcəyimi təsəvvürümdə canlandırmağa çalışırdım. Taleyin işinə bax ki, həmin gün Dunay çayı daşmışdı. Mən xəyallar içərisində ikən qəflətən qarşıma bir park çıxdı. Parkdakı abidə isə diqqətimi dərhal cəlb elədi. Yaxınlaşıb diqqətlə baxdım və şaşırdım. Bu abidə ermənilərin Avropanın bir sıra şəhərlərində olduğu kimi Budapeşt şəhərində də qondarma soyqırım ilə bağlı yapdıqları bir abidə idi. Mənim nitqim tutulmuşdu. Daxili bir narahatlıq, bir həyəcan qəlbimi sarmışdı. Ramil Səfərovun məhkəməsi ilə bağlı kədərli düşüncələrə dalmışdım. Ermənilərin bu bayağı abidəsi məni çox dərin suallara qərq etmişdi. Artıq başa düşmüşdüm ki, Budapeşt məhkəməsi Ramil Səfərovun xeyrinə olmayacaq. Ən azı ona görə ki, Budapeşt kimi şəhərdə, özü də məhkəmə prosesinin keçirildiyi binanın qarşısında soyqırım abidəsi qoymağa macal tapmış ermənilərin məhkəməyə də yol tapdıqlarına inandım. Hadisələrin sonrakı axarı isə mənim bu mənada nə qədər haqlı olduğumu sübuta yetirdi. Ramil Səfərovun məhkəmə prosesinin nəticəsi isə artıq bütün dünyaya məlumdur.

*iyun, 2006-cı il*

## ARTIQ BU İŞİN YOLUNU ÇÖZMƏLİYİK

**Əziz həmvətənlərim, yazımın başlığında qeyd etdiyim kimi bu işin həllinə artıq qərar verməliyik. Söhbət Azərbaycan- Ermənistan və Türkiyə- Ermənistan məsələsindən gedir. Ermənilər günbəgün fəaliyyətlərini artırır və elə bir gün olmur ki, erməni məsələsi ilə bağlı bir söz eşitməyək. Qəzetimizin bu sayında da məhz bu məsələ gündəmə gətirilib və bu məsələ artıq qlobal hal alıb.**

Orta Asiyada və ya digər bölgələrdə baş verən proseslər suallar doğurur: İranla Amerika arasında konflikt meydana gələrsə, biz nə etməliyik? Güney Azərbaycanda yaşayan soydaşlarımızın aqibəti nə olacaq? Yaxud son zamanlar Güney Azərbaycan sərhədlərində hərəkətlənən PKK terror qrupunun fəaliyyətləri ilə bağlı İranın mövqeyi necədir? Türkiyə və ya Azərbaycan yaranmış situasiyada hansı addımları atmalıdır?

Bu suallar işin əsas tərəfidir. Lakin, bu işin birinci qədər də ciddi və düşündürücü olan digər tərəfi də var. Gözünü pul qazanmaq ehtirası örtmüş və bu arzu ilə yaşayan, özünü türk sayan, amma türklüklə əlaqəsi olmayan bəzi insanlar və ya siyasətçilər açıqlamalarında və ya təşkil etdikləri toplantılarda qardaş Türkiyənin başda Kars şəhəri olmaqla, İğdır və o bölgədə olan digər türk şəhərlərinin Ermənistanla sərhədlərinin açılmasını tez-tez dilə gətirirlər. Onlar bununla da öncə qanını əmdikləri Naxçıvandan sonra, indi də bu bölgələr vasitəsilə ciblərini doldurmaq niyyətindədirlər. Buna ən gözəl cavabı bu günlərdə birinci konqresini təşkil edən İstanbul Azərbaycanlılarının Dayanışma Dərnəyinin rəhbəri, dəyərli ağabəyimiz Timur Selçuk öz nitqində verdi. Onun çox sərt bir tərzdə dediyi bu sözləri biz bir az yumşaq şəkildə sizə çatdırmağı məsləhət bildik. Əslində bütün türklərin ürəyində olan arzunu Timur bəy belə ifadə etdi: "Ermənistan nə zamana qədər Qarabağdan çəkilməyib, nə zamana kimi işğal etdiyi torpaqları tərk etməyib, Türkiyə Emənistan sərhədlərinin açılmasını istəyən hər bir insan bizim düşmənimizdir".

Bəli, çox doğru və gözəl bir açıqlamadır. Bizlər də «Belçika Azərbaycan Evi"» və «Euro Xəbər»" qəzeti olaraq bu sözün arxasında olduğumuzu bildiririk. Türk dünyasına uzanan əl kimdən gəlirsə gəlsin, kimin əli olursa olsun, qırılmalıdır!

Ulu öndərin doğum günü ərəfəsində onun bir vaxtlar dediyi sözləri bir daha xatırlatmaq yerinə düşərdi: "Gedək müharibə edək, savaşaq və torpaqlarımızı azad edək, ya da məhv olaq! Müharibə edək! Bizim xalqımızda artıq müharibə əhval-rühiyyəsi yaranır"».

Bu sözlərə əlavə ediləcək heç bir şey yoxdur, hər şey aydındır. Səni ürəkdən salamlayırıq Ulu Öndər!

*28 aprel, 2006-cı il*

## SOYQIRIM

**Bəli, Soyqırım-çox gec qaldığımız tarixi bir gerçək. Qəzetimizin birinci səhifəsində belə bir təklif irəli sürmüşük ki, (bu təklif diaspordan gələn təklifdir) çox gecikmiş olsaq da, gələcək nəslimizə öz doğma torpaqları içərisində xalqına dəfələrlə törədilmiş soyqırımı göstərmək məqsədilə «Soyqırım Muzeyi» yaradılması zəruridir.**

Dünyada elə dövlətlər var ki, onlar soyqırıma məruz qalmadıqları halda özlərinin tarixi muzeylərini yaratmışlar. Amma hər zaman əziyyət içərisində olan bir xalq kimi bizlərin, indiyə qədər soyqırım muzeyi yaratmaması çox qəribədir.

Məhz bu səbəbdən bir diaspor təşkilatı olaraq dövlətimizin əlaqədar şəxslərindən bu işin tezliklə başladılmasını və XVIII əsrin əvvəllərindən Azərbaycan türklərinə qarşı dəfələrlə törədilmiş soyqırımları, öz doğma torpaqlarından didərgin salınmış bütün soyumuzu nəzərə alaraq «Soyqırım Muzeyi»nin yaradılması üçün şərait yaradılmasını xahiş edirik. Çünki «Soyqırım Muzeyi»nin yaradılması gələcək nəsillərin öz keçmişimizdən xəbərdar olmalarında böyük rol oynayacaq və eyni zamanda ölkəmizə səyahət edən xarici qonaqların bu muzeyi gəzərək azərbaycanlıların gerçək tarixləri ilə tanış olmaq imkanları yaranacaq.

Qəzetimizin birinci səhifəsində digər bir tarixi hadisə işıqlandırılıb. Çox qəribədir ki, biz öz tariximizə diqqət göstərmədiyimiz kimi, ölkəmizdə yaşayan digər xalqların da tarixlərinə nəzər yetirmirik. Buyurun, Azərbaycan torpaqlarında yaşayan yəhudi icmasının prezidentimizə yazdığı bir müraciətində 1918-1919-cu illərdə azərbaycanlılara qarşı erməni daşnakları və rusların birlikdə törətdikləri soyqırımda təxminən 3000 yəhudinin də qətlə yetirildiyi, bunun faktlar əsasında sübut olunduğu və bu haqda araşdırmaların davam etdirildiyi bildirilir. Yəhudi icması üzvləri prezidentimizdən yəhudilərin ən çox məskunlaşdıqları Quba şəhərində abidə ucadılmasını xahiş ediblər.

Yəhudilər əsrlərdir bizimlə bir qardaş kimi uyum içərisində yaşayırlar və onların bu istəyi çox dəyərli və önəmlidir. Amma yəhudi dostlarımızdan mənim acizanə bir xahişim var. Məktublarını çox bəyəndim, istəklərini də çox gözəl anladıblar. Onlar eyni zamanda azərbaycanlılarla birlikdə onlara edilən zülmü də gözəl işıqlandırıblar. Ancaq bunu törədənlərin adlarını çəkməyi unudublar və ya demək istəməyiblər. Və həmin insanların adını sadəcə «quldur» sözü ilə əvəz ediblər.

Üzümü yəhudi icmasındakı qardaşlarımıza tutub deyirəm:-Belə olmaz axı, lütfən quldurların adını deyin!

*16 may, 2006-cı il*

## DƏRDİM ÇOXDUR, HANSINA YANIM?!

**Adətən dərdim çoxdur deyəndə "Allah dərd verməsin, nə olub?"- deyə soruşarlar. Dərdli adam da başlayar dərdini anlatmağa. Mənim də dərdim çoxdur, amma hansından başlayım heç bilmirəm.**

*Elə bir gün olmur ki, türk dünyasının başına bir bəla gəlməsin. Əsrlər il*lərə, illər aylara, aylar günlərə, günlər isə saatlara dönüb və türk dünyasında saatbasaat hadisələr baş verir. Hətta bu hadisələrin sayı o qədər çoxdur ki, onları izləmək belə mümkün deyil. Qəzetimiz ayda iki dəfə çıxdığı üçün bütün bu hadisələri operativ olaraq, vaxtında oxuculara çatdırmaq heç cür mümkün olmur. Baxmayaraq ki, Azərbaycanda yüzlərlə gündəlik qəzet çıxır (əgər qəzet çıxarmaq deyilirsə buna!), bizim gündəliyə keçməyə imkanımız yoxdur. Çox düşündükdən sonra dünyada baş verən hadisələri sizlərə təqdim etmək üçün internet versiyamızı yaratmağa qərar verdik. Artıq bir aydır ki, www.euxeber.com saytında oxucularımız qəzetimizi PDF formatında əldə etmək imkanına malikdirlər. Artıq saytımızda gündəmdə olan məsələləri izləmək imkanı vardır. Biz də öz növbəmizdə gündəlik hadisələrə öz münasibətimizi bildirib, dünyanın dörd bir yanındakı həmvətənlərimizə çatdırmağa çalışırıq. Buna misal olaraq, son həftə ərzində baş verən hadisələrin qısa xronikasına nəzər salmaq yerinə düşər:

1. Bakıda keçirilən regionlar üzrə əməkdaşlıq toplantısında iştirak edən İran prezidenti Azərbaycan mətbuatına verdiyi müsahibədə Qarabağ məsələsinə İranın hər iki dövlətin, Azərbaycan və Ermənistanın çıxarlarını nəzərə alaraq həllindən yana olduğunu deyib. Bu sözlər Təbrizdə baş verən hadisələrin xəbərçisi olduğu gizlədilməz bir həqiqətdir.

2. Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin kim-

sənin xəbəri olmadan Dünya Azərbaycanlıları Qurultayının sədr müavinliyinə 4 nəfərin seçildiyini açıqlaması isə gözlənilməz hadisədir. Bu açıqlamanın maraqlı tərəfi ondadır ki, sözügedən bu dörd nəfəri seçərkən Komitə onların fərdi bacarıqlarını, keyfiyyətlərini və Azərbaycana olan bağlılığını nəzərə almayıb. Bununla da Komitə diaspor işini təşkil etməyi bacarmadığını bir daha sübut etmiş oldu.

3. Ötən həftə Azərbaycanda yaşayan yəhudi icmasının bir qrup üzvü ölkə prezidentinə məktubla müraciət edib. Həmin məktubda yəhudilər bildiriblər ki, daşnak quldurlarının 1918-1919-cu illərdə Qubada qətlə yetirdikləri azərbaycanlıların arasında 3000 nəfər yəhudi də olub. Bu insanların xatirəsinin əbədiləşdirilməsinə ehtiyac olduğunu vurğulayan məktub müəllifləri onu da qeyd ediblər ki, bu hadisə xarici dövlətləri «insanlıq ayıbı» sayılan soyqırım məsələsinə, o cümlədən Xocalı ilə əlaqədar hadisələrə yeni gözlə baxmağa sövq etməlidir.

4. Ötən həftənin maraqlı olaylarından biri də "Belçika Azərbaycan Evi"nin iki ildən bəri üstündə işlədiyi «Avropa Gənclər Forumu» ideyasının Brüsseldəki səfirlik işçisi tərəfindən oğurlanaraq, qolu-qanadı sındırılmış bir halda, amma başqa formada yeni bir fikir kimi gündəmə gətirilməsidir. Bu hadisə bir daha göstərir ki, Azərbaycan diasporundan bixəbər olan səfirliklərimiz guya iş gördüklərini sübut etmək istəyirlər.

5. Ötən günün digər bir maraqlı hadisəsi Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin Dünya Azərbaycanlılarının ziyalılar toplantısını təşkil etməsi ilə bağlıdır. Amma bu ziyalılar toplantısına milli diasporumuzun təmsilçiləri əvəzinə, xaricdə yaşayan azərbaycanlı müğənnilərin dəvət edilməsi diqqəti cəlb edir. Əlbəttə, biz bununla müğənnilərimizin ziyalı olmadıqlarını demək fikrində deyilik və bu heç də belə başa düşülməməlidir. Söhbət xaricdəki Azərbaycan diasporundan gedir. Bu diasporun sözügedən toplantıda lazımi səviyyədə təmsil olunmaması isə XYAİDK-nin günahıdır.

6. Ötən həftənin ən yadda qalan və həmçinin bir qədər gözlənilməz təsir bağışlayan hadisələrindən biri də Azərbaycan tarixində ilk dəfə yüksək səviyyəli dövlət məmurunun öz xahişi ilə istefa ərizəsi yazmasıdır. Bu məmur açıqlamasında da elə beləcə deyib,-bəsdir daha, yoruldum. Gənclərin önünü açmaq lazımdır. Sağ əli digərlərinin başına, doğrusu bu çox təqdirə layiq bir haldır. Belə cəsarətli addımlar Azərbaycanın Avropaya inteqrasiya etdiyi bir dövrdə böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, rəhbər vəzifələrdə çalışanlar onlara ünvanlanan suallara və ya yazılanlara də tam səmimi və açıq cavab verəcəkləri zaman hər şey gözəl olacaq. Əsl demokratiya budur. Kifayətdir, çünki buna nəinki köşə yazım üçün nəzərdə tutulan yer, hətta qəzetimizin 16 səhifəsi belə yetməz.





*30 may, 2006-cı il*

## ANTALYADA NƏ OLDU?!

**Ziyalılar Forumu! Bəli, diasporun son yaradıcılığının adı belədir-Ziyalılar Forumu! Necə ki, 16 martda Dünya Azərbaycanlılarının II Qurultayında bizə söz verilmədi, bu Foruma da dəvətli deyildik. Bəs niyə bizə müəyyən iclaslarda söz verilmir? Niyə biz iclaslara dəvət olunmuruq? Bizə qarşı göstərilən bu münasibətin səbəbi nədir?**

Bu gün sizlərə mənim üçün maraqlı olan bir hadisəni anlatmağa çalışacağam. Birincisi, türklərdə çox gözəl bir söz var: "Doğru deyəni doqquz köydən qovarlar" (o da gedər onuncu köydə oturar). Bu sadəcə zarafatdır. Çünki mənim heç yerə getmək fikrim yoxdur. Hələ işim çoxdur, bu diasporumuz düz yola düşənə kimi mən heç yana gedəsi deyiləm.

Qayıdaq Antalyaya. Bəli, Antalyada sizə görə nə olub? Mənim fikrimcə heç nə olmayıb. Necə ki, keçdiyimiz illərdə Berlində Avropa Azərbaycanlılar Federasiyasında olan burda da olub. Yəni yenə də özümüz çalıb, özümüz oynadıq. Özü də bu dəfə bir az fərqliydi, çünki musiqiçilərimiz də ordaydı. Necə deyərlər "çalğı gözəl idi, mahnı da gözəl mahnıydı, ancaq oynayanlar düz seçilməmişdilər".

Nə isə söhbətdən çox yayınmayaq. Keçək əsas məsələyə. Bizə qarşı olan bu münasibətin əsas səbəblərindən biri də hər şeyi doğru üzə deməyimizdir. Çünki biz diaspor məsələsinə kiminsə ürəyinə xoş gələn sözlər işlədərək yanaşmırıq, türkün sözü-"yağ yaxmırıq". Yalnız və yalnız inandığımız doğruları deməklə davamızı yürüdürük, bizim dediklərimiz yüz minlərlə həmvətənlimizin ürəyindən keçən sözlərdir.

Bilirsiniz, bizi hələ dünyada tanımayan insanlar var, özü də çox yaxınımızda, tam burnumuzun ucunda, səfirliyimizin olduğu bir ölkədə, adını ermənilərə "çanaq tutmaqla" duyurmuş bir ölkədə-Fransada! Bəli, yanlış oxumadınız-Fransada! Qəzetimizin əməkdaşı Səidə xanım Fransanın güclü gənclər saytından biri olan **http:www3.france-jeunes.netlire-le-haut-karabakh-20610.htm** saytına Qarabağımızın haqq davası ilə əlaqəli fransız dilində məqalə göndərib. Gənclər məqalə ilə bağlı müxtəlif fikirlər bildiriblər. Onlardan biri isə çox maraqlı fikir bildirib: "Yazınız çox

maraqlıdır, amma keşkə Azərbaycan haqqında coğrafi məlumat versəydiniz, çünki mən Azərbaycanı tanımıram. Xahiş edirəm bir az mənə Azərbaycan haqqında məlumat verin".

Buyurun! Bunu Antalyada toplanan türk və Azərbaycan dərnəklərinin başqanlarına ithaf edirəm. Bu məsələni bir az yaxşı incələsinlər. Dünyanın hər yerində türk təşkilatları mövcuddur. Özü də bir yox, iki yox, üç yox, 100-150 təşkilat var. Elə bizim təşkilatımızın mərkəz ofisinin yerləşdiyi Belçikada da yuxarıda adları çəkilənlərdən də çoxdur. Ancaq 1915-ci il hadisələrini, Türkiyənin haqq davasını avropalılara hələ də anlada bilməyiblər. Baxmayaraq ki, onlar 1950-ci ildən (bu tarix Türklərin xaricə işləməyə getdiyi ildir) bu yana Avropadadırlar.

Biz bu gün Azərbaycan diasporunun hərəkətini bu təşkilatçılıq vasitəsilə xaricə çıxarmaq niyyətindəyik.

Qəzamız mübarək olsun, yolumuz açıq olsun! Yenə bir Türk deyimi ilə sözümü bitirirəm: "Hər kəs gedir Mərsinə, biz gedirik tərsinə". Mən də bunu çevirib demək istəyirəm: "Hər kəs gedir Avropaya, biz gedirik Antalyaya".

*14 iyun, 2006*

## HƏYAT ÇOX QƏRİBƏDİR

**Qəzetimizin bu sayında çox maraqlı məsələlərə toxunmuşuq. İstərdim bu məsələlərə birlikdə baxaq. Bilirsiniz, əlimizdə çox böyük imkan var. "Euro Xəbər" qəzeti günbəgün oxucu sayını artırır. Bunu redaksiyamıza, saytımıza yazılan məktublar, e-maillər, digər mətbuat nümunələrində, İnternet saytlarında bizim haqqımızda yazılanlar da sübut edir. Biz isə xalqımızın bizə olan inamına və dəstəyinə söykənirik. Daha doğrusu «Euro Xəbər» qəzeti olaraq oxucularımızdan güc alırıq və oxucularımıza güvənirik. Bu bizim yolumuzdur.**

Nədir bizim yolumuz? Yolumuz Haqq yoludur, Millət yoludur, Milli diaspor ruhudur, Böyük Azərbaycan ideyasıdır və Ulu Öndərimizin qurduğu yoldur.

Qəzetimizin bugünkü sayının üçüncü səhifəsində bir rəsm var. Türkiyə Müdafiə Nazirliyinin arixivlərindən götürülmüş bir rəsmdir. Düşündürücü və çox mənalı bir rəsmdir. Heç bir söz, izahat, şərh oxucularımıza anlatmaq istədiyimiz mövzunu bu şəkil qədər mənalı və aydın tərzdə anlada bilməz.

Bu əski rəsmdəki türk övladlarının şəkli bir vətən mücadiləsinin tarixidir. Vətənini sevən hər bir kəs bu şəklin önündə baş əyməlidir.

Bu şəkli böyük formada həm masamın üzərinə, həm də kompüterimin ekranına yerləşdirmişəm. Bu şəkil mənə güc, qüvvət verir. Mənəvi dayaq tapıram bu şəklə baxanda. Şəkli görəndən sonra daha tez-tez incimirəm, yanlışlıqlar məni üzmür. Milli diasporumuzun bu əlil gedişi mənə çox da təsir etmir. Qəribə bir enerji almağa başlamışam bu şəkildən, səbrli olmağı və mücadilədən usanmamağı aşılayır bu şəkil mənə.

Elə həmin səhifədə gənc əməkdaşımızın apardığı sorğu var. Həmin sorğunun qəribə nəticəsi də üzmədi məni, - «düzələr»,- dedim ürəyimdə. Sorğuda əksəriyyəti gənclər və universitet tələbələrindən ibarət 30 nəfər iştirak edib. İnternet saytımıza da 50 nəfər qatılıb. Nəticə gözlənilən kimi olsa da, verilən cavablar çox maraqlıdır. Məsələn, «sizcə, diasporumuz yetərincə təbliğat aparırmı?» sualına 70 faiz iştirakçı «yetərincə deyil» cavabını verib. Respondentlərin 70 faizi isə «diaspor qurumlarının son zamanlarda gördüyü tədbirləri necə dəyərləndirirsiniz? - sualına «xəbərim yoxdur» cavabını verib. Diasporla bağlı bütün bu cavablar çox maraqlıdır. Amma mən haqqında danışdığım bu bir cüt əsgərin şəklinə baxdıqca daha çox heyrətlənir, daha çox düşünür, xəyallara dalıram.

Qəzetimizin bu dəfəki sayının birinci səhifəsində isə daha maraqlı və mühüm bir məsələyə toxunmuşuq və bu mövzunu davam etdirəcəyik. Məsələ orasındadır ki, biz bir diaspor təşkilatı kimi üzümüzü Ulu Öndərimizin Fonduna tutmuşuq. O, Ulu Öndər ki, bizə, - xaricdə yaşayan azərbaycanlılara Azərbaycan tarixində heç kəsin göstərmədiyi qayğını göstərib. İndi isə Heydər Əliyev Fondu var və biz də onun qapısındayıq, yardım istəyirik. Biz hesab edirik ki, Ulu Öndər bu gün də bizimlədir. Nəzərləri bizə dikilib, bizim hər işimizlə maraqlanır. Bəli, bu bir xəyal, yaxud bir ilğım deyildir, bu bir həqiqətdir. İnanırıq ki, öz məcrasından çıxmış Azərbaycan diasporu yenə də Ulu Öndərin işığı ətrafına toplanacaq, ondan qüvvət, ilham alacaq. Milli diasporumuz öz gücünü birləşdirərək yer üzərində Azərbaycan boyda gücə çevriləcək.

*30 iyun, 2006*

## NASIL KEÇDİ SƏNƏLƏR...

**Budur, «Euro Xəbər» qəzetinin iki yaşı tamam oldu. Bu çətin, amma çətin olduğu qədər də şərəfli olan mətbuat aləmində tam iki ili yola saldıq. Bu gün isə bu tarixi hadisəni-iki yaşımızı bayram edirik. Etiraf**

**edim ki, geriyə boylanaraq, bu qısa zaman kəsiyində keçib gəldiyimiz yola nəzər salarkən, istər-istəməz bir qürur hissi duyuruq.**

Yolumuz çətin idi, çünki bizim bir diaspor təşkilatçısı kimi Azərbaycana gələrək burada qəzet buraxmaq fikrimizə əvvəlcə heç kəs inanmamışdı. Çoxları bir diaspor təşkilatının mətbu orqan nəşr edəcəyinə şübhə ilə yanaşırdı. Diaspor deyəndə hər kəs xaricdə yaşayan bir qrup azərbaycanlını nəzərdə tuturdu. Yəni diaspor xaricdə öz ölkəsini təmsil edən insanlardır vəssalam, bu qədər. Ancaq biz bu şübhələri qırdıq və problemə tamamilə yeni rakursdan yanaşdıq. Bizim nöqteyi-nəzərimizə görə diaspor xaricdə yalnız öz ölkəsini təmsil etməklə kifayətlənməyib, həm də yaşadığı ölkəni öz xalqına anlatmağa borclu olan bir təşkilatdır. Həmçinin hər bir diaspor üzvü öz həmvətənlərinin dünyaya gözünü açmalı, öz dövləti ilə başqa dövlətlər arasında əməkdaşlığın və ikitərəfli əlaqələrin yaranmasına və daha da inkişaf etməsinə hər vasitə ilə köməklik göstərməlidir.

Təsadüfi deyildir ki, bu gün iki yaşını qeyd etdiyimiz «Euro Xəbər» qəzeti Azərbaycanın media məkanında ilk diaspor qəzeti olaraq məhz bu ideyaların, bu məqsədlərin, bu amalların işığında yarandı və bu günə kimi də öz yoluna sadiq qaldı.

Onu da deyim ki, bu iki ildə nəyə nail olduqsa, məhz Siz oxucularımızın bizə olan sevgisi və inamı, xalqımızın bizə verdiyi dəstəyi sayəsində əldə etdik. Biz Sizlərə güvəndik, Mirzə Cəlil demişkən, - «Sizi deyib gəldik» və Sizlərdən güc aldıq. Siz oxucularımız isə bizə inanıb öz sıralarınıza qəbul etdiniz. Bu etimad, bu sevgi bizi daha da ruhlandırdı və məsuliyyət hissimizi artırdı. Biz bundan sonra da bu etimadı öz məqsədyönlü fəaliyyətimizlə doğrultmağa çalışacağıq.

Əlbəttə, tarixlə müqayisədə iki il çox kiçik bir zaman kəsiyidir. Lakin bu kiçik zaman ərzində də biz öz sözümüzü deyə bilmişik və İnşallah, bundan sonra da deyəcəyik. Bir diaspor qəzeti olaraq görmək istədiyimiz və həyata keçirməyə çalışdığımız işlər çoxdur. Bu yolda qarşımıza çıxan çətinliklər də çoxdur. Lakin bütün bu çətinliklərə baxmayaraq, qəzetimiz milli diasporumuzun inkişafı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, vətənimizin Avropaya inteqrasiyası yolunda daha böyük uğurlar əldə etməyə çalışır. Biz gələcəkdə də çalışacağıq ki, «Euro Xəbər» qəzeti dünyanın harasında yaşamasından asılı olmayaraq, 50 milyonluq Azərbaycanlının tribunasına çevrilsin.

Sevindirici haldır ki, qəzetimiz bu gün istər respublika daxilində, istərsə də xarici ölkələrdə müvəffəqiyyətlə yayımlanır və oxunur. Artıq qəzetimizin Türkiyənin gözəl guşəsi olan İğdırda da oxucuları var. Ankarada da oxucularımızla görüşmək imkanına nail olmuşuq. Qəzetimiz həmçinin, Belçikada, Avropanın paytaxtı sayılan Brüssel şəhərində də xeyli oxucu auditoriyası toplayıb. Artıq qəzetimizin İnternet saytı da mövcuddur. İndi avropalı soydaşlarımız və bütün oxucularımız "Euro Xəbər"i həm də internetdə, özü də PDF formasında oxuya bilir.

Göründüyü kimi, bu qısa müddətdə çox şərəfli bir yol keçib gəlmişik. Çalışacağıq ki, bundan sonra da vətənimizin və xalqımızın mənafeyinə ləyaqətlə xidmət edək.

Gözünüz aydın, əziz oxucularımız! «Euro Xəbər»in iki yaşı tamam oldu. Arzumuz budur ki, Sizlərlə çox-çox illər bundan sonra da birlikdə olaq. İki yaşı tamam olan qəzetimizin ərsəyə gəlməsində, hazırlanmasında və çapında əməyi olan hər kəsə öz dərin təşəkkürümü bildirirəm. Yaşa, "Euro Xəbər"! Nə yaxşı ki, sən varsan, nə yaxşı ki,bizi sevən oxucularımız var!

*20 iyul, 2006*

## BİLMƏM DESƏMMİ, DEMƏSƏMMİ?!

**Əziz həmvətənlərim, həm jurnalist, həm də diaspor təmsilçisi olmaq çox çətindir. İnanın, yazmaq, tənqid etmək heç də asan məsələ deyil. Amma, gəl ki, etməsən də, deməsən də həyat lap çətin olur və buna görə də bu iki yoldan birini seçmək məcburiyyətində qalırsan.**

Bu hal Avropada da mövcuddur. Məsələn, keçən il Brüsseldə qəzetimizin adından Avropa Birliyi press kartını almaq üçün müraciət etmişdim. Bir həftə sonra mənə cavab gəldi ki, sizin müraciətiniz qəbul olunmadı. Səbəbini soranda isə orada çalışan qadın,- siz diaspor təmsilçisisiniz, əgər sizə press kart versək, Avropa Birliyi daxilində lobbiçilik edəcəksiniz,- dedi.

Mənə qəribə gəldi bu cavab. Amma mənim bir qələm sahibi və gerçəkdən «Euro Xəbər» adlı bir qəzetin Baş redaktoru olduğumu bildikdən sonra mənə Avropa Birliyinin press kartını verdilər. Bir sözlə Avropanı özümə inandıra bildim. Lakin mənə təəccüblü gələn orasıdır ki, öz içimizdə, özümüz-özümüzü nədənsə hələ də bir çox problemlə bağlı məsələlərdə ortaq məxrəcə gəlməyin vacibliyinə inandıra bilməmişik. Şəxsən mən bir çoxlarını inandıra bilmirəm ki, biz-xaricdəki milli diasporumuzun təmsilçiləri vətənimizə vaxtında deyilmiş ən adi görünən, lakin böyük əhəmiyyət daşıyan bir kəlmə sözlə də xidmət edə bilərik. Təki, ürəyində, qəlbində, könlündə Və-

tən cşqi, yurd istəyi, doğma torpaq sevgisi olsun.

Bir tərəfdən yazdıqlarımıza, tənqidlərimizə dünyanın dörd bir yanındakı diasporumuzdan dəstək gəlir və onlar səsimizə səs verirlər, bizim milli diaspor qurumları ilə əlaqələr qururlar. Digər tərəfdən isə müəyyən qurum və təşkilatlar işlərimizə hər vasitə ilə əngəl törətməyə çalışır, bizi yolumuzdan döndərmək üçün əllərindən gələni edir, min oyundan çıxırlar. Türk qardaşlarımız buna "Əli -Cingiz oyunu" deyirlər. Amma mən buna nə deyim, bilmirəm. Əcaba, desəmmi yaxşı olar, yoxsa deməsəmmi? Bax, onu da bilmirəm!

Qəzetimizin əməkdaşı Cəlal müəllim mənim bu günə qədər yazdığım yazıları toplayaraq bir kitab şəklində çap etdirməyə hazırlayır. Keçən gün o, çapa hazırladığı məqalələrimdən bir neçəsini yenidən nəzərdən keçirmək üçün mənə göndərmişdi. Doğrusu nə vaxtsa yazdığım bu yazılar məni heyrətə saldı. Nələr yazmamışam, nələr deməmişəm ki!.. Əgər bu yazılarıma, orada dediklərimə xaricdəki diaspor təşkilatlarımız əməl etsəydilər, səsimə səs versəydilər indi dünyada tanınan çox güclü bir lobbimiz var idi. Digər tərəfdən isə həm də diaspor təşkilatlarımızın bir sıra problemləri çox asanlıqla öz həllini tapardı. Onu da deyim ki, məqalələrimdə milli diasporumuzun qayğı və problemləri ilə bağlı qaldırdığım məsələlər şəxsən mənim özümün bir diaspor rəhbəri kimi rastlaşdığım və yaşadığım həyat təcrübəmin məhsuludur. Yəni mənim dediklərimi bundan daha yaxşı demək əsla mümkün deyildir. Amma gəlin, bir anlığa da olsa keçilmiş yola nəzər salaq. Baxaq, görək nə dəyişib? Təəssüf ki, heç nə dəyişilməyib. Əksinə, bəlkə də getdikcə daha da pozulub. Hələ bu azmış kimi adımıza, işimizə, fəaliyyətimizə, milliyyətçiliyimizə, vətənsevərliyimizə, milli diasporumuzun inkişafı naminə gördüyümüz işlərə, türkçülüyümüzə və azərbaycançılığımıza, tarixi keçmişimizə, düşmən əlində olan qədim yurd yerlərimizə (İrəvan xanlığı, Zəngəzur.və sair) və bu yolda apardığımız mücadiləyə dodaq büzənlər, öz xalqına kömək etmək əvəzinə, əksinə, onun qarşısına tir diyirlədənlər də var.

Əziz oxucu, hansını deyim? Dünən meydana çıxan, hansı əqidəyə, məsləkə qulluq elədiyi məlum olmayan, vətən qayğısı, millət təəssübü çəkməyən, yalnız və yalnız öz mənafeyini düşünən və ailəsi üçün yaşayan insanların hansını deyim?!

Əlbəttə, mənim bu tənqidi qeydlərimi şəxsi-qərəzlik, intiqam hissi kimi qiymətləndirənlər, ***«Bülent Gürçam Prezident tərəfindən medalla təltif edilmədiyi üçün tənqid edir»*** - deyə fikirləşən düşüncə sahibləri də az deyil. Mənim belə insanlara yazığım gəlir, neyləyəsən ki,aramızda yabanı ot kimi bitən bələləri öz üzdəniraq hərəkətləri ilə düşmən dəyirmanına su tökürlər.

Hörmətli həmvətənlərim, mən ömrümün 25 ilini Avropada-Belçikanın paytaxtı Brüsseldə yaşamışam. Bu müddətdə bütün səylərimi milli diasporumuzun formalaşması və inkişafı işinə həsr etmişəm. Bəli, düz 25 il, yəni bir əsrin dörddə biri qədər keçən zaman ərzində Azərbaycan diasporunun yetişməsinə zəhmətlər sərf etmişəm. Mən bundan sonra da bu yolda, inandığım insanlarla birgə addımlamağı davam edəcəyəm.Bu yol mənim həyat yolum, bu yol mənim ömür yolum, bu yol mənim səadət yolum və nəhayət bu yol xalqımızın rifahı, millətimizin birliyi, xoşbəxtliyi, yoludur. Bu yolu Milli Liderimiz yaratdı. Yolumuz irəliyə, günəşli sabahlaradır.

*1 avqust, 2006-cı il.*





## *MÖVZU DƏRİN MÖVZUDUR, BİZ İŞİMİZDƏ OLAQ!*

**Nə yazım, nə anladım, nə deyim, bilmirəm. O qədər çox məsələ var ki, bilmirəm hansından başlayım. Bizim işimiz xaricdə yaşayan azərbaycanlılarla bağlıdır. Ümumiyyətlə, bütün yazılarımız hardan, nədən başlanırsa axırda mütləq buraya gəlib çıxır. Tətildə olmağıma baxmayaraq hər gün xaricdə yaşayan azərbaycanlılarla bağlı xəbərləri izləyirəm. Sanki xaricdəki azərbaycanlılarla baglı qurumlarımızda bir tərpəniş var, nəsə yeni qərarlar gözlənilir.**

Neçə ildir yazırdıq-pozurduq, sorurduq, elə bilirdik ki, kimsə bizi dinləmir. Amma son günlərdəki bu hərəkətlənmə həm haqlı olduğumuzu, həm də dinlənildiyimizi sübut etdi.

Bir müddət əvvəl həm XYAİDK-dən (Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi), həm də Prezident Aparatından gələn xəbər bizi çox sevindirdi. Lakin sevinməyə macal tapmamış istəyimiz yenə də ürəyimizdə qaldı. Çünki aldığımız xəbərə görə, xaricdə yaşayan azərbaycanlıların pasport məsələsinin nəhayət ki, həll olunacağı bildirilsə də söhbətin heç də bütün soydaşlarımıza aid olmadığı, yalnız azərbaycanlı olanlara şamil edildiyi məlum oldu. Yəni digər ölkələrdə anadan olmuş soydaşlarımızın azərbaycanlı hesab edilmədiyi bir daha rəsmi surətdə sübut olundu. Nə deyim, necə deyim, bilmirəm. Öz-özümə düşündüm ki, görəsən dünyada öz xalqına öz adını verməyən neçə ölkə var? Biz bütün məsələləri bir yana qoymuşuq,

əsas məsələmizə bir çarə tapa bilmirik. Bu suala kimsə cavab verə bilmir ki, biz öz insanımıza necə sahib çıxaq. 50 milyon insanımıza nə ad verək? Xalqımızı öz əlimizlə gör neçə parçaya bölmüşük: güneyli, quzeyli, qərbli, türkiyəli...

Adını nə qoyuruq qoyaq, dünyanın dörd bir yanında məskunlaşan 50 milyon insanın qəlbi məhz Azərbaycanla bir döyünür. Onlar yaşadıqları ölkədən asılı olmayaraq özlərini vahid Azərbaycan xalqının nümayəndəsi sayırlar. Şəxsən mən özümü hər zaman azərbaycanlı kimi təqdim etmişəm. Başqa cür də ola bilməz. 26 ildir ki, Belçikanın paytaxtı Brüsseldə yaşayıram və bu müddətdə milliyyətcə mənsubluğumu soruşanlara,- əslən azəriyəm,- demişəm (yəni pasportum türk pasportudur, əslən isə azəriyəm). Bu belə olub, belə də davam edəcək. Mən öz vətəndaşlıq vəzifəmi yerinə yetirirəm, cibimdə azəri pasportu olmasa da. Yadıma bir hadisə düşdü. Bunu hər yerdə danışmışam, indi sizlərə də demək istəyirəm, kim nə düşünür-düşünsün.

1978-1979-cu illər idi. İğdırda liseydə oxuyurdum. İlin sonu idi. Həm imtahanlara hazırlaşır, həm də məktəbin divar qəzetinin redaktoru olduğum üçün məqalələr yazır, qəzet tərtibatı ilə məşğul olurdum. O zaman mən həm də Türkiyənin məşhur qəzetlərindən olan "Son Həvadis" qəzetində İğdırın bölgə müxbiri kimi fəaliyyət göstərirdim. Məktəbdə son imtahan idi. Müəllimimiz də Türkiyənin başqa bir yerindən gəlmişdi (onsuz da müəllimlərin çoxu belədir). O, şagirdlərdən imtahan götürmək üçün sinfə girdi. Hamımız həyəcanlı idik. Müəllim üzünü bizə tutub dedi: «sizə bir sual verəcəyəm, onu kim tapsa 10 qiymət alacaq». Müəllim üzünü bizə tutub, «kim lövhəyə çıxıb, İstanbul ləhcəsi ilə danışa bilər?»,- deyə soruşdu. Bir nəfər də əlini qaldırmadı, müəllim hirslənib otaqdan çıxdı. Həssas oxucular yəqin ki, nə demək istədiyimi anladılar. Əgər başa düşməyənlər varsa redaksiyamıza, ya da mənim elektron poçtuma və ya telefonuma zəng vurub əlaqə saxlaya bilərlər.

*31 avqust, 2006-cı il*

# TARİXİ HADİSƏLƏRİ YAŞAMAQ ÇOX GÖZƏLDİR



**İnsanın gözəl hadisələri həyata keçirməsi, həmvətənləri üçün faydalı işlər görməsi və ya diaspor təşkilatçısı kimi vətən naminə həyata keçirilən işlərə imza atması, inanın, çox gözəl bir yaşantıdır. Biz "Belçika-Azərbaycan Evi" olaraq bu günə kimi çox layihələr həyata keçirdik. Bizim həyata keçirdiyimiz layihələrlə hər bir soydaşımız öyünə bilər. Mən özüm də dönüb geriyə baxanda bir azərbaycanlı kimi vətənim Azərbaycan üçün gördüyüm işlərimdən qürur duyuram.**

Hansını deyim, hansını misal çəkim? Ötən illər ərzində gördüyümüz işləri incələmək istəmirəm. Bu gün və önümüzdəki günlərlə bağlı danışmaq istəyirəm. Yaxşısı budur «Euro Xəbər» qəzetinin bugünkü sayına həsr edək söhbətimizi.

Qəzetimizin birinci səhifəsindən göründüyü kimi «Belçika-Azərbaycan Evi» diaspor təşkilatı dünya tarixinə yazılacaq bir layihəyə, Ağrı dağı ilə bağlı bir sənədə imza atdı. Soruşa bilərsiniz ki, Belçika hara, Ağrı dağı hara? Bəli, elə əsas məsələ də bundadır.Yaxşı deyiblər ki, könüllər bir olsa, qəlblərdə vətən sevgisi olsa heç bir dağ onun önündə tab gətirə bilməz. Necə ki, Ağrı dağı belə buna tab gətirmədi. Dünyanın ikinci, türk dünyasının isə yeganə yüksəkliyi olan, zirvəsindən yay- qış qar əskik olmayan, ermənilərin çoxdan bəri həsrət və heyranlıqla baxdıqları Ağrı dağı bu günlərdə türk dünyasının iki böyük insanının qüdrətinə boyun əydi.

Bəli, Ağrı dağı bu günə qədər olan nəhəngliyinə yenisini əlavə etdi. Bəlkə heç ermənilərin yuxusuna da girməzdi bu hadisə. Lakin diasporun gücü, Azərbaycan sevgisi və Ulu öndərimizə olan ehtiram bizi bu işi görməyə vadar etdi. Bu işdə böyük əməyi olan, başda gözəl İğdırımızdakı AKUD təşkilatının rəhbəri, dostumuz, Azərbaycan sevdalısı (gələcəkdə bu insanın digər işləri ilə də tanış edəcəyik sizi) Çoşqun Ulusa, iğdırlı alpinistlərə və sabiq bələdiyyə başçımız Orxan Ağırqayaya öz təşəkkürümü bildirmək istərdim. Bunu söyləməsəm olmaz.

Bu yaxınlarda şahidi olduğum digər bir maraqlı hadisə baş verdi. Bu hadisə ilə bağlı söz deməsəm dünyadan gözü açıq gedərəm.

Bakıda xaricdəki səfirlərimizin fəaliyyəti ilə bağlı toplantı keçirilirdi. Bu toplantıda deyiləcək, düşünüləcək, ağlanılacaq, ibrət dərsi alınacaq və dolayısıyla bugünkü Azərbaycanımızın xarici imicinə təsir edə biləcək bir situasiya yaranmışdı. Çox yaxından tanıdığım bəzi səfirlərimizi bu salonda gö-

rəndə onları öncə hansısa təşkilatdan gəlmiş sıravi vətəndaşlara oxşatdım. Amma üzlərinə daha diqqətlə nəzər saldıqdan sonra yaxşı tanıdığım səfirlərimiz olduqlarını anladım. Düşündüm ki, budur, mənim ata yurdumun, vətənimin xarici ölkələrdəki təmsilçiləri.

Səfirlərimiz möhtərəm Prezidentimizin çıxışını çox maraqla dinləyirdilər. Prezidentimiz isə onlara çox mənalı sözlər deyirdi. Mən səfirlərimizin sakit simalarına baxaraq düşünürdüm ki, görəsən bu səlahiyyət sahibi olan məmurlarımız prezidentin söylədiyi sözlərin mahiyyətini anlayırlarmı? Əlbəttə, bunu sadəcə zahiri baxışla müşahidə etmək çox çətin idi. Amma fikirləşirdim ki, görəsən səfirlərimiz geriyə qayıtdıqdan sonra, burada eşitdiklərini səfir olduqları ölkələrdə həyata keçirə biləcəklərmi? Əlbəttə, bu barədə qabaqcadan söz demək çətindir. Hər şeyi zaman özü göstərəcək. Amma daha bir məqamı da qeyd edim ki, cənab Prezident onlara daha öncə də xəbərdarlıq edibmiş. Amma yurdumun bu gözəl insanları bu tövsiyələrə əməl etməyiblər.

Maraqlıdır ki, səfirlərimiz qaçqınlarımızın yaşadıqları bölgələrə də gediblər (bir az gec olsa da). Əcəba, görəsən səfirlərimiz onlara nəsə bir vəd veriblərmi? (məsələn,- sizin problemlərinizi səfir olduğumuz ölkələrdəki dövlət və hökumət rəhbərlərinə, ictimai təşkilatlara, rəsmi qurumlara, mətbuata və sair çatdıracağıq. Axı biz səfirlər, siz qaçqınların 13 ildən bəri nə çəkdiyini çox yaxşı bilirik.) Bax belə!

Doğrusu səfirlərimizin qaçqınlarımıza nə vəd etdiklərini deyə bilmərəm, amma onu bilirəm ki, 15 ildə xaricdə çox az iş görmüşük. Çünki 15 ildə çox işlər görmək olardı. Di gəl ki, səfirlərimiz bu sahədə də vaxtı, zamanı fövtə veriblər. Vəssalam, budur həqiqət! Görəsən, qaçqınlarımız səlahiyyət sahibi olan məmurlarımıza «bizim daha 15 il gözləmək imkanımız var»,-desəydilər, səfirlərimiz onlara nə cavab verərdi?

*15 sentyabr, 2006-cı il*

## İŞİMİZ GETDİKCƏ ÇƏTİNLƏŞİR

**Bu günlərdə Bakıda xaricdəki diplomatlarımızın yığıncağı keçirildi. Ölkə Prezidenti diplomatik korpus nümayəndələrinin, səfirlik və**





**konsulluq əməkdaşlarının qarşısında çıxış edərək, Azərbaycanın xarici ölkələrdə istənilən səviyyədə tanıdılmamasını, bu işdə hələ də qüsur və çatışmazlıqların olduğunu önə çəkdi. Bu sahədə informasiya zəifliyini qeyd edən ölkə rəhbəri səfirlərimizin diqqətini çalışdıqları ölkələrdə Azərbaycanla bağlı təbliğat işinin, məlumat qıtlığının aşağı səviyyədə olmasına yönəltdi. O, səfirlərimizə bildirdi və tövsiyə etdi ki, tezliklə bu işdə əsaslı dönüş yaradılmalıdır. Prezident üzünü səfirlərimizə tutaraq birmənalı şəkildə qeyd etdi ki, «baxıram, yenə ölkəni tanıtma işini yerinə yetirə bilmirsiniz».**

Xaricdə yaşayan bir azərbaycanlı və diaspor təşkilatçısı kimi mənə elə gəldi ki, bu prezidentimizin son xəbərdarlığıdır. Bundan belə iş qalır səfirlərə. Bu iclasdan sonra səfirlərimiz KİV-lərdə sözü gedən mövzuda müəyyən açıqlamalar verdilər. Açıqlamaları dinləyərkən çox təəssüfləndim. Baxdım ki, səfirlər heç nəyi başa düşməyiblər. Yəni ölkəni necə tanıdacaqlarını bilmirlər. Mənə səfirlərin bu işdən çox da xəbərdar olmamaları təəccüblü görünmədi, çünki səfirlərimiz 13 ildə etmədikləri işi bir günün içərisində necə həyata keçirə bilərlər? Səfirlərimizin mətbuat açıqlamalarında və efirdəki çıxışlarında ən çox üstündə durduqları məsələ məhz informasiya qıtlığı idi. Yəni hər kəs bir sözün arxasında gizlənir ki, bizdə informasiya yoxdur. Heç kəs də soruşmur ki, siz hansı informasiyanı axtarırsınız?

İcazənizlə bu sualı mən boynuma götürür, bütün səfirlərimizdən birdən soruşuram və xahiş edirəm cavab versinlər:-Əcəba, siz hansı informasiyanı axtarırsınız? Mənə cavab verin, qəzetimizdə çap edək. Ölkədə bu sahədə səfərbərlik elan olunsun və biz də sizə lazım olan informasiyaları tapaq göndərək. Siz də başlayın öz işinizə, yəni cənab Prezidentin dediklərini həyata keçirməyə.

Biz qəzetimizdə bu problemlə bağlı söhbət açdıq və bu mövzunu davam etdirmək niyyətindəyik. Prezidentimizin informasiya hücümü ilə əlaqədar tövsiyəsinin ən ciddi izləyicisi olmağa qərar verdik. Bir diaspor təmsilçisi kimi "Belçika-Azərbaycan Evi" və onun orqanı olan "Euro Xəbər" qəzeti olaraq bu məsələni sonuna qədər təqib edəcəyik. Bu işdə hər kəsi bu məsələyə diqqətlə yanaşmağa dəvət edirik. Onların bu sahədəki fəaliyyətlərini qəzetimizdə işıqlandırmağa hazırıq. Görmədikləri ya da görə bilmədikləri işləri də siz oxucularımıza çatdırmağa söz veririk.

Gələk bu məsələnin əsas yerinə. Bizə görə bu məsələnin əsas yeri yəni bu məsələ barəsində ən məsul qurumlar ölkənin Xarici İşlər Nazirliyi ilə

Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsidir. Bəli, bu iki qurum qeyd olunan məsələnin əsas təqib yeri olmalıdır. Ancaq təəssüf ki, onlar da bu informasiyaların nədən ibarət olduğunu bilmirlər. Ancaq hər çətinliyə rəğmən bu informasiyanın nə olduğunu və necə yayılacağını bilən qurumlar var. Bəli, belə qurumlar dünyanın hər yerində var. Özü də illərdir ümidlə gözləyirlər ki, bir gün biri bizdən bunları istəyər. Bir gün kimlərinsə bizə müraciət edə biləcəyini nəzərə alaraq hazır vəziyyətdə gözləyirlər. Xaricdə yaşayan azərbaycanlılar bu işin əsasını təşkil edirlər. Bu barədə hər cür informasiya verməyə hazırdırlar. Təəssüf ki, maraqlanan yoxdur. Yazımın başlığından göründüyü kimi ona görə də işimiz getdikcə çətinləşir. Sualların cavabını tapa bilmirik. Digər tərəfdən isə cavabı bilənlər kimə üz tutacaqlarını bilmirlər. Allah köməyimiz olsun!

*3 oktyabr, 2006-cı il*

## *XARİCİ TƏŞKİLATLAR VƏ FEDERASİYA*

**Uzun illərin təşkilatçılıq təcrübəsi bizi istər-istəməz dünyadakı Azərbaycan diasporunun başladığı federasiya, qurultay, konqres məsələsinə bir qədər ehtiyatla yanaşmağa vadar eləyir. Çünki, bu böyük adlar altında fəaliyyət göstərən milli dərnəklərimiz və xırda təşkilatlarımız ya bu mövcud dairənin içərisinə girəcək, ya da bu diyardan bilmərrə çıxıb gedəcəklər. Nədir həyata keçirilsi məqsəd? Açığını deyim ki, bu məsələ Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yeni doktrinasıdır və onların fəaliyyət proqramıdır. Proqramın adı isə (bu mənim öz ideyamdır) «rahat oturma» proqramıdır. Yəni «məni əbəs yerə narahat etməyin, olar-olmaz işlər yapıb məni çətin vəziyyətə salmayın. Məndən bir şey istəməyin və tələb etməyin».**

Bəli, bu proqramın adı belədir. Əgər yadınızda varsa bundan iki il əvvəl Almaniyanın Berlin şəhərində Avropa azərbaycanlıları forumu keçirilmişdi. Elə o zaman da bu toplantıya nə biz dəvət olunmuşduq, nə də bizim kimi bir çox diaspor qurumlarımız. Soruşa bilərsiniz ki, nə üçün? Çox haqlı sualdır. Bu sualın cavabı isə çox sadədir. Çünki Komitə rəhbərləri başa düşürlər ki, bizləri belə toplantılara dəvət etmək onlara sərf eləmir. Atalar demişkən,





Ulu Öndər Heydər Əliyevlə unudulmaz görüş



Ömrün xoşbəxt anı
Prezident İlham Əliyev və Bülənt Gürçam



**Bir qrup diaspor nümayəndələri ilə Ümumilli liderin qəbulunda**



Dünya Gömrük Komitəsinin sədri Mişel Danet Fövqaladə Hallar Naziri Kəmaləddin Heydəriovun ziyarətində Bülent Gürçamla bir yerdə



ŞKTC prezidenti Mehmet Ali Təlat, ATİB rəhbəri Ahmet Erentok ilə




İzmirin Bornova şəhərində H.Əliyev parkının açılışında XYAİÜDK-nin sədri Nazim İbrahimovla



**Bülənt Gürçam xarici qonaqlarla AzTV-nin səhər proqramında**




**2005-ci ildə Beynəlxalq Universitetin hüquq fakültəsində dövlət imtahanı verərkən**



**B.Gürçam Belçika parlamentində**



Belçika parlamentinin sədri Arman de Bekerə
"Xocalı" kitabını təqdim edərkən



Brüsselin mərkəzi meydanlarından birində «Xocalı çadırı».



Biləsuvarda qaçqın soydaşlarla görüş



**«Euro Xəbər» qəzetinin ilk sayının çıxarılması**



**Naxçıvan şəhər icra başçısı Vüqar Səfərov tərəfindən Naxçıvana dəvət olunan Bülənt bəy, Heydər Əliyev muzeyini ziyarət edərkən**



Lənkəranda Uşaq evinə yardım apararkən



Macarıstanda Ramil Səfərovun məhkəməsi



Gənc jurnalist Bülent Gürçam (İğdır)



**Bülent Gürçam türk dünyası üçün göstərdiyi diaspor fəaliyyətinə görə Özbəkistanda mükafatlandırılarkən**




**Beynəlxalq konfransda gömrük rəisləri ilə**



**2000-ci ildə Naxçıvanda Tofiqin kirvəsi olarkən**



B.Gürçam və yaxın dostu Abbas Məmmədov Milli liderin hüzurunda



"Euro Xəbər" kollektivi Ulu öndəri ziyarət edərkən



B.Gurçam "Euro Xəbər" və "Belçika Azərbaycan Evi"nin Bakı ofisində qəzetin əməkdaşları ilə iclas keçirərkən



**Brüsseldə Dədə Qorqud abidəsinin açılışında**



## *Bülənt Gürçamın nəşr etdirdiyi kitablar, dərgilər və qəzetlər*



*Abid Tahirli*

GURBET

15 JANVIER 1986 Gurbet Gurbetçinin Gözü,Kulağı, Sesidir. Fiatı 10 bf N° 3

KAPADOKYA

BELÇİKADA'KI GENÇLİK YETKİLİLERE SORUYOR

« GENÇLİK YILINDA BİZİM İÇİN NE YAPILDI ? »

1985 GENÇLİK YILININ ARDINDAN

Gazeteniz GURBET'in Belçikada'ki büyük araştırması. Gençlik yılı neler getirdi neler götürdü. Gençlik yılı biterken gen çler ne dedi.

1986 Yılına girerken GENT

GENT'TEN BRÜKSELE GÖÇ

KISA

KISA

İŞ

GENÇLER

1986-cı il. Bülənt Gürçam Brüsseldə ilk türk qəzeti olan «Qürbət»i nəşr edir



EL BİLİRKİ SEN MENİMSEN
YURDUM YUVAM MESKENİMSEN
ANA DOĞMA VETENİMSEN
AYRILARMI GÖNÜL CANDAN
AZERBEYCAN * AZERBEYCAN

AZERBEYCAN "VETEN" CEMİYETİNİN EMEKCİSİ
ABİD TAHİRLİ İLE YAPACAĞIMIZ AZERBEYCAN

DOSLUK VE DAYANIŞMA GECESİNE
TÜM ARKADAŞLAR DAVETLİDİR

TOPLANTI
10-11-1989 DA.
SAAT 18^00 ile 20^00 Arası.
YER: CAFE KAFKAS
CH. MERCHTEM 106.
1080 BXL.

HAZIRLAYAN
BÜLENT GÜRÇAM

1989-cu il. Bülənt Gürçam Brüsseldə «Azərbaycan Dostluq və Dayanışma» gecəsini təşkil edir



mensuel N°:1 **VETEN** juillet 1992

«Pays Des Feux Perpétuels»

NOTRE PREMIERE EDITION
EN BELGIQUE
AVEC LA LIBERTEE

Chers Lecteurs !

Depuis peu, l'Azerbaïdjan est devenu indépendant (ancien républi-de Union Soviètique) .Pourquoi quelques Azéris ont mis sur pied à Molenbeek une association culturelle nommée l'Azéri. Il y a en effet une cinquantaine de familles azéris qui vivent à Bruxelles et d'autres encore qui résident en Flandres et en Wallonie.

Cette association poursuit principalement deux buts.

D'une part, promouvoir la connaissance de l'Azerbaïdjan en sa culture en Belgique. D'abord, elle cherche à prendre contact avec tous les Azéris en Belgique pour établir des relations amicales et entretenir les traditions. Elle veut également entamer des échanges culturels avec les Belges en donnant toute information utile aux intéressés. Cela peut être une fête bi-culturelle ou des idées pour aller en vacances en Azerbaïdjan.

D'autre part l'association veut venir en aide de son pays d'origine. Elle voudrait organiser des stages pour les étudiants azéris qui souhaiteraient apprendre la vie sociale et économique en Belgique. Les Azéris désirent en effet prendre l'avenir de leur pays en main, et de tels stages peuvent les y aider. Dans les domaines du tourisme, des finances, d'extraction, ... il reste encore beaucoup à faire.

Si vous vous intéressez à la culture azérie ou à l'Azerbaïdjan n'hésitez pas de prendre contact avec notre association. Notre coordonnés sont :

Maison Culturelle D'Azerbaidjan ...

"Vətən" qəzetinin nəşri. 1992-ci il. Brüssel.

# AZERBAYCAN Kültür ve İnformasyon DERGİSİ

AYLIK DERGİ
OCAK 2000
SAYI : 1
ÜCRETSİZ

MENSUEL
JANVIER 2000
NO : 1
GRATUIT

A.K.İ.M
Azerbaycan Kültür ve İnformasyon Merkezi

CENTRE CULTURELLE ET D'INFORMATION AZERBAIDJANAIS A.S.B.L. / CULTUREEL EN INFORMATIE CENTRUM [illegible]

## Azerbaycan Kültür ve İnformasyon Merkezi Hizmete Başladı !




Azerbaycan Kültür ve İnformasyon Merkezi Brüksel-de faaliyetlerine başladı. Dernek olarak zaten kurulu olan merkezimiz 20.10.99 da yeni yönetim kurulunu [illegible] hemşehrilerimize ve Azeri-Belçika dostluğuna daha faydalı olabilmek amacıyla yeniden canlandı. Bu arada Sayın Azerbaycan Büyükelçisi Mir Hamza Efendiyev ve Sayın Niyazi Kızıldağ'ın istekleri üzerine gerçekleşti. Toplantı neticesinde Bülent Gürçam (Başkan), Mehmet Yıldız (2. Başkan), Murat Aydın, Ayhan Demirel, Zafer Aydın, Seyid Cafer Vahdani ve Volkan Ağbaba yönetim kurulu üyeliklerine seçildiler.

faaliyetlerine 8.10.99 da Brüksel'e bir davet üzerine gelen 11 Azeri gazetesinin yöneticileriyle yemekli bir toplantı düzenlemekle başlayan yönetim kurulu, 20.10.99 da Belçika resmi makamları nezdinde gerekli kuruluş ve tescil işlemlerini de tamamladıktan sonra Sayın Büyükelçi Mir Hamza Efendiyev tarafından kabul edilmiştir. Yapılan görüşme somut faaliyet kararları alınmasını sağlamış ve bu sayede yönetim kurulu üyeleri Sayın Büyükelçinin dernek çalışmalarının geleceği hakkındaki değerli görüş ve tavsiyelerini öğrenmişlerdir.

... Devamı Sayfa 2'de...

## Karabağlı Mültecilere Yardım Kampanyası !



Kıymetli Hemşehrilerimizin dikkatine,

Uzun yıllardan beri, kendi topraklarından kovularak, çok kötü şartlar altında yaşamaya mecbur bırakılmış Karabağ Mültecilerine mübarek Ramazan ayı münasebetiyle ve ayrıca yoğun kış şartları altında verdikleri yaşam mücadelesini biraz olsun hafifletmek amacıyla cemiyetimizin başlattığı GİYİM EŞYALARI TOPLAMA Kampanyasına hepinizi davet ediyoruz. Topladığınız eşyaları bizzat getirebileceğiniz gibi gerekirse telefon ederek aldırabilirsiniz.

Yardımlar Molenbeek'teki Cami Lokalimize şahsen getirilip teslim edilebilir.

Bilgi için : GSM 075.70 65 89 veya 02.241.74.64 nolu telefondan arayabilirsiniz.

Dernek Yönetim Kurulu

2000-ci il. "Azərbaycan kültür və informasiya" dərgisinin nəşri



# DEDE KORKUT
# DEDE QORQUD
# DEDE GORGOUD

Depuis des temps très éloignés Kitabi Dede Gorgoud nous parle de la vie et de la mort,de la fidéélite et de la trahison,de l'amour et de la haine,du bien et du mal.Les générations et les époques ont passé mais les paroles de Dédé Gorgoud ont gardé leur sagesse historique,leur vivacité et leur fraicheur.

Since the ancient times « Kitabi Dede Gorgud(The Book of Father Gorgud) used to tell of life and death,devotion and betrayal,bravery and cowardness,virtue and evil.Generations and epochs have replaced each other,but the words »Dede Gorgud esed to say,let's see, what he used to say my khan »,were uttered,always retaining their usual wisdom and usual freshness.

15/03/2004
Bruxelles

**Maison d'Azerbaidjan**

2004-cü il. "Belçika-Azərbaycan Evi"
Brüsseldə "Dədə Qorqud" dərgisini dərc edir




**2005-ci ildən etibarən "Belçika-Azərbaycan Evi" hər il Brüsseldə Xocalı qətliamının ildönümü münasibətilə "Genocide" dərgisini nəşr edir**




**2004-cü il. "Euro Xəbər" qəzetinin nəşri**




2006-cı il. Belçika Azərbaycan Evi fransız dilində
"Azərbaycan Milli Mətbəxi" adlı kitab nəşr etdirir




2008-ci ildə Bülent Gürçamın müəllifi olduğu "Əsir torpaq Qarabağ" kitabı nəşr edilmişdir!




2007-ci ildən çıxan "I am in Baku" reklam kitabçası bu gün də öz nəşrini davam etdirir



Atası Fərman Gürçam ilə Naxçıvanda Əshabul-Kəfi ziyarət edərkən




Atası Fərman Gürçamın doğum yeri olan Canfida kəndi

çünki «torbada pişik var».

Bu da bir həqiqətdir ki, əgər bizlər Komitənin belə toplantılarında iştirak etsəydik, o zaman hökmən görülmüş işlər barədə hesabat tələb edəcəkdik, qayğı və problemlərimizdən danışacaqdıq, öz narahatçılığımızı bildirəcəkdik, Avropa ölkələrində yaşayan azərbaycanlıların çarəsizliyini dilə gətirəcəkdik, sənəd, kitab, buklet, broşura, bayraq kimi təbliğat vasitələri əldə etməyin çətinliyini, bütün bu işləri öz şəxsi maddi vəsaitimiz hesabına və təmənnasız olaraq vətən və xalq naminə həyata keçirdiyimizi bildirəcəkdik. Bax, elə bu səbəbdəndir ki, Komitə bizləri belə toplantılara dəvət etmək istəmir.

Əslində Komitənin keçirdiyi belə tədbirlərdə çıxış edənlərə ehtiyac yoxdur və heç lazım da deyil. Burada ancaq oturub-duran, beş ulduzlu otellərdə dincəlib ləzzət alan və Komitəyə «ləbbeyk» deyən, boş vədlərə qulaq asaraq, sonra da çıxıb gedən adamlar lazımdır. Belə adamlar isə Azərbaycan diasporunun içərisində az olduğundan onları başqa yerlərdən tapıb gətirmək lazım gəlir. Yəni sözün qısası, belə işlər üçün təzə və nabələd adamlar tapmaq lazımdır ki, əlinə nə versən, çıxıb onu oxusun, bir də Komitə rəhbərliyinə yerli-yersiz tərifli, gözəl, ürəyəyatan sözlər söyləyib «bəh-bəh» desin. Zalda isə bütün bu işlərdən xəbərsiz olan bir ovuc insan bütün bu yalan və boğazdan yuxarı deyilmiş, quru, ucuz və mədddah sözlərə çəpik çalıb alqışlasınlar. Təki ad olsun ki, Komitə (XYAİDK) «toplantı» keçirib. Bəh-bəh əcəb «gözəldir». Belə hadisələri görəndə düşünürəm ki, Allah sonunu xeyir eləsin! Bəzən də düşünürəm ki, Komitənin keçirdiyi belə toplantılarda İslam dininin müqəddəs kitabı olan mübarək «QURANİ KƏRİM»dən ayələr və surələr də oxumaq olar. Çünki diasporla bağlı işlərimiz ALLAHA qalıb.

Məsələn, Almaniyada təsis olunmuş «Almaniya Azərbaycanlıları Federasiyası» artıq üçüncü ildir ki, fəaliyyət göstərir. Ancaq bu müddət ərzində bu qurum bir iş görməyib. Bu barədə bizlər də bir şey eşitməmişik. Dünya Azərbaycanlıları qurultayı, Antalya Ziyalılar Forumu və digər bir sıra qurumların rəhbərləri də öz çıxışlarında ağız dolusu vəd versələr də sonradan heç bir nəticə hasil olmayıb.

Federasiyadan söz düşmüşkən onu da qeyd edim ki, hər kəs bu sözü geninə-boluna işlədir. Əslində isə federasiya sözünün mənası latınca olub, ittifaq, birlik deməkdir. Bizim işimiz bu mənada çox asandır, əgər özümüzü çətinliyə salmasaq. Yəni dünyanın dörd bir tərəfinə səpələnmiş kiçik təşkilatlarımızı bərpa edərək, onlara güc vermək, imkan vermək lazımdır ki, onlar yaşadıqları ölkələrdə Azərbaycanın tanıdılması üçün səmərəli və məqsədyönlü şəkildə fəaliyyət göstərsinlər.

Konqres, qurultay, federasiya adları bizim üçün çox dəbdəbəli səslənir.

Ən böyük problemimiz orasındadır ki, bir-birimizi öyrənmədən, diaspor və lobbiçilik işini bilmədən, bu sahədə dünya xalqlarının qabaqcıl təcrübəsini mənimsəmədən heç nəyə nail ola bilmərik. Hərə bir təşkilat yapıb adını çox gurultulu səslənən federasiya, konqres, assosiasiya qoymaqla, yekəxanalıq, siyasi ədabazlıq nümayiş etdirir. Bunun isə nə vətənə, nə də xalqa heç bir faydası yoxdur. Bu ona bənzəyir ki, uşağa iməkləməzdən əvvəl, yeriməyi öyrədəsən. Təkrar etməyi lazım bilirəm ki, böyük diaspor təşkilatlarımızın (bunların yalnız adı böyükdür) lüzumsuz və lazımsız işlərə xərclədikləri ətək-ətək pulların heç olmasa bir faizini kiçik diaspor təşkilatlarına verməklə onları daha böyük işlər görməyə həvəsləndirmək olar. Şəxsən bizim «Belçika Azərbaycan evi» belə faydalı işlər görməyə hər zaman hazırdır və görür də.

Yeri gəlmişkən deyim ki, ötən həftə Hollandiyadakı təşkilat rəhbərlərimiz bizi ziyarət etməyə gəlmişdilər. Elə bu yazını da həmin səbəbdən yazıram. Onlar da fikirləşib belə qərara gəliblər ki, Benilüksdə bir federasiya yaratsınlar. Mən bu məqalədə yazdıqlarımı onlara da dedim. Məlumdur ki, hazırda fəaliyyət göstərən «Belçika-Azərbaycan Evi» 160 nəfər üzvü, yüzlərlə təəssübkeşi, müstəqil yayım orqanı, qəzeti, Azərbaycanın paytaxtı Bakıda ofisi, güclü təbliğat, təşviqat və təşkilat potensialı olan, habelə öz ətrafında peşəkar mütəxəssisləri, demokratik ruhlu ziyalıları toplamış güclü və nüfuzlu bir diaspor qurumudur.

Onu da qeyd edim ki, təşkilatın Bakı ofisində indiyədək bir sıra layihələr həyata keçirilib. «Belçika-Azərbaycan Evi» xalqımızın milli bayramları olan Qurban, Ramazan, Novruz bayramlarında gözəl tədbirlər həyata keçirmiş, qurbanlar kəsmiş, bölgələrə səfərlər təşkil etmişdir.

«Euro Xəbər» qəzeti redaksiyası Ulu öndərin xatirəsinə və Bakı-Ceyhan neft kəmərinə həsr olunmuş rəsm müsabiqəsi keçirmiş, qaliblərə mükafatlar təqdim etmiş, internet saytı açmış, Xocalı faciəsi ilə bağlı xüsusi çadır qurmuş, buklet çap edərək Avropada paylamış, Brüsseldə Dədə Qorqudun abidəsini qoymuş, Azərbaycanda ilk dəfə olaraq mayın 30-da «Qonşular bayramı» təşkil etmiş və digər yaddaqalan tədbirlər həyata keçirmişdir.

Şəxsən mən özüm bir baş redaktor kimi Macarıstana gedərək həmyerlimiz Ramil Səfərovun məhkəmə prosesində iştirak etmiş və bu barədə məqalələr çap etdirmişəm. Bundan əlavə «Euro Xəbər» qəzetində daimi olaraq ingilis və fransız dillərində «KARABAKH» adlı ekskluziv səhifə açmış, Azərbaycanın milli adət və ənənələrinin, o cümlədən milli mətbəximizin Avropada tanınması üçün fransız dilində «Azərbaycanın milli mətbəxi» adlı kitab çap etdirməyi planlaşdırmışıq.

Elə ona görə də Hollandiyadan gələrək Federasiya yaratmaq istəyən





soydaşlarımıza məsləhət gördüm ki, bu qədər mənasız və fəaliyyəti bəlli olmayan çoxlu sayda təşkilat yaratmağa lüzum yoxdur. Bütün bunlar olsa-olsa bir siyasət oyunundan başqa bir şey deyildir. Bizim «Belçika Azərbaycan Evi» nin indiyədək öz şəxsi vəsaiti hesabına gördüyü işlərin heç yüzdə birini də adları çox gurultulu səslənən böyük-böyük qurumlar həyata keçirməyiblər. Məsələ orasındadır ki, indiki zamanda milli diasporumuzu inkişaf etdirmək istəyiriksə, bizlər kəmiyyət barədə deyil, keyfiyyət barədə düşünməliyik. Bizim heç vaxt dəyişməyən və dəyişməyəcək yolumuz və məqsədimiz budur. Bu yolda kim bizimlə bir sırada olmaq istəyirsə buyursun, gəlsin. Qapılarımız üzünüzə açıqdır!

*18 oktyabr, 2006-cı il*

## *ERMƏNİSTAN VƏ FİRƏNGİSTAN*

**Şeytana uydumu, uymadımı bilmirəm, amma özünü mədəniyyətlər diyarı sayan, dünyaya mədəniyyətin özlərindən gəldiyini qəbul etdirməyə çalışan Fransa (Firəngistan) çox mədəniyyətsiz bir hərəkətlə öz xalqının özgürlüyünə xələl gətirdi.**

Qərar öz xalqı tərəfindən də böyük təpki aldığına görə Fransa hökuməti əvvəlki mövqeyini 180 dərəcə dəyişmək istəsə də əli heç yana yetmədiyindən məsələ düyünə düşdü. Dünya bütün diqqətini Fransaya çevirdi. Buna baxmayaraq bu mədəniyyətlər diyarı heyrətlər içində öz ayıbını gizlətdi. Bəs sonu nə olacaq?

Bizə görə Fransa (Firəngistan) özü-özünü vurdu. İllərdən bəri ermənilərin əlində oyuncaq olduğunu başa düşdü. Biz nə edirdiksə başa sala bilmirdik. Lakin Fransa öz-özünü başa saldı və necə deyərlər, özünü ən zəif yerindən vurdu.

Bu olay həm də Türkiyənin çoxdan bəri göstərdiyi susqunluğunu pozdu və bu ölkəni Fransaya qarşı tarixin ən sərt tədbirinə əl atmağa vadar etdi. Fransa (Firəngistan) artıq çıxılmaz bir yolda olduğunu başa düşdü və üzr istəməyin yollarını aramağa başladı.

Türkiyəmiz digər bir gözəl tədbir də həyata keçirdi. Gec də olsa ermənilərin xəyalı ilə yanıb-tutuşduqları Ağrı dağına bütün dünyanın gözünün içinə baxa-baxa məhdudiyyət qoydu. Bundan sonra ermənilər bu dağın üstündə

yerləşdiyini iddia etdikləri Nuh peyğəmbərin gəmisində «Gizlənqaç» oynaya, Türk dünyasının bu möhtəşəm dağı ilə istədikləri kimi davrana bilməyəcəklər. Çünki artıq Türkiyə çox ciddi tədbirlərə əl atdı. Biz də öz növbəmizdə boş dayanmadıq. Ortalığın qızışdığı günlərdə ermənilərin həyasızcasına oğurlamaq istədikləri mədəniyyətimizə və milli dəyərlərimizə sahib çıxıb, erməni quldurlarının torpaqlarımızdan sonra göz dikdikləri milli mətbəximizlə bağlı fransızca (Firəngistanca) «Azərbaycan Milli Mətbəxi» adlı nəfis şəkildə hazırlanmış bir kitab nəşr etdik. Bununla da ermənilərin özlərinə mal etmək istədikləri milli xörəklərimizin əslində əsrlər boyu bizə aid olduğunu avropalılara rəsmi olaraq sübut etdik.

Bu Azərbaycan diasporunun uğuru və qürurudur. «Belçika Azərbaycan Evi» və «Euro Xəbər» qəzetinin əməkdaşlarına, dostlarıma bu layihənin həyata keçirilməsində göstərdikləri köməyə görə təşəkkür edir və təbrik edirəm! Sağ olsunlar!

Bakıda olduğum bu müddətdə mətbuat konfransı ilə bu uğuru xalqımızla paylaşdıq və yeni layihələrimiz barədə açıqlamalar verdik.

*7 noyabr, 2006-cı il*

## CAVAD DERƏXTİ FENOMENİ

**DAK və ya Dünya Azərbaycanlıları Konqresi. Bu qurum bizim və ya bir təşkilatçı kimi təmsil etdiyim Azərbaycan diasporunun ən böyük problemlərindən biridir. Bu barədə çox yazdım, çox yol göstərdim və Cavad bəyin özünə çoxlu tənqidlər dedim. Atalar gözəl deyib «quyuya su tökməklə quyu dolmaz, gərək quyunun özündə də su olsun". Bəli, Cavad bəyin də hazırkı vəziyyəti belədir.**

Bu ilin əvvəlində Bakıda yığışmışdıq. DAK-ın da məclis üzvlərindən çoxunun iştirak etdiyi bu toplantıda adı çəkilən təşkilat ciddi tənqidlərə məruz qaldı. Sonda qərara alındı ki, DAK-ın bu il növbədənkənar qurultayı keçirilsin və həmin qurultayda bu təşkilat rəhbərlik və struktur baxımından yenidən təşkil olunsun. Əslində bu qurultayda çox ciddi dəyişikliklərin, o cümlədən rəhbərliyin yeniləşəcəyi gözlənilirdi. Qurultayın keçiriləcəyi yer isə Türkiyənin ürəyi olan İstanbul şəhəri və ya Avropanın paytaxtı Brüssel nəzərdə tutulmuşdu. Niyə Brüssel? Çünki orda güclü bir diaspor təşkilatı vardı-«Belçika Azərbaycan Evi». Qeyd edim ki, biz maddi köməyə də hazır olduğumuzu açıqca bəyan etmişdik. Lakin qurultayın vaxtı yaxınlaşmaqda ikən DAK-dan gələn qeyri-ciddi xəbərlərə və qarışıq bəyanatlara dözmədiyimdən və DAK-ın yalnız söz üzərində qurulmuş fəaliyyətindən bir şey çıxmayacağına inandığımdan bu qurumun Brüssel nümayəndəliyindən istefa verdim. Lakin üzvlüyümü davam etdirdiyimi və sədrliyə namizədliyimi irəli sürdüyümü də bəyan etdim. Lakin mənim bu bəyanatımdan sonra hər şey dəyişildi.

Təsəvvür edin, əziz oxucular, hətta Brüsseldə qabaqcadan DAK-ın qurultayının keçirilməsi üçün salon sifariş edilmiş, qurultay nümayəndələri üçün otel tutulmuş, bir sözlə DAK-ın növbədənkənar qurultayının yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılmışdı. Lakin ortada bir problem vardı- Cavad bəyə rəqib bir namizəd çıxmışdı. Təsadüfi deyil ki, səmərəsiz tədbirləri, pafoslu çıxışları, boş-boş bəyanatları, destruktiv təşkilatçılığı ilə DAK adlı böyük bir qurumu faktiki olaraq donmuş bir təşkilata çevirən Cavad bəy bu qurultayda yenidən sədr seçilmək şansının olmadığını yaxşı başa düşdüyü üçün DAK-ın bu ilin dekabr ayında keçirilməsi nəzərdə tutulan növbədənkənar qurultayını da təxirə salmaqdan qeyri «xilas yolu» tapa bilmədi. Təşkilatın hər bir sıravi üzvü də yaxşı anlayır ki, bu təxirəsalmanın arxasında Cavad bəyin bu gözəl və rahat həyatı itirə bilməsi qorxusu dayanır.

Bu günlərdə Azərbaycan mətbuatında DAK-ı tənqid edən bir yazı çap etdirdim. Bu yazımda Cavad Derəxtinin səmərəsiz fəaliyyətinin nöqsanlı tərəflərini bütün çılpaqlığı ilə açıb göstərərək onu və komandasını istefaya dəvət etdim. Əslində, burada qeyri-adi heç bir şey yoxdur. Bütün mədəni ölkələrdə də, siyasətdə də bu belədir. Yəni ya normal olaraq istefa verilməli, ya da təşkilat üzvlərinə bir hesabat verilməli idi. Təəssüf ki, bu belə olmadı. Görünür, Cavad bəyin ömrünün çox böyük bir hissəsini yaşadığı,- «İran adlanan ölkə»də (bu söz Cavad bəyin öz maraqlı ifadələrindən biridir) elə belə də olur. Bəlkə də bu səbəbdəndir ki, o, özünü Molla zənn edir.

Bu yaxınlarda "Trend" agentliyinə verdiyi müsahibədə yenə özünəxas üslubu ilə çox maraqlı ifadələr və vədlər verib, yəni bizi önümüzdəki ilə qədər yatırtmaq istəyib. Lakin bu dəfə dəydiyi daşın ağırlığından xəbəri olmayıb. Mən jurnalistəm və tam 26 ildir ki, Avropada, ondan öncə isə əlim qələm tutandan doğulduğum İğdırda Azərbaycan davasıyla yoğrulmuşam. Latın və kiril əlifbalarını bərabər öyrənmişəm. Onu da deyim ki, o zamanlar Türkiyədə kiril əlifbası ilə çap olunmuş kitabların oxunması qadağan idi. Lakin Azərbaycan dilini və həqiqətlərini, öz doğma vətənim barədə hər şeyi öyrənmək yanğısı məni dayandıra bilmədi. Mən heç nədən qorxub-çəkinmədən qarşıma qoyduğum amalıma doğru cəsarətlə irəliləməyə başladım. Yəni demək istədiyim odur ki, mən bir diaspor rəhbəri kimi həmişə, hər yerdə Azərbaycan naminə keçirilən tədbirlərdə öndə gedənlərdən olmuş, bu yolda heç nəyi əsirgəməmişəm. Lakin təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Cavad

bəy "Trend" agentliyinə verdiyi açıqlamada mənim ünvanıma həqiqətə uyğun olmayan, qeyri obyektiv və yalan məlumatlar söyləməklə ictimai rəydə bir yanılışlıq və çaşqınlıq yaratmağa çalışıb. Cavad bəyin bəzi sözlərini oxuyarkən mənə elə gəldi ki, o, deməyə söz tapa bilmədiyi üçün zarafata əl atıb. Atalar yaxşı deyib ki, «aşığın sözü qurtaranda, yarım, yarım deyər».

Dekabr ayında keçiriləsi DAK qurultayının nə üçün təxirə salınmasından danışmaq, bir təşkilat sədri kimi öz nöqsanlarını gizlətmədən açıb söyləmək əvəzinə, Cavad bəy yan-yörəsindəkilərə şər atmağa üstünlük verib. O, agentliyə verdiyi müsahibəsində guya Xocalı soyqırımı ilə bağlı Brüsseldəki konfransda mənim ona Notebook vəd etdiyimi, lakin sonradan bu vədimə xilaf çıxdığımı söyləyir. Atalar sözü var, "dənizə düşən, ilana sarılar", Cavad bəy də Notebook-a bərk-bərk sarılıb. Lakin görünür ki, Cavad bəy sözü gedən tədbirin keçirldiyi zaman mənim təşkil etdiyim Notebookun hansı salonda yerləşdiyini, o salonu kimin kirayələdiyini, təşkilatı işlərin kim tərəfindən təşkil olunduğunu, tədbir zamanı sərgilənən rəsmləri, afişaları, iştirakçıların qeydiyyat işinin kim tərəfindən aparıldığını nədənsə «unudub».Görünür bu unutqanlıq Cavad bəyin xeyrinədir.

Doğrusu konfrans zamanı salona gələrək keçib yuxarı başda oturan Cavad bəyi görəndə mənə elə gəlirdi ki, o, minbərdə oturub. Özü də milli diasporumuzun qayğı və problemlərindən danışmaq əvəzinə dua edir.

Mən gündəmdə qalmağım üçün, Cavad bəyin dediyi kimi, heç bir gücü olmayan və planlaşdırdığı heç bir işi həyata keçirməyən DAK adından necə istifadə edə bilərəm? Bizim, yəni "Belçika-Azərbaycan Evi"nin gördüyü işlər göz qabağındadır və bütün Azərbaycan xalqı bizi yaxşı tanıyır.

Öz müsahibəsində Cavad bəy daha bir maraqlı ifadə işlədərək deyib: «mən bilmirəm ki, bu adamın (yəni mənim - B.G) məqsədi nədir, onun arxasında kimlər dayanıb?»

Cavab verirəm: Cavad bəy, sən mənim arxamda kimlərin dayandığını anlaya bilməzsən. Lakin mənim sənin arxanda vaxtilə kimlərin dayandığından və həmin şəxslərin aqibətindən çox yaxşı xəbərim var.

Cavad bəy belə bir ifadə də işlədib ki, guya, «Belçika-Azərbaycan Evi» Brüsseldən uzaqda və kiçik bir otaqda yerləşir». Yenə cavab verirəm:-Cavad bəy, siz nə zaman mənim Brüsseldəki ofisimə təşrif gətirmisiniz ki, belə bir yalan məlumat yayırsınız? Yaxşı olardı ki, siz heç olmasa bir dəfə «Belçika-Azərbaycan Evi»nə təşrif gətirib hər şeyi gözlərinizlə görəydiniz. Bəlkə o zaman minlərlə azərbaycanlı oxucuya hörmətsizlik eləyib yalan məlumat verməzdiniz.

Məlumat üçün deyim ki, "Belçika Azərbaycan Evi"nin ümumi sahəsi 360 kvadrat metrdir və 7 otağı var. Otaqlardan ikisi qonaqlar üçün nəzərdə tutulub. Burada hər cür rahatlıq və şərait vardır. O cümlədən Avropa standartlarına uyğun vanna otağı, mətbəx, 200 kvadrat metrlik sahəyə malik emalatxana bura gələn hər bir qonağın ixtiyarındadır.



Onu da deyim ki, elə Cavad bəyin görməyə müvəffəq olmadığı Dünya Gömrük Komitəsinin həyətindəki Dədə Qorqud heykəli də bu emalatxanada düzəldilib.

Bəli, Cavad müəllim, işlər belədir, yaman səhvlər buraxmısan, sənə bu səhvlərini düzəltmək üçün zaman veririk. Çıx meydana gerçəkləri söylə. Bir də sizə bir təklifim var. Onsuz da DAK İsveçdə qeydiyyatdan keçib, kiçik bir dəyişiklik edərək DAK sözünün önünə "C" hərfi əlavə edin, olsun CDAK, yəni Cavad Dərəxti Azərbaycan Kommersiyası. Çox maraqlı alınar və işləriniz açılar. Xeyirli olsun!

*28 noyabr, 2006-cı il*

## BRÜSSELDƏN BAXANDA

**Qəzetimizin birinci səhifəsini diqqətlə oxusanız, bu yazımda nə demək istədiyimi daha yaxşı biləcəksiniz. Söhbət yaxın günlərdə Hollandiyanın Amsterdam şəhərində yerləşən bir diaspor təşkilatımız tərəfindən gündəmə gətirilən və böyük zəhmətlərlə (özlərinin deyimi ilə desək) həyata keçirilən bir iclasla qurulan yeni bir Azərbaycan diaspor təşkilatı, adı isə hamımıza məlum olan və heca-vəzniylə, qafiyəsiylə dilə xoş yatan BAK-dan gedir. Bəli, yanlış duymadınız və ya səhv oxumadınız, BAK!**

Bu ad sizə heç də yabançı deyil, əksinə çox yaxındır. Bundan öncə yaranan diaspor təşkilatlarının adlarını xatırlayırsınız, DAK, DDAK, AAK kimi bu da BAK-dır. Bundan öncə daha bir təşəbbüs də vardı və o zaman mən də qatılmışdım, bunun açıqlamasını siz həmvətənlərimə bir azdan verəcəyəm. İndi isə qayıdaq söhbətə. Bəli, bundan təxminən iki il əvvəl Azərbaycanın Belçikadakı səfirliyində, səfirin birinci müavini Fuad müəllimlə çox əmək və diqqət sərf edərək bir neçə iclasdan sonra qurduğumuz BATƏŞ (Benilüks Azərbaycan Təşkilatlarını Əlaqələndirmə Şurası), bir növ ağsaqqallar şurası kimi yaranmışdı. Burada hər hansı bir təşkilatdan söhbət getmir, məqsəd sadəcə olaraq diaspor təşkilatlarının bir-biri ilə əlaqə yaratması və təcrübəli təşkilatçılarımızın məsləhətlərinin dinlənilməsi idi. İmkanım olduqca bu təşkilatın bütün iclaslarında iştirak edir və öz fikirlərimi bəyan edirdim. Bu quru-

mun hazırda fəaliyyət göstərməsindən də məmnunam, fəxri sədri də Fuad müəllimdir. Buradan ona indiyə qədər gördüyü işlərə görə rəhbərlik etdiyim "Belçika Azərbaycan Evi" və şəxsən öz adımdan təşəkkürümü bildirirəm.

Deməli, bu BAK qurulmadan öncə bunda zəhməti keçən, Amsterdamdakı diaspor təşkilatımızın rəhbəri Sahil bəy, Den Haaqadakı təşkilatımızın rəhbəri dostum və həmyerlim İlhan bəy Brüsselə məni ziyarət etməyə gəldilər və bu fikirlərini ortaya qoydular. Mən də öz cavabımı verdim və belə böyük adlarla qurulmuş təşkilatların aqibətinin və bizə xeyrinin olmadığını, ancaq parçalanmağa və xırda təşkilatların işlərinə əngəl olduğuna inandığımı və bu səbəbdən bu quruluşa qatılmaq istəmədiyimi bildirdim. Bir az incimiş halda getdilər. Lakin mən təşkilatçılıq fəlsəfəmdə olmayan və ya olmayacaq duaya amin demək kimi bir tərzimin olmadığını açıq ifadə etdim. Bu gün də elə edirəm. Lakin bu quruluş günündə yenə də bu yığıncağa bir təşkilatçı kimi qatılmasam da, müşahidəçi kimi həm təşkilatım adından, həm də jurnalist kimi gedib dinləmək və görmək istədim, lakin dostlar məndən o qədər inciyiblər ki, zəng edib təbrik etməyimə baxmayaraq, mənim orada iştirakımı təmin etmədilər. Mən onların təşkilatına qatılmadımsa oraya da gedə bilməyəcəyimi açıq şəkildə mənə bildirdilər. Bu qurumu sizin qarşınızda bir daha təbrik edirəm, Allah işlərini avand etsin, ürəyim istərdi ki, böyük işlər görəcəklərini deyim, lakin öncəkilərə baxanda bunun mümkün olmadığını və olmayacağını burdan demək məcburiyyətindəyəm.

*14 dekabr, 2006-cı il*

## *BİR İL DAHA KEÇDİ*

**Bəli, Ümummilli liderimizin bizə bəxş etdiyi 31 Dekabr Dünya Azərbaycanlılarının həmrəylik gününün bu il 15-ci ildönümüdür. Keçən il olduğu kimi bu il də çox öncədən Bakıya gəldim, bu 365 günün bir neçə gününü yalnız bu bayrama görə vətəndə qarşılamaq, bu həyəcanı burada yaşamaq istədim. Keçən il yaşadığım xəyal qırıqlığını bu il unutmaq və həyata keçiriləcək tədbirlərdə iştirak etmək üçün Bakıdayam. Lakin keçən ilin xəyal qırıqlığı bu il də hələ bu bayram gününə az bir vaxt qalmış yenə də təkrarlandı. Yenə səssizlik və qərarsızlıq hakimdir hər yerdə, yenə təzə qarışıqlıqlar var, biz də keçən il olduğu kimi bu ildə də səhifələrimizi bu məsələyə açdıq və bununla bağlı suallara cavab axtarmağa başladıq. Birinci səhifəmizdə də gördüyünüz kimi qərarsız bir vəziyyətdəyik, qəzetimiz diaspor qəzetidir, bu bizə həsr olunmuş gündə bunu yazmaya bilməzdik və elə də etdik. Bu sayımız və bayram ərəfəsində çıxacaq sayımızda bu mövzuya xüsusi toxunacağıq. Bu il də çox ciddi tədbirlər olmamasına baxmayaraq, mənim özüm bir neçə gün öncə Bakıya gəldim ki, müəyyən iş quram və bu işə könül vermiş insanlarla görüşlər keçirəm, bu məsələləri müzakirə edib problemlərimizin həlli yolunu tap m. Görəsən nəyəsə nail olacağamı? Mənə elə gəlir ki, işim gölə maya çalan Molla Nəsrəddindən də çətindir, onun gölü qatıq tutar, ancaq mənim burada yazdıqlarım alına bilməz, bunu da yaxşı bilirəm, amma neyləyim, yenə də deməliyəm və yazmalıyam. Molla ona sual verən adama "bəlkə tutdu", demişdi. Mən də onun kimi ümidliyəm, bəlkə bizim də dediklərimizi duyan olar deyə ümidlə yazıram bu yazını.**

Bir neçə gün sonra yenə bizim bayramdır. Yəni xatırlandığımız gündür, bizə nəğmələr yazılıb, mahnılar oxunacağı gündür, çox şadıq, çox sevinirik. 1 yanvarda hər şeyin unudulacağını bilə-bilə yenə də çox sevincliyik, bəzi şeylər dəyişər deyə ümidliyik. Ölkəmizdən illər boyu uzaq qaldığımızdan bu günü bizə bayram kimi bağışlayan milli liderimizə dərin şükranlarımızı çatdırırıq. O, 3 ildir cismən aramızdan ayrılsa da, onun o güclü nəfəsini daim ruhumuzda hiss edirik.

Bu bayramdan çox şey ummuruq, ancaq və ancaq Azərbaycanı xaricdə daha yaxşı tanıtmağı düşünürük. Bəlkə bu bayramda kimsə səsimizi duyar, xaricdəki azərbaycanlıların daha da fəal və səmərəli iş görməsinə kömək edər, yeganə arzumuz budur.

Bu məsələyə bu bayram öncəsi təkrar qayıdacağıq, bilindiyi kimi yanvarda hər şey bitəcək, bir də 2007-ci il dekabrın 31-ə kimi.

*29 dekabr, 2006-cı il*

## *HAMIMIZ ERİK FAYQLIQ!*

**Bu xəbərin çıxdığı gün, ürəyində türkçülük sevdası olan, damarında türk qanı dolaşan hər bir insan ürək ağrısı çəkdi. Bu yaxınlarda Türkiyədə qətlə yetirilən erməni jurnalistinin cənazəsində minlərlə insan əllərində "hamımız erməniyiz!" şüarları tutmuşdu və bu hamımızı üzdü. Qardaş bir ölkədə belə bir səhnənin şahidi olmaq Azərbaycan türklərini ürəkdən zədələdi və sanki ümidlərimiz tükəndi. Türk**

**Dünyasına bizi aparan ən böyük yolda arxalandığımız böyük ölkədəki bu səhnə xəyallarımızı puça çıxartdı.**

Bir anlıq 1915-ci ildən öncəki Şərqdə, başda İğdır olmaqla ermənilərin törətdikləri qətliamlar, İrəvanda xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti, Azərbaycanda törədilən soyqırımları, 1990-cı ildən sonra Qarabağda baş verənlər, Xocalı soyqırımı gözlərimin önündə canlandı. Düşündüm ki, niyə görə heç kim "Biz türkük!" sözlərini əlində tutub küçələrə çıxmadı.

Milli ruhlu bir çox insan buna öz narazılığını bildirdi, məqalələr yazdılar. Nə isə, bu məsələni çox uzatmaq istəmirəm, lakin bir şeyi şəxsən öz adımdan səmimi demək istəyirəm ki, anladılması çətin olan bir yara aldım.

Qədərə baxın ki, bir Türk düşməninin ölümündən sonra bir Türk dostunu itirdik, Erik Fayqlı. Sanki Allah Türk millətini imtahana çəkir, öncə bir düşmənini, sonra da bir dostunu alır.

Bir səhər hər zamankı kimi ilk işim Azərbaycan və Türk qəzetlərinə baxmaq oldu. Həyatını Türk millətinə həsr etmiş bu dəyərli insanın ölümü ilə bağlı xəbərlər aradım, bir tək APA informasiya agentliyinin verdiyi kiçik bir xəbərlə rastlaşdım.

Erik Fayql - avstriyalı tarixçi, Türk dünyasının dostu, ermənilərin can düşməni, erməni yalanlarını sübut edən yeganə tarixçi, Azərbaycan Türklərinin dostu, ölkə prezidentimiz tərəfindən medala layiq görülmüş və Dünya Azərbaycanlılarının İkinci Qurultayında medal almasına sevindiyim bir-iki nəfərdən biri, yaxından tanıdığım, dərin hörmət duyduğum bir insandır. Mənə elə gəlir ki, qeyri-müsəlman olmasına baxmayaraq, bu insana Allah Rəhmət eləsin demək olar.

Hələ mən deyirəm ki, bu insanın adını əbədiləşdirmək, Erik Fayql adına medallar təsis etmək, onun adı çərçivəsində konfranslar, yığıncaqlar düzənləmək, hətta onun abidəsini ölkəmizdə ucaltmaq lazımdır. Keçən il Xocalı soyqırımının 14-cü ili ilə əlaqədar keçirilən tədbirdə öz çıxışında ürəyi dolu idi, yorulmuşdu, üzülmüşdü, zaldakıların gözünün içinə baxıb belə dedi: "Türkiyəni anlamaq mümkün deyil, başqa bir ölkə Türkiyə torpaqlarındakı Ağrı Dağını öz dövlətinin rəmzinə çevirib, bu açıq-açığına ölkə torpaqlarına göz dikməkdir. Məsələn, Fransa Almaniyanın hər hansı bir bölgəsini öz rəmzinə çevirərsə, Almaniya bunu müharibə çağırışı kimi anlayar, Türkiyə isə hələ də susur". Zalda olan türk diplomatları və biz hamımız başımızı önə əydik, utandıq, sıxıldıq, bir avstriyalının bu sözündən.

Allah sənə Rəhmət etsin, türkün dostu, məkanın cənnət olsun! Sənin kimi bir dostu çətin taparıq bir də. Səni xalqın adından hörmətlə anıram, bir şeyi bil ki, apardığın haqlı mübarizə əmin əllərdədir, səni bu sözlərlə son mənzilə yola salırıq! "HAMIMIZ ERİK FAYQLIQ"!

*14 fevral, 2007-ci il*

# *BİR MİLLƏTİN İKİ DİASPORU OLMAZ!*

**Bəli, Nazim müəllim, çox yerində və düzgün sözdür. Türkiyədən duymadığımız bu sözü bu yaxınlarda Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Türk və Azərbaycan diasporlarının birinci Forumu ərəfəsində KİV-ə verdiyi açıqlamada deyib.**

Bu sözü eşidəndə ürəyimiz kövrəldi və illərdir gözlədiyimiz bu sözü eşitməyin qürurunu yaşadıq. Əslində bu söz gərək əsrin əvvəllərində deyiləydi, bu sözü bütün dünya Türkləri deyəydi, Türk dünyasının gözü olan Türkiyəmizdəki səlahiyyətli şəxslər deyəydi. Lakin bu söz və bu iradə keçən il Türkdilli dövlətlərin qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dilə gətirildi, Azərbaycan və Türk diasporlarının Forumunun keçirilməsi təklifi onun Türk dünyasına olan diqqətinin meyvəsi idi. Çox qısa bir müddət ərzində Forumun keçirilməsi qərarlaşdırıldı və mart ayında Türk və Azərbaycan diasporları Bakıda toplanır.

Türk dünyasında ilk dəfə gerçəkləşən bu hadisə mənə Türk dövlətləri arasında ilk dəfə Şimali Kipr Türk Cümhuriyyətinə birbaşa təyyarə səfəri edən Azərbaycanın Kipr türkləri tərəfindən necə qarşılandığını xatırlatdı. Özüm də o hadisənin şahidi olduğum üçün çox duyğulu anlar yaşadım, çünki kiprlilər dünyanın güclü türk dövlətlərindən görmədikləri hərəkəti Azərbaycandan görmüşdülər. Azərbaycan xalqı öz çətin vəziyyətinə baxmayaraq, qardaş Kipr türklərinə öz qucağını açmış və onlara yalnız olmadıqlarını göstərmişdi.

Bu gün isə Azərbaycan xalqı başqa bir addımı atıb və yuxarıda oxuduğunuz sözlə bütün Türk dünyasını birləşdirəcək fikir artıq ortadadır.

Bu dəyişiklikləri görəndə və yaşayanda istər-istəməz bir hadisəni xatırlayıram. 1989-cu ilin dekabr ayı idi, mən Bakıda "Vətən" cəmiyyətinin qonağı idim. Eyni zamanda, bir jurnalist kimi çəkilişlər aparır, müsahibələr alırdım. Bir gün məni xalq şairi Bəxtiyar Vahabzadə evinə dəvət etmişdi və mən də böyük məmnuniyyətlə bu dəvəti qəbul etmişdim. Onlarda olarkən

maraqlı bir söhbət oldu və həmin söhbət indi də mənim yaddaşımda qalıb. Bəxtiyar müəllim demişdi ki, mən sübut edə bilərəm ki, Türk xalqının yarandığı Orta Asiyanın mərkəzi Azərbaycandır. Bəli, bu sözü mənə sevimli şairimiz 1989-cu ilin dekabr ayının sonlarında demişdi. O gündən bu yana körpülərin altından çox sular keçsə də, həmin söz mənim üçün indi də gündəmdədir.

Azərbaycanın Türk dünyasının mərkəzi olmasının reallığı göz önündədir, yaralı bir ölkə olmasına baxmayaraq, Türk dünyasının bütün qayğılarına başda Ümummilli liderin strategiyası olmaqla bu gün ölkə Prezidentinin bütün dövlət strukturları ilə bu ideyanın ətrafında birgə hərəkət etməsi bunun sübutudur.

Türk dünyası birliyinə ilk addımlar Türk xalqının atası Mustafa Kamal Atatürkün təşəbbüsü ilə həyata keçirilmiş ideyalardır, bu gün Türk dövlətləri içində bu qayğını ən çox daşıyan və bu işə can yandıran isə Azərbaycan dövlətidir.

Böyük öndər M. Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" və Ümumilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" sozləri açıq-aydın öz əksini tapır.

*28 fevral, 2007-ci il*

## NƏ VAXTA QƏDƏR BELƏ DAVAM EDƏCƏK?!

**Hörmətli həmvətənlərim, bu günə qədər yazdığım yazılarda, etdiyim söhbətlərdə və 26 ildən çox təşkilatçılıq təcrübəmdə məni narahat edən bir məsələni yenə tək müraciət yerim olan siz həmvətənlərimlə paylaşmağa qərar verdim. Buna səbəb isə bu günlərdə agentliklərdə gedən bir xəbərdir.**

İçində olduğumuz bu günlər! Hamımızın yaddaşlarında möhkəm yer etmiş ağır yaralarımızdan biri Xocalı hadisələri. 15 ildir dünyaya inandıra bilmədiyimiz, özümüzün belə tam olaraq araşdırıb beynəlxalq məhkəmələrin qarşısına çıxara bilmədiyimiz, ancaq və ancaq 15 ildir fevral ayında yadımıza düşən və fevral ayının 15-də başlayıb 26-da bütün həyatımızdan gələn ilin fevral ayına kimi çıxan, bu insanlıq ayıbı-Xocalı Hadisələri.

Bəli, düz 15 ildir. Hələ ki, bir arpa boyu yol alınmayıb. Deyəcəksiniz ki, Bülent Gürçam haqsızlıq edir, gör nə qədər iş görülüb? Nə qədər



mitinqlər keçirmişik, nə qədər Xocalı günləri elan etmişik, bu il yenə də dünyanın dörd bir yanında Xocalını anma günləri elan etmişik, bəs daha nə edək?

Bəli etmişik, etmişəm, edirlər, edəcəyik! Bəs sonu nə ilə nəticələnib? Bu il də görürəm ki, maşallah bütün təşkilatlarımız ayağa qalxıb, hamı bir-birindən xəbərsiz, kimsə kimsəylə məsləhətləşmədən, bir milli ideya ətrafında toplaşmadan, hamı ayrı bir qoldan hücuma keçmək istəyir. Hələ 26 fevral gəlib çatmamış bizim təşkilatlarımız bir-birinə dəyib, o deyir mən belə edəcəm, o biri deyir yox, mən orda olmayacam, digəri deyir yox, biz heç birinə qatılmayacağıq, çünki başqa fikirlərimiz var. Hamı bir-birindən fikir gizlədir, sanki ticarətdə rəqabət aparırıq. Bir misal gətirim, deməsinlər Bülent elə əzbərdən danışır. Xocalı bu il Hollandiyada İğdır bələdiyyəsi və onun sədri Nurettin Aras tərəfindən düzənlənən konfransla anılacaq. Bəli, buraya qədər çox gözəldir, lakin Nurettin bəy bu qərarı verəndə, ya da hazırlıq ərəfəsində nə Hollandiyada, nə də ona yaxın ölkələrdə, məsələn, Brüsseldə, hansısa bir təşkilatımızla məsləhət aparmayıb və bizə elə gəlir ki, özləri yüksək səviyyədə konfrans hazırlayıblar. Konfransın bir də afişası var, 70x50 ölçüsündə, rəngli və yüksək keyfiyyətli. Lakin bu afişalar yalnız türk dilindədir. Dünyanın mərkəzlərindən biri sayılan Haaqa şəhərində türk dilində Xocalı konfransı!!! Bəli, bu tamamilə belədir.

İndi isə keçim agentliklərin bu günlərdə yaydığı bir xəbərə: Ermənistan parlamenti, diasporun gücündən faydalanmaq üçün və onların Ermənistanın gələcəyində rol almalarını asanlaşdırmaq üçün səs çoxluğu ilə ikili vətəndaşlıq barədə qanunu qəbul etdi.

Yenə də bizi qabaqladılar, biz yatarkən onlar yenə də önə keçdilər. 50 milyon dediyimiz xalqımıza ad tapa bilmədiyimiz bir vaxtda, ermənilər güclərinin getdikcə zəiflədiyini hiss edib, güclü bildiyi diasporuna qapılarını sonsuzadək açdı. Mənə elə gəlir ki, bizi qorxudan düşmən deyil, özümüzük!

*15 mart, 2007-ci il*

## YAZIRAM!

**Bəli, möhtərəm həmvətənlərim, yazıram, çünki danışmağa icazə verilmir. Başqa əlacım olmadığı üçün ancaq yazıram. Bu günlər doğrudan da Türk millətinin tarixində əlamətdar günlərdən biri idi, hər bir türkün ürək arzusu Bakıda həyat buldu. Bəli, Türk Dünyasının üç**

ölkəsi bir millət olduqlarını Bakıda rəsmiyyətə çevirdilər, bu eynilə Avropa Birliyinin qurulduğu 1949-cu ilə çox bənzəyirdi. Çünki Avropa Birliyinin də qurulduğu o tarixdə üç dövlət iştirak etmişdi- Belçika, Hollandiya və Lüksemburq və Avropanın təməlini qoyan bu dövlətləri də Benelüks adlandırmışdılar. İndi isə türk dövlətlərinin üçü mənə bu hadisəni xatırlatdı. Avropalılar üçün bu iş çox uğurla nəticələndi, indi 27 ölkə olublar. Əcəba, biz ilk arzulanan 7 ölkə ola biləcəyikmi? Mən ümid edirəm ki, olacağıq, olmasını mən də istəyirəm. Bunun olması üçün mənim də bir türk kimi müəyyən təkliflərim, arzularım vardı, çıxıb zalda oturan insanlara demək və onlarla paylaşmaq istəyirdim. Lakin eynilə Dünya Azərbaycanlılarının İkinci Qurultayında olduğu kimi çıxışımı günlər öncə göndərməyimə baxmayaraq nə o qurultayda, nə də Dünya Azərbaycan və Türk Diaspor Rəhbərlərinin Birinci Forumunda danışmağa icazə verilmədi, çünki mənim deyəcəklərim önəmli məsələlər idi.

Bəli, lazım bildiyimiz gələcəyi, diasporun fəallaşması üçün lazımlı iradları, 26 illik təşkilatçılığımın mənə qazandırdığı təcrübələrimi bildirəcəkdim, təkliflər irəli sürəcəkdim, Prezidentimizə Azərbaycanın xaricdə tanınmasına kömək edə biləcək təkliflərim vardı, onları dilə gətirəcəkdim. Amma olmadı, yenə də arzularımız, gələcəyimizə aid təkliflərimiz ürəyimizdə qaldı.

Eybi yox, mən də həmişəki kimi ancaq yazıram, bəli ancaq yazıram, danışmağı unudana qədər yazacam, doğru bildiklərimi yazacam, kim nə fikirləşir fikirləşsin, mən ancaq yazacam, Azərbaycan naminə yazacam, millətim üçün yazacam, millətimin gələcəyi adına yazacam, çünki yazmaqdan başqa bir şey edə bilmirəm, ona görə yazacam. Lakin hər şey o qədər də vahiməli deyil, gözəl hadisələr də olur. Məsələn, məni sevindirən ən gözəl hadisə forumda deyəcəyim bəzi məsələlərin Prezidentimiz tərəfindən dilə gətirilməsi idi, onun o arzuları və o sözləri bütün xalqımızın və Azərbaycan diasporunun arzuları idi, o sözlər bizi birləşdirən sözlər idi, Azərbaycanımızın parlaq gələcəyinin işarələri idi, çox gözəl sözlər idi.

Digər gözəl hadisə isə qəzetimizə "Qobustan" Beynəlxalq mükafatının verilməsi idi. Bu bizi çox sevindirdi, doğru yolda olduğumuza inamımız bir az daha artdı. Mükafatın bizə verilməsinin səbəbi daha da sevindirici idi, doğruları yazdığımız üçün verilmişdi bu mükafat. Bütün əməkdaşlarımızı təbrik edirəm və deyirəm ki, daha çox çalışmalıyıq.

*29 mart, 2007-ci il*



# SOYQIRIM ƏRƏFƏSİNDƏ BAYRAM!

**Dəyərli həmvətənlərim, bu günlərdə tariximizə çox acılı bir hadisə yazılacaq. Ermənilər xəyalı ilə yaşadıqları bir hadisənin təntənəli bayramını yaşayırlar, özü də üzsüzcəsinə, sifətləri qızarmadan, avtobuslar dolusu Türkiyənin Alican sərhəd qapısından düşmən bildikləri və özlərinə aid sandıqları torpaqlarımıza girdilər. Bu gün ermənilərin qondarma tarixinə yeni bir səhifə əlavə olunduğu gündür, bizim isə şəhidlərimizin sümüklərinin sızlayacağı bir gün olacaq. Lakin bu avtobuslarla girdikləri torpaqlarda çox sayda türkü qətl etmişdilər, indi buralarda bu gündən etibarən bir neçə gün sevinc və şadlıq səsləri yayılacaq.**

Gəlin, bir az geriyə qayıdaq. Ermənilərin XVI əsrdən bəri Türk torpaqlarında oynamadıqları oyunlar qalmadı, hər fürsətdə alçaq üzlərini göstərib, lakin imkan tapmayanda yenə də Türklərin içində "millət-i sadıkı", *yəni sadiq vətəndaş kimi anılmışdılar.*

Ən son oyunlarını 1915-ci ildə oynadılar, Türkiyənin 3 qoldan savaşa girdiyi birinci dünya müharibəsində Türkiyəni arxadan vurub Van şəhərində xəyal etdikləri erməni dövlətinin təməlini atmaq istəmişdilər, fəqət buna müvəffəq ola bilməmişdilər.

Bu gün o illərin xatirəsini canlandıran bayramı qeyd edirlər. Çünki həsrətini çəkdikləri, sözdə paytaxt bildikləri (Böyük Ermənistanın) Türkiyənin Van şəhərində vaxtı ilə qurduqları kilsələrin Türkiyə dövləti tərəfindən restovrasiya edilərək özlərinə qaytarılmasının və həmin kilsənin bu gün açılış günüdür, yəni 28 mart 2007-ci il. Türk tarixinə qara hərflərlə yazılacaq bir gündür, erməni daşnaqlarının türk tarixində gerçəkləşdirdikləri bir neçə soyqırımlarından biri olan 31 mart Azərbaycan Türklərinin Soyqırım gününün ərəfəsidir və onlar yenə bayram edirlər.

Türkiyə qeyd-şərtsiz özünə düşmən mövqeyində durmuş və bu gün də Türkiyənin Şərqindən torpaq tələbi ilə çıxış edən, Türkiyə torpaqlarında yerləşən Ağrı dağını öz dövlət rəmzinə çevirən, hal-hazırda Ermənistan adlanan, lakin tarix boyunca türklərin yaşadığı torpaqlarda bir tarixi əsər, bir məzar daşı belə saxlamayan, bir tək türkün belə yaşamadığı, Ermənistana qarşı tarixinin ən gözəl jestlərindən birini edir bu gün.

Yalnız bir şey unudulmamalıdır, milyonlarca Azərbaycan türkünə qarşı

soyqırım törətmiş bu qondarma millət Türkiyənin etdiyi Türk tarixinə sürülmüş bir ləkə kimi qalacaq, onların kilsələrini bərpa edən qardaşlarımıza bir neçə sözümüz var.

Heç olmasa, bunu edəndə qarşı tərəfdən bir qarşılıq istəyəydiniz, məsələn, 15 ildən artıqdır ki, işğal altında saxladıqları, Xocalıda, Şuşada türk məscidlərinin içində heyvanlar bəslənir, şəkillər də bunu sübut edir. Onlar da o camilərimizi bərpa etsəydilər, Türkün ata-baba yurdu İrəvandakı "Göy Məscidi" bərpa etsəydilər!

Amma yox, bu gün bayramdır, Türkün ən böyük soyqırımlarından biri olan 31 mart Azərbaycan Türklərinin Soyqırımı ərəfəsidir, ermənilərin bayram günüdür!

*13 aprel, 2007-ci il*

## DAHA NAĞILLARA İNANMIRAM MƏN!

**Məsələyə hansı tərəfdən və necə başlacayacağımı inanın ki, bilmirəm. Artıq elə bir vəziyyətdəyəm ki, bilmirəm diaspor, 26 ildir gördüyüm lobbiçilik işi ilə məşğul olum, yoxsa tez-tez bəhs edilən və ya gözümüzün önünə gerçəkləşmiş kimi gətirilən nağıllaramı qulaq asım, ya da cavab verim?**

İnanın ki, cavab verməmək əlimdə deyil, mənim ölkəmə, millətimə və milli liderimə olan sayğım və inamım məni bunu etməyə məcbur edir. Diaspor haqqında çox insan danışır, çox sözlər deyilir, lakin oynanılan oyunlar məni narahat edir.

Qəzetimizin birinci səhifəsində məramımızı dilə gətirmişik və bir diaspor qəzeti olaraq öhdəmizə düşən vəzifəni yerinə yetirməyə çalışırıq. Məqsədimiz birliyə nail olmaq və tutarlı işlər görməkdir. Boş sözlər, yalan işlər, uydurma adlar və təşkilatların yerinə nə etdiyini yaxşı bilən, ad yox iş görən, milli məsələlərimiz ətrafında birləşmiş qurumlar yaratmaqdır.

Bir məsələdən çox narahatam. Açıqca etiraf edirəm ki, adlarının sonunda "AK" olan qurumların nə işlə məşğul olduqlarını bir təşkilatçı kimi başa düşmədiyim üçün narahatam. Deyirəm, bəlkə mən çox geridə qalmışam, bunlar məndən çox qabaqda gedirlər. Özüm-özümə sual verirəm, bəlkə bunlar doğru yoldadır, biz yanlış tərəfə gedirik? Bu sualı öz-özümdə müzakirə etdim, lakin harasından tutsam "AK"ı "aklayan" bir cavab tapa



bilmədim.

Yazmağa qərar verdim, bundan öncə söz vermişdim ki, ancaq yazacam, indiyə qədər məni ya bu adı keçən iclaslara dəvət etmirdilər, ya da dəvət etsələr də çıxış üçün söz vermirdilər. Mənim üçün çox maraqlıdır ki, insan danışa bilmədiyi, fikrini demədiyi, inandığı ideyaları paylaşa bilmədiyi bir iclasa niyə getməlidir.

İcazənizlə, burada bir sözün mənasına diqqətinizi çəkmək istərdim. Əgər düz demirəmsə, hər fikrə hörmətim var, düz demədiyim barədə verilən hər cavabı, elə burada-öz köşəmdə yayımlayacam. Həm Konqres var, həm də Konfrans. Bu iki adı bir-birinə qarışdırmaq lazım deyil. Konqres sözü türk dilində "fikirlərin açıq səsləndiyi toplantı" deməkdir. Yəni burada insanlar müəyyən fikir çərçivəsində fikir mübadiləsi aparır, nəsə müzakirə edir, təkliflər irəli sürür və məqsədəuyğun olan təkliflər qəbul olunur. Bunun adı konqresdir.

Konfransda isə kimsə çıxıb müəyyən məsələlər barədə danışır, zaldakılar isə onu dinləyirlər. Heç kim şəxsi fikrini demir, kiminsə sualı olanda çıxış edən şəxs tərəfindən cavablandırılır. Bu konfransda ən məqbul vəziyyət yatmaqdır ki, çox insan elə bunu da edir.

Bilmirəm məramımı anlada bilirəm, ya yox, lakin özümü rahat hiss etməyə başladım. Qaldı yazının bağlanması və bunun birinci səhifəmizdəki yazı ilə əlaqəsi. Qələmindən ləzzət aldığım əməkdaşımızın yazısını oxuyanda bir söz məni tutdu: Nüsrət Kəsəmənlinin "Daha nağıllara inanmıram mən" sözü. Ürəyimdən vurdu bu söz və dedim mütləq yazmalıyam. Diasporumuzun son zamanlardakı məsələlərini bundan gözəl anlatmaq olmazdı. Yazımı yaxşısı Nüsrət Kəsəmənlinin şeirindən bir misra ilə nöqtələyirəm:

Acı həqiqətlər bal dadır indi,
Arısı olmayan bal satır indi,
Keçəli saçlılar aldadır indi,
Daha nağıllara inanmıram mən!

*27 aprel, 2007-ci il*

## 10 MAY

**Bu tarix Azərbaycan tarixində və biz, xaricdə yaşayan azərbaycanlılar üçün çox önəmli bir gündür. Azərbaycan və Azərbaycan xalqının bu günlərə gəlib çatmasında bir öndər olaraq çıxan**

və ömrünü bu yola həsr edən bu böyük şəxsiyyətin Azərbaycan yolunda atdığı addımları anlatmaq sətirlərə sığmaz. Biz bunu belə bildik, belə gördük. Bilirsiniz, çox maraqlı məqamlar var. Mən Türkiyədə doğuldum, orada təhsil aldım, ta uşaqlıq illərimdəm, əlim qələm tutandan Mustafa Kamal Atatürkün adı ilə tanış oldum. Yaşım ötdükcə bu böyük şəxsiyyəti bir az daha çox tanımağa başladım. Əvvəllər onun barəsində mənə anladırdılar, lakin sonralar özüm oxumağa başlayanda maraqlanmağa və araşdırmağa başladım. Daha çox tanıdıqca Atatürkün Türk dünyasının lideri adını necə aldığı mənə daha da aydın oldu. Gənclik illərimdə onu xəyal etməyə başladım və "keşkə bu böyük insanı tanıya bilsəydim". Amma nəsib deyilmiş.

Lakin qədərə baxın ki, bir lideri görə bilmədim, amma gələcək bir lideri görmək nəsibim imiş. Allahın sevimli qulu idim, 1995-ci ildə haqqında çox duyduğum Türk dünyasının ikinci liderini görmək, onun tam yaxınında olmaq, göz-gözə gəlmək və onunla söhbət etmək mənə, bir türk övladına nəsib oldu. Yazılarımda onun mənim üzərimdəki təsiri və həyatımdakı böyük rolunu dəfələrlə yazmışam. Bir diaspor təmsilçisi kimi bizə göstərdiyi qayğını dəfələrlə yazmışam, bu gün sizin oxuduğunuz bu qəzetin ən yüksək köşəsində onun şəkli var, üçüncü səhifədə onun dəyərli sözlərindən biri var.

Birinci səhifəmizdə isə bu dahi insanın doğum günü ərəfəsində onun yolunu izləyən bizlərin ulu öndərə dərin sayğısı və hörmətini bildirən yazımız var. Nə etsək də azdır, lakin bir şey bizi qane edir ki, bizlər onun yolunda qərarlı və dik gedirik, göstərdiyi hədəflərə addım-addım yaxınlaşırıq.

Bu iki lideri məndə birləşdirən bir qəribə bənzərlik daha var, ilahi təsadüf də demək olar buna, biri 19 may 1818-ci ildə, dünyaya gəlmiş Əli Rza oğlu Mustafa Kamal Atatürk, digəri 10 may 1923-ci ildə dünyaya gəlmiş Əli Rza oğlu Heydər Əliyev. Bəli, baxın bu Allahın hikmətinə. Əslində, İlahi bənzərlik demək olar. Hələ bu iki şəxsiyyətin həyatında çox bənzərliklər var. Bunları burda sıralamaq istəmirəm, amma tövsiyə edirəm ki, oxuyun və bənzərliklərin özünüz şahidi olun. O vaxt mənim hərəkətlərimi hiss edəcəyinizə inanıram.

Ulu öndərimizə və iki dövlətin qardaşlığının simgəsi olan iki böyük insanın 9 gün fərqi ilə dünyaya gəldikləri günü bütün türk dünyasına məmnun olmasını arzulayıram. Nə yaxşı ki, onlar varmış, nə yaxşı ki, Türk dünyasına iki böyük lider gəlib, onların hər ikisini sayğı və sevgi ilə anıram.

*15 may, 2007-ci il*





## *KONQRESLƏR!*

**Bu sözü eşitdim-eşidəli ürəyimdə ağrı hiss edirəm. Səbəbini sormayın, çünki anlatmaq çox çətindir. Gəlin, öncə bu konqres sözünün mənasını bir az açaq. "Konqres" sözü nə bizim, nə də türk lüğətlərində yoxdur. Bu söz bizə Amerikadan gələn bir sözdür. Hər eşitdiyimizdə bizə ya müharibə, ya da erməni lobbisinin fəaliyyətindən xəbər verir. Deməli, Amerika Senatının önəmli məsələlərdə bir yerə yığılıb qərar aldığı iclasın adıdır konqres. Bu konqresin ən maraqlı icrası da lobbi fəaliyyətləri təsiri altında qərar alınmasıdır. Yəni Amerikanın milli mənfəətləri, iqtisadi çıxarları və özləri üçün maraqlı olan ölkələrin çıxarları əsasında qərarlar verməsi ilə tanınır bu konqres.**

İndi isə keçək son zamanlarda bizim gündən-günə yaratdığımız konqreslərə. Biz bu konqresin ancaq adına maraq salmışıq, ad bizə çox maraqlı gəlib. Elə maraqlıdır ki, dayanmadan gündə birini yaradırıq. Özü də fərqinə varmadan, bir yerdə iki-üçünü, hətta dördünü yaradırıq. Mən, bütün bu konqreslərin hamısının adını təkrarlamaq fikrində deyiləm, sadəcə sonuncunu deyim ki, Almaniya Azərbaycanlıları Konqresi, yəni AAK. Bu ad bizə tanışdır. Çünki Almaniyada iki il əvvəl qurulmuş digər bir AAK da var (Avropa Azərbaycanlıları Konqresi, Berlində qurulub). İndi deyəcəksiniz bəs Almaniya Avropa deyil ki, bundan iki dənə var? Bu önəmli deyil, çünki bizi bunların görəcəkləri iş, ya da fəaliyyət proqramları maraqlandırmır, önəmli olan buna konqres adının verilməsidir. Ad nə qədər çox olsa, o qədər yaxşıdır!!!

Bir ara elə həvəsləndim, elə maraqlı gəldi ki mənə, dedim bəlkə birini də mən yaradım, çünki bu adı yaradanlar "çox bərk gedirlər". Düşündüm adımız çəkilsin, bizi də yada salan olsun deyə bir konqres də mən yaradım. Elə öz-özümə müzakirə edirdim, düşünürdüm, iki hərfi vardı (AK), bunun önünə isə bir hərf daha lazım idi. Fikirləşdim ki, bu öndəki hərf nə olsun, mən düşünürkən baxdım bizim qonşu ölkə Hollandiyada həmvətənlərimiz birini də qurdu-BAK. Təəssüfləndim. Ümidlərim, xəyallarım yıxıldı, dedim yubandıq, gör nə oldu? Bir az da incidim sözün doğrusu, Hollandiyada niyə BAK, heç olmasa, HAK olaydı, BAK-ı mən yaradaydım. Çünki mənim yaşadığım ölkə Belçikadır, bu ad əldən gedəndə mənə qaldı yaxın ölkə Lüksemburq. Dedim bəlkə LAK qoyum. İndi bunu fikirləşirəm, amma bu dəfə əlimi bir az tez tutmalıyam, baxdın bu da getdi. Düzdür, digər bir ölkə də yaxındır bizə, Fransa. Bəli, FAK var, hələ ki, bu iki ad durur, cəld

tərpənsəm, LAK və ya FAK-ı mən qura bilərəm. Amma bu iki ölkədə yaşayan həmvətənlərimə haqsızlıq olar, deyə narahatam.

Yeni qurulacaq AAK-a "xeyirli olsun!" deməkdən başqa dilimdən bir söz gəlmir. Adı böyük bu qurumumuzun yaradılması bəlkə Azərbaycan diasporuna uğur gətirəcək, adaşının aqibətindən xəbər alamadıq, heç olmasa bu bəlkə bir iş görər.

Bir də narahatam ona görə ki, bunun sədri kim olacaq. Beynimdə bir-iki ad dolaşır, amma hansı olacaq qərarını verə bilmirəm. Xeyirli olsun! O da önəmli deyil, yetər ki, konqres adı olsun.

Mən indi araşdırmaya başladım. Bir sürpriz edəcəm, bütün həmvətələrimi təəccübləndirəcəm. Heyrətlər içinə düşəcəklər, amma hələ araşdırıram. Amerikada bu konqresdən böyük nə tapa bilərəm, tapdığım gün tez yaradacam. Bu dəfə öndən iki hərf hazırdır, "BA". Sonuncu hərfi tapsam, tamamdır, quracam. Özü də heç kimə heç nə demədən. Tez quracam, yoxsa, bu da əldən gedər, mən neyləyərəm? Əslində öz adımın baş hərfi özümə aiddir-"B", problem yoxdur, BGK ola bilər, yəni Bülent Gürçam Konqresi.

Nə olar ki, bura Avropadır, demokratik ölkədə yaşayırıq, bir gündə qeydiyyatdan da keçirərəm. Beləliklə, öz konqresimi yaradaram. Kimə nə? Yetər ki, sonunda konqres sözu olsun. Xeyirli olsun!

*30 may, 2007-ci il*

## AĞRI DAĞI VƏ ERİK FAYQL

**Son günlərdə Türkiyə gündəminə oturan Ağrı dağı şənlikləri xəbəri istər-istəməz Erik Fayqlı xatırlatdı mənə. Bilməyən dostlar təbii ki, soracaqlar kimdir Erik Fayql? Erik Fayql avstriyalı bir elm adamı idi, özünü Türk dünyasına adamış və Türk dünyasının haqlılıqlarını avropalılara öz dillərində anladan yeganə dostumuz idi, saysız əsər yazmış və erməni yalanlarını isbat edən bir Türk dostu idi, yaşlanmışdı, yorulmuşdu, üzgün idi son gördüyümdə, dəfələrlə yan-yana oturub söhbət etmək fürsətı bulmuşdum, mənə çox qürur verən ifadələri vardı, onu dinlədiyimdə, Türkün dostu yoxdur sözünün yalan olduğunu düşünürdüm, o da ayrı bir qürur idi mənim üçün.**

Ən son 2006-cı ilin 26 fevral günü bərabər idik, Brüsseldə Xocalı soyqırımını anma günündə konfransımıza qatılmışdı və orada bir çıxış etmişdi. O çıxışı hələ qulaqlarımda, o sözləri ömrümün sonuna qədər unutmayacağıma söz verdim və çox qısa zaman sonra da bir yazı yazdım bununla bağlı. Yazımın adı " Hamımız Erik Fayqlıq "idi.

Niyə belə bir yazı yazmışdım, bir azdan anladacam, dönək mövzumuza. Bəli, Erik Fayql 2006-cı ildə Xocalı soyqırımını anma konfransında eynilə bunları demişdi : "Türkiyəni anlamaq mümkün deyil, özünü düşmən hesab edən bir dövlət, öz dövlət emblemində Türkiyə sərhədləri daxilində yerləşən bir dağı (Ağrı dağı) qoymuş. Bu beynəlxalq qanuna görə savaş səbəbidir. Məsələn, Fransa eyni şeyi almanlara qarşı etsə, almanlar bunu savaş səbəbi sayar, ancaq Türkiyə illərdən bəri bu işə göz yumur, bunu anlaya bilmirəm.» Bəli, eynilə belə demişdi. Biz, salonu dolduran Türklər, içimizdə rəsmi simalar da vardı, hamımız utanıb başımızı önə əymişdik. Bu sözləri bir avstriyalı insan demişdi, yəni bir avropalı idi bütün bunları deyən.

Erik Fayql aramızda yoxdur artıq, ruhu şad olsun, keşkə yaşasaydı bizim Ağrı dağına sahib cıxdığımızı görsəydi, keşkə yaşasaydı da, onun sözünün bizi oyandırdığını görsəydi. Ölümü illərlə yalanlarını isbat etməyə çalışdığı bir xalqın övladının ölümü ilə arxa-arxaya düşdü, Hrant Dinkin ölümündən bir neçə gün sonra itirdik. Türkiyə mediasında bir kəlmə belə yazılmadı, ömrünü adadığı millət onu bir gün belə anmadı, minlərcə insanın əllərində "Hepimiz Hrant Dinkiz! " yazıları ilə yürüdüyü sırada vəfat etmişdi Erik Fayql. Mən yazımda başlıq olaraq yazmışdım " Hamımız Erik Fayqlıq!". Yazımın bir yerində isə, özü müsəlman olmasa da, Allahdan ona rəhmət diləmişdim, Türkün haqlı davasını ondan daha çox müdafiə edən olmamışdı, erməni yalanlarını dünyanın gözünə soxmuşdu. Dəfələrlə təhdid edilmişdi, ermənilər tərəfindən, amma usanmamışdı, yazdı və yazdı. Azərbaycanın yarası Qarabağ problemini də dünyaya onun qələmindən duyurmuşduq. Azərbaycanı çox sevmişdi, Azərbaycan Prezidenti onu dövlət medalı ilə mükafatlandırmışdı. Duyduğuma görə vəsiyyətində Azərbaycan torpaqlarında dəfn edilməsini istəmişdi, arzusu yerinə keçmədi amma. Allah rəhmət etsin, məkanı cənnət olsun, bizlərin ürəyində yaşayacaq.

Bu Ağrı dağı şənliklərində təklifim odur ki, onun üçün bir dəqiqə sayğı duruşunda dursunlar, şəkli gənc nəslimizin yaxasına asılsın və mümkünsə əllərdə "Hamımız Erik Fayqlıq" yazılı pankratlar olsun.

*14 iyun, 2007-ci il*

# DİASPORUN GÜCÜ!

**Belçika Azərbaycan Evi» və "EURO Xəbər" qəzeti qurulduqları gündən bu yana Avropa ilə Azərbaycan arasında çox sıx əlaqələr qurulmasında böyük rol oynamış, Avropada diaspor hərəkatında çoxlu sayda layihələr və fəaliyyət proqramları hazırlamışdır. Qəzetimizdə, indiyə qədər izlədiyiniz kimi, ancaq milli liderimizin cızdığı Azərbaycan yolunda səy göstərmişik və bu belə də davam edəcək. Lakin müəyyən məsələlərdə müxtəlif çətinliklər çəkirik, bunların başında isə diasporumuzun bir çatı altında toplanmasıdır. Göstərdiyimiz əzm bu günlərdə göstərir ki, müəyyən səviyyədə biz diasporumuzu birləşdirmək məsələsində nəyəsə nail oluruq.**

Hal-hazırda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor nümayəndələrimiz ilə sıx əlaqələr qururuq, cəmiyyətimiz və qəzetimizin reytinqi yüksəlir, Brüssel və Bakıda olan ofislərimizin sayı artır. Sıra ilə göstərsək Ankara-İğdır-Fransa-Turne (Belçika) nümayəndəliklərimizdən sonra, Naxçıvan MR-də də ofisimizin açılmasına qərar vermişik.

Bunların hamısı siz həmvətənlərimizin sayəsində əmələ gələn işlərdir, sizlər bizə ilgi göstərdiniz, əlaqə yaratdınız ki, biz bu qısa zamanda bu səviyyələrə çatdıq. İndi isə gündəmimizdə öz ideyamız olan Azərbaycanı Tanıtma Fondunu Belçikada qeydiyyatdan keçirmək ərəfəsindəyik. Bu qurum da öz nəzdində ölkəmizi tanıtmaq və hörmətli Prezidentimizin informasiya hücumuna keçmək fikrindən əmələ gəlib. Biz artıq bu sözü öz öhdəmizə götürmüşük və hal-hazırda birinci səhifəmizdə oxuduğunuz kimi bir sıra rayonlarımızla Avropanın (Belçika) müəyyən şəhərləri ilə "Qardaşlaşmış şəhərlər" layihələrini həyata keçiririk. Mən artıq bununla bağlı qəzetimizin əməkdaşları ilə birgə Lənkəran və Naxçıvanda işgüzar səfərlərdə olmuşam.

Fürsətdən istifadə edib burdan Lənkəran və Naxçıvanın icra başçılarına öz minnətdarlığımı bildirirəm, onlar artıq diaspor ilə birləşməyin ölkəmizə nə kimi xeyirlər gətirəcəyini çox gözəl düşünüblər və bizlərin öz rayonlarında işləməyimizə yüksək köməklik göstəriblər.

Artıq ölkəmizin qurumları ilə diaspor təşkilatlarımız əl-ələ verirlər, mənə elə gəlir ki, artıq bu gücün önündə durmaq olmaz. Yaşasın milli birliyimiz!

*29 iyun, 2007-ci il*





# 45 İL

**İnanın, o qədər də yadımda deyildi, 29 iyun doğum günüm olduğunu təbii ki, bilirdim, amma 45 il birdən nədənsə yadıma düşməmişdi. Qəzetimizdən mənə deyəndə ki, Bülent bəy, sizin 45 illiyinizdir, icazə versəydiniz sizin barənizdə bir səhifə hazırlayardıq, öncə acizanə sevindim. Bu normal haldır ki, bir adamın barəsində nəsə gözəl şeylər yazılacaqsa, istər-istəməz sevinir, baxmayaraq ki, biz elə mətbuatın içində yaşamışıq.**

Bəli, bir an sevindim, amma sonra yaşımın sayı deyiləndə istər-istəməz daldım getdim uzaqlara və üç gündür öz-özümdə müzakirə edirəm. Azərbaycanda yubiley deyirlər, bəli mənə deyəndə ki, Bülent bəy, sizin yubileyinizdir, bir an başqa şeylər düşdü yadıma. Mən bu sözü Türkiyədə jurnalist işləyəndə futbol yarışlarında eşidirdim "jubile" (yubiley), yəni futbolçuların artıq futbola vida etdikləri andır, deyərdilər ki, filan futbolçu "jubilesini yapdı", yəni artıq oynamayacaq, yaşı icazə vermir. Əslində, mənim oyun sahəm tamamilə fərqlidir, mən bu 45 ilə dönüb baxanda Azərbaycandan başqa heç nə görə bilmirəm. Yəni illər boyu mənim həyatımda Azərbaycanın önünə heç nə keçməyib, keçirməmişəm. Bu gün də bu məsələ eynilə belə davam edir. Yubileyimdir deyə, sevinənlərə bir-iki sözüm var: sevinməsinlər ki, mən artıq futbolçuların etdiyi yubileylərdən keçirirəm, mənim bugünkü yubileyim yenidən qayıdışdır, Azərbaycan diasporuna yeni bir başlanğıcdır, çünki daha görəcəyimiz çox işlər var.

Mən burada keçmişdə gördüklərimizi anlatmaq istəmirəm, icazə versəniz, gələcəkdə edəcəklərimizdən danışım, yubileydən sonrakı həyatı yaşamaq istəyir könlüm sizlərlə.

Birincisi, Azərbaycanımızda yeganə diaspor qəzeti olan və hal-hazırda bir çox ölkədə təmsilçisi olan əlinizdəki bu qəzeti Azərbaycanın ən sevimli və ən doğru, səmimi qəzeti etməkdir niyyətim.

İkincisi, Azərbaycan diasporunun və Azərbaycanın tanıdılması uğrunda başladığımız səfərbərliyi daha da qərarlı, daha da aktiv hala gətirmək, bütün təşkilatlarımızın birliyinə nail olmaq və informasiya hücumunu davam etdirmək.

Bizi tanıyanlar, bizi izləyənlər çox yaxşı bilirlər ki, azərbaycançılıq uğrunda heç səhv buraxmadıq, bundan sonra da buraxmayacağıq. Ətrafımızdakı gənc kadr getdikcə böyüyür və hamısı Azərbaycan dövlətçiliyi uğrunda əmin addımlarla bizi izləyir, bizlər isə ulu öndərimizin

çızdığı yolda heç səhv buraxmayaraq davam edirik və edəcəyik, bundan hər kəs əmin olsun!

Yolumuz uzun, hədəfimiz yaxındır, bu günə qədər getdiyimiz yolun doğruluğuna inanırıq, gördüyümüz bütün işlər Azərbaycan xalqına xeyirli olub, bundan sonra elə də olacaq.

İnformasiya hücumundakı sürətimiz davam edir, bu il bir kitab çıxardıq, çalışacağıq ki, bunların sayını artıraq. Təbii ki, bu işlərimizə dəyər verdiyiniz müddətcə biz eyni sürətlə davam edəcəyik.

Təkrar edirəm, yubileyimdir deyə, heç kim sevinməsin. Məncə düşmənlər qorxsa yaxşıdır, bu dəfə bir az daha tələsirəm, yaş keçir, vaxt azalır. Gördüyümüz xidmətlərin bəhrəsini görmək istəyir insan, ona görə işimizə yenidən başlayırıq, birlikdə olduğumuz hər kəsə sevgi və sayğılarımı bildirirəm, bizi izləyin! Sağ olun!

*13 iyul, 2007-ci il*

## DAK-da SULAR DURULDUMU?

**DAK-ın qurultayı 9-cu dəfə toplandı. Yenə min bir zəhmət, min bir çilə, viza problemləri, yol çətinlikləri ilə Almaniyanın Köln şəhərində gurultulu-parıltılı bir konqres daha keçdi. Biz qatılmadıq! Çünki dəvət olunmamışdıq, biz DAK-ı tənqid edirdik, doğruları deyirdik, gerçəkləri yazırdıq, buna görə də bizim orda olmağımız lazım deyildi, elə də oldu, biz getmədik.**

Lakin gedənlərin dediklərini ətraflı və maraqla dinlədik. Bizi çox maraqlandırır, çünki biz DAK-ın artıq əridiyini və adına layiq nə bu günə qədər, nə də bundan sonra hansısa bir iş görəcəyinə inanmırıq.

Bu bizim fikrimizdir, bizim izlədiyimiz qədər bu belə olub, bu günə qədər yazdığımız və etdiyimiz tənqidlər tamamilə doğru çıxdı. Keçmiş sədrin DAK-ı problemlərin içinə atdığını demişdik, elə də oldu. Və artıq o sədr deyil və verdiyi ilk müsahibəsində artıq tükəndiyini açıqca etiraf etmişdi.

DAK qurultayında müəyyən dəyişikliklər olub, amma yenə də heç nə yoxdur. İdarə heyətində olanlar elə həmin adamlardır, yalnız məclis deyil, idarə heyəti adını aldılar. Xeyirli olsun! Başda təşkilatçılığına güvənə biləcəyimiz, bizim də sayğı duyduğumuz Qulamrza Səbri Təbrizi bəyə öz təşkilatımız, qəzetimiz və şəxsən öz adımdan ürəkdən təbriklərimi





çatdırıram. Xeyirli, uğurlu olsun! Lakin bir şeyi də xatırlatmaqda fayda görürəm ki, biz yenə də DAK-ın fəaliyyətini izləyirik, gözəl işləri öyməyə hazırıq, kömıəyə də hazırıq. Lakin düzgün olmayanları da deyəcəyik, özü də tənqidi bir üslubda. Çünki bu məsələnin ən yaxın təqibçisi bizik.

DAK bu günə kimi gerçəkləri görməmək, öz öhdəsinə düşən işləri yetərincə başa düşməmək, Avropanın ən mühüm yeri olan Brüsselin yolunu tapmamaq kimi səhvlər buraxdı, ona görə də DAK adının öhtəsinə keçə bilmədi. Bütün bunlara baxmayaraq, böyük adı ilə anıldı, bu gün isə bizim arzumuz odur ki, DAK layiq olduğu yerlərdə təmsil olunsun, əks-təqdirdə bu 9-cu qurultay DAK-ın ən son konqresi olacaq, bundan hər kəs əmin olsun! Çünki boş və böyük sözlərlə, xəyal aləmində yaşamaqla mücadilə aparmaq olmaz. Mücadilə gerçəklər üzərində aparılmalıdır, düzgün planlar ətrafında işləmək lazımdır, ideya vermək və onları həyata keçirmək lazımdır. Beynəlxalq təşkilatlarla sıx əlaqələr qurulmalı və özünə maddi imkanlar tapacaq mənbələr aramaq lazımdır. Lakin bu günə qədər təəssüflər olsun ki, bunların heç biri olmayıb və DAK bügünkü vəziyyətinə düşüb.

Səbri bəy, işiniz asan olsun, çox çətin bir quruma sədrlik edəcəksiniz, nə vəziyyətdə olduğunuzu sizin qədər biz də bilirik. İşiniz çox çətindir, lakin düzgün insanlarla işləsəniz, gənc insanlarımızı ön plana çıxarsanız, işlərinizin gedəcəyinə inanıram. Əks-təqdirdə, çox qısa zamanda ərizənizi verib getməyinizə bizim ürəyimiz razı olmayacaq. Sizə güvənirik, çətinlik içində olan bu qurumumuzu, İnşallah, düz bir yola çıxarmağı bacararsınız.

Sizi təbrik edirəm, cansağlığı və müvəffəqiyyətlər arzulayıram.

*31 iyul, 2007-ci il*

## DİASPOR İŞİNDƏ MƏDƏNİYYƏTİN ROLU

**1970-ci illərin əvvəli idi, İğdırda orta məktəbdə oxuyurdum. Ürəyimizdə bilmədiyimiz bir həsrətin, tanımadığımız bir arzunun, bir ölkənin incə-incə ağrısı ilə tələbəliyimizi davam etdirirdik.**

Hər şey dumanlı idi. Ailə böyüklərimizin anlatdıqları çox az məlumatlarla həsrətimiz getdikcə daha da dərinləşirdi. Azərbaycan türkü idik, atalarımız erməni zülmü, sovet oyunlarının qurbanı, bizlər isə istəmədən diaspor olmuşduq.

Adət-ənənələrimiz, ləhcəmiz, mədəniyyətimiz fərqli idi, ilk məktəb

illərində (1-2 il də İstanbulda oxumuşdum) məktəb yoldaşlarım mənim ləhcəmlə zarafat edirdilər. Tənəffüslərdə ətrafıma yığışıb danışmağımı istəyirdilər, mən danışanda isə gülməyə başlayırdılar, çünki mənim dilim onların dilindən fərqli idi.

Elə həmin illərdə televizorlar yeni yaranmışdı, hamının evində olmasa da, camaatın toplu olduğu yerlərdə vardı və baxılırdı. Bizim İğdırda televizor gələndə türkcə yayım yox idi, yaxın olduğumuz üçün ya Rusiya yayımlarına, ya da İran kanallarına baxırdıq. Qarışıq bir halda, dilini başa düşmədən gecə-gündüz bu yayımlara baxırdıq. Azərbaycanımızı ilk dəfə o həyəcanların içində tanıdıq, düzdür əlimizdə kasetlər vardı, amma canlı olaraq, bir azərbaycanlını görmək o zamanlarda nəsib olmuşdu. İçimizdə sevgi vardı, həsrət vardı. Amma bir də şübhə vardı, "görəsən, görəcəyimiz insanlar bizə nə qədər də bənzəyirlər" deyə bir həyəcanımız da vardı.

O illərdə Zeynəb Xanlarova birinci dəfə sovet kanalında çıxanda biz artıq gerçək və arzuladığımız bir diaspor olmağa başladıq və mənim ürəyimdə mücadilə və ölkəni görməyi arzuladığım illərdir bu. 70-ci illərin əvvəli və mən artıq kiril əlifbasını da öyrənmişdim, artıq əlaqələr qurmanın yollarını arayırdım.

Bəli, bizi, yəni Qərbi Azərbaycandan köç etdirilən Azərbaycan Türklərinin, Türkiyədəki Azərbaycan diasporunun təməlində mənə görə Azərbaycan incəsənətinin olduğuna inamımdır, mədəniyyətimiz bizə yolları açan yeganə körpü olub, həsrətimizi mahnıların ətrafında yoğurduq və bugünkü durumumuza belə gəldik. Keçdiyimiz günlərdə AZTV-də Zeynəb xanımın həyat və yaradıcılığından bəhs edən verilişi seyr edəndə o günləri bir daha yaşadım və bugünkü əlinizdəki qəzetimizdə də elə bu məsələni açdıq, siyasətin öz yeri, mədəniyyətin öz yeri var. Bizim diasporumuza isə mədəniyyət bəs edir!

*15 avqust, 2007-ci il*

## SON GÜNLƏRDƏ NƏ İSƏ OLUB!

**Son günlərdə nə isə olub, fəaliyyətimiz normal gedir, lakin mən yazı yaza bilmirəm. Bəli, yazı yaza bilmirəm, daha doğrusu həvəs olmur yazmağa. Deyəcəksiniz bəlkə mövzu yoxdur? Yox, mövzu çoxdur, amma mən yaza bilmirəm. Əslində, son günlərdə çox şey vardı, amma mən yaza bilmirəm. Bilirsiniz, mənim məsələm diaspordur, yəni harasından başlasam yazımın sonu gəlir bu məsələyə dayanır.**

Diasporumuzda işlər heç cür düzəlmir, hamı ağız dolusu diaspordan danışır, amma ortaya bir yol cızan, düzgün proqnoz qoyan bir nəfər çıxmır. Biz arada-bir istəyirik düz bir yol cızaq, onu da bizim diaspordakı "daşnaklar" qoymur.

Daşnak dedim, mövzunu bir az aydınladım. Birinci səhifəmizdə gördüyünüz kimi ermənilərin bizim etmədiyimizi içlərindən "insaflı" bir daşnak çıxıb edib və daşnak ermənilərin gerçək üzünü göstərib. Mehmet Perinçekin yazdığı bu kitab kaş ki başqa dillərdə də çap oluna ki, bu dünya ermənilərin iç üzünü tam görə bilsin. Kitabın tamamını oxumadım, amma Mehmet Perinçek uzun müddətdir bizdə yazılar yazır, rus dilini gözəl bilir, mütləq sağlam araşdırma apardığına inanıram.

Budur, ermənilərin içindən, daha doğrusu daşnakların içindən necə bir "insaflı daşnak" çıxırsa, bizim də içimizdən "insafsız daşnaklar" çıxır. Bəli, düz oxudunuz "Daşnaklar". Siz elə bilməyin ki, ermənilərin diaspora işinin düzgün getməsində ancaq erməni daşnaklarının rolu var, əsas erməni ruhu daşıyan içimizdəki daşnaklar onlara kömək edir və ya bizlərə əngəl olub onların qabağa keçməsinə kömək edirlər.

Mən bunun 45 illik həyatımda və biraz bundan az təşkilatçılıq yaşamımda çox şahidi oldum və bu günlərdə yenə də oluram.

Bilirsiniz, özü də diqqət etdim ki, bu içimizdəki daşnaklar tam bizim fəaliyyətimiz hərəkətlənəndə ortaya çıxırlar, yəni il boyu deyil, arada-bir tutur bunların daşnaklığı, nə zaman ki, biz bir gözəl iş adı çəkəndə, baxırsan göbələk kimi partlayıb çıxdılar. Əslində, zəhərli göbələk olmasalar, toplayıb rus üsulu turşusunu qoymaq olar, amma güvənilmir.

Mənim haqqımda dedikləri isə çox maraqlıdır, gah kürd deyirlər, gah erməni deyirlər, gah Əfqanıstandan danışırlar, gah ağızlarına nə gəldi deyirlər. Əslində, özləri də bilmir nə deyirlər, içlərindəki daşnak ruhu bu insanları heç cür rahat buraxmır. Azərbaycan üçün edilən hər gözəl şey sanki bunların ürəyinə saplanan bir xəncərdir. Əslində, bundan həzz almıram desəm yalan olar, mənə doğrudan ləzzət verir. Bunlar parladıqca mənə ləzzət edir, daha artıq iş görmək istəyirəm, bu yaxınlarda bunların tam partlayacaqları bir iş çıxacaq. Dünyada tayı-bərabəri olmayan bir layihəmiz var, mən inanıram ki, bəlkə də ermənilər belə bunlar qədər üzülməyəcək.

Bəli, qiymətli oxucular, siz bunların kim olduğunu yəqin ki, anladınız.

*30 avqust, 2007-ci il*

# OCAĞIN SİRRİNİ KÜLÜNDƏN SORUŞ!

**Bu söz bir Azərbaycan şairinə aiddir. Keçdiyimiz günlərdə bir internet saytında oxunurdu və yalnız bu söz eşidiləndə mən girdim və sözü eşidər-eşitməz bir yerə qeyd etdim, dedim lazım olar. Bu gün yazımı yazanda birdən yadıma düşdü və dedim bəlkə yazımın başlığı elə bu olsun. Düzünü desəm, əlim-ayağım soyuyub, iki saydır yazı yazmaq istəmirəm. Təkcə yazı yazmaq deyil, heç nə etmək istəmirəm. Dəfələrlə yazdım ki, mənim işim Azərbaycanın tanıdılması, lobbiçiliyi və diasporudur. Lakin bunları yazmaqdan və yazarkən yanlış anlaşılmaqdan bezdim, usandım. İndi deyəcəksiniz Vətən müharibəsindən usanılarmı? Bilirsinizmi, mən doğruları başa salmaqdan usandım, incidim və qırıldım. Özü də bir dəfə deyil, dəfələrlə ürək ağrısı çəkdim. Qəzetimiz çıxır və sizlər bu qəzeti artıq qəbul edibsiniz və bir mənə görə bu qəzetin dayanmasına da ürəyim razı olmur. Məcburən də yazıram, deyə bilmədiklərimi yazıram, düzəldə bilmədiklərimizi yazıram və hal-hazırda ürək ağrısı ilə yazıram. Yenə də deyirəm, İnşallah, səhv başa düşülmərəm.**

Bəli, gələk, yazımın başlığına: "Ocağın sirrini külündən soruş". Maraqlı bir sözdür, ağlınıza analarımızın xörək bişirdiyi ocaq gəlmirsə! Bu sözü başqa anlamda yozmaq, ya da başqa mənada başa düşmək olar.

Məsələn, "ocaq" sözünü oğuz dilində ev, yaşayış yeri, insanların *toplandığı yer, köç edən xalqların qurduğu çadır və şair anlamındakı kimi* başa düşsək, mən də bunu gətirib bizim xalqımızın diaspor hərəkatı ilə bağlaya bilərəm. Hətta xalqımızın birlik və bərabərlik vəziyyətinə duyduğumuz həsrəti birmənalı qurtuluş ocağı kimi də görmək olar. Ocağın "sirri" deyəndə isə, diaspor tərəfindən baxsaq, bügünkü diasporumuzun vəziyyətini və heç cür birlik və bərabərlik içinə girməməyin sirri kimi görmək ya da anlamaq olar.

"Kül" söhbətinə gəldikdə isə, bu sözü də ömrünü diaspora adamış, dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlılarımızı görmək və onların vəziyyətinə göz gəzdirmək mənasında anlamaq olar.

Məsələn, mənə elə gəlir və mən uzun illərdir bu sözü deyirəm, xaricdə Azərbaycanımızı tanıtmaq, birliyə nail olmaq, gücümüzü birləşdirməyin yeganə yolu Azərbaycanın xaricdə yaşayanlarına qulaq vermək, onlarla iş birliyini düzgün qurmaqdır. Onların səsinə, istəklərinə, təkliflərinə qulaq asmaqla, yəni sözün əsl mənasında diasporu yaşayan insanlarla qurmaq olar və ancaq bu şəkildə inkişaf edə bilər.

Bizim düşmənimiz xaricdə yaşayan diasporuna geniş imkanlar yaradır və nəticəsini də görür. Bizdəki bir neçə adam bunu bilirsinizmi necə başa düşür? "Erməni diasporu" deyəndə tez cavab verirlər: "bilirsən, nə var, onlar əsrlərdir xaricdədir, diasporlarının pulu var, onlara zəngin erməni iş adamları kömək edir". Bəs biz, bizim əsrlərdir xaricdə yaşayanımız yoxdurmu? Var, amma varlığından xəbərimiz yoxdur.

Bizim xaricdə iş görən zəngin azərbaycanlımız yoxdurmu? Var. Həm də elələri var ki, erməni iş adamı onun əlinə su tökə bilməz. Gəmiləri olanımı deyim, dünyada tayı-bərabəri olmayan maşınlara minənimi deyim, dünyanın dörd bir yanındakı iş adamlarımızımı deyim, bəs hansını deyim?

İndi sizdən soruşuram, bu qədər gücü olan bir diaspor niyə istənildiyi kimi inkişaf edə bilmir?

Burda söz mənim yazımın başlığındadır: "Ocağın sirrini külündən soruş"!

***14 sentyabr, 2007-ci il***

# NURİ PAŞA

**Yəqin ki, irili-xırdalı hamımızın ailəmizdən eşitdiyimiz bir addır Nuri Paşa. Osmanlı İmperiyasının çöküşü dönəmlərinə rast gəlmiş, 89 il öncə özünə aid ordu ilə Bakıya girib və Bakını o vaxtlarda bolşevik istilasından qoruyub.**

Qəzetimizdə bu tarixi hadisəni ingilis və Azərbaycan dillərində geniş şəkildə işləmişik. Mən burada bu tarixi təkrar anlatmaq fikrində deyiləm. İcazənizlə, mən bu Şanlı və Qanlı ildönümünə başqa bir tərəfdən baxacam və bu zaman siz də özümüzü beynəlxalq aləmdə niyə tanıda bilməməyimizi, haqlı davalarımızı xaricilərə niyə başa sala bilməməyimizi anlayacaqsınız.

Mövzuya elə Nuri Paşadan başlayaq. Bu böyük şəxsiyyət və Bakının xilaskarı, bizim bu günlərə gəlməyimizin səbəbkarı Nuri Paşa ilə bağlı yazı yazmaq istəyərkən şəklini tapa bilmədik. Əməkdaşlarımıza Nuri Paşanın at üstündə (çünki bildiyimiz qədəri ilə Nuri Paşa Bakıya suvari birliyi ilə girmişdi) gözəl bir rəsmini birinci səhifədə verək, dedim. Lakin təəssüflər

olsun ki, əməkdaşlarımız bütün internet saytları və eləcə də Bakıdakı Atatürk Mərkəzinə müraciət etsələr də bir nəticə verməyib.

Elə məsələmiz də burdan başlayır. Bu insana ki, bu gün bayram edirik, onun adına nəinki Bakıda heykəl, heç şəkil də yoxdur. Bəs bu necə vəfadır, necə tarixə sahib çıxmaqdır, necə özümüzü xaricə anlatmaqdır? Bilirsiniz, biz hər zaman bizə qarşı törədilən haqsızlıqlara özümüzü sərf etmişik, özümüzü küçələrə atıb bağırırıq. Lakin heç vaxt özümüzü anlatamamaq kimi zəifliyimizi önümüzə qoyub düşünmürük.

İndi gəlin, papağımızı önümüzə qoyub fikirləşək, əcəba günah bizdəmidir, yoxsa tariximizi oğurlayıb dünyaya öz tarixləri kimi tanıtdıranlardamıdır? Bunun cavabını mən bir az anlatmağa çalışdım, əslində, bu çox uzun yazı da ola bilərdi. Lakin buna gərək duymadım. Sual çox net və qısadır: bu günü bəxş edənlər siyahısında önəmli yeri olan Nuri Paşanın bizdə niyə bir şəkli yoxdur?

Cavablardan ən maraqlılarını "Euro Xəbər" qəzetinin səhifələrində dərc etməyə söz verirəm.

*28 sentyabr, 2007-ci il*

## POP STAR

**Əslində, mən bu mahnı və ya bu kimi digər müsabiqələr barədə yazı yazmaq fikrində olmadım. Belə proqramlara heç baxmıram da. Lakin bu dəfə başqadır sanki, İğdırın internet saytlarının birindən (www.igdirli.com) bu barədə xəbər alanda çox sevindim, çox həyəcanlandım və nədənsə, bir an öncə bazar günü olsun, baxım bu müsabiqəyə, dedim.**

Bəli, bu dəfə Türk televiziya kanallarında tez-tez rast gəldiyimiz mahnı və ya pop star yarışlarından fərqli idi. Bir həmyerliyimiz, daha doğrusu mənim həmyerlim, lakin bizim həmvətənimiz Gökhan Erol bu dəfə Star Tv-dəki Pop Star müsabiqəsinə qatılıb.

23 sentyabr bazar gününü həyəcanla gözlədim və böyük bir həyəcanla keçdim televizorun başına, başladım izləməyə. Həmyerlimin iştirakçı nömrəsi 107 idi. Düzünü desəm, ondan öncə çıxan iştirakçıların hamısının bir-birindən gözəl səsləri vardı. Müsabiqənin münsiflər heyəti də Türkiyənin ən məşhur müğənnilərindən ibarətdir-Orhan Gencebay, Bülent Ersoy, Ebru Gündeş. Bu sənətçilər öz sahələrində doğrudan da Türkiyənin





ən böyük starlarıdır.

Müsabiqə iştirakçılarının səslərinin güclü olması həyəcanıma daha da həyəcan qatırdı. Düzünü desəm, bir az da qorxurdum. Öz-özümə, birdən həmyerlimin səsi bunlarınkından aşağı olsa və buna görə də müsabiqədən çıxsa, necə olacaq, deyə düşünürdüm. www.igdirli.com saytının başlatdığı səsvermə kampaniyası gözəl olmuşdu və buna görə də rahat idim.

Zaman gəldi çatdı və həmvətənimiz Gökhan Erol çıxdı səhnəyə. Türk sənət musiqisindən çox çətin bir əsəri seçmişdi və onu oxudu. Münsiflər heyətindəki Türkiyənin dev sənətkarı Bülent Ersoyun qarşısında belə bir əsəri səsləndirmək doğrudan da çətin və riskli bir seçimdir.

Gökhan əsərə böyük bir professionallıqla başladı, aradabir kameralar Bülent Ersoyu göstərirdi. Bülent Ersoy həmyerlimizi əlindəki mahnı notları ilə müşayiət edirdi, yəni artıq səsi ikinci plana düşmüşdü. Əsas üsul idi, Bülent Ersoy səsdən çox əsərin oxunma üsulunu izləyirdi.

Həmyerlimiz bu əsəri həddindən gözəl ifa etdi, inanın ki, Türkiyədə hal-hazırda bu əsəri bu qədər gözəl oxuyan çox az kişi solisti var. Mahnı bitdi. Bütün salona alqış səsləri yayıldı. Mən düşündüm ki, Bülent Ersoyu alqışlamaq üçün ayağa qalxacaq, çünki üz cizgilərindən razı qaldığı sezilirdi. Möhtəşəm bir ifa idi. Ersoy: "bu mahnını harada dinlədin?", deyə sordu, Gökhan "sizin kasetinizdən", Ersoy da "mənim ifamı dinləyib çalışdın, eləmi?" deyə soruşanda Gökhan "bəli" dedi. Bülent Ersoy ən yüksək xalın 10 olmasına baxmayaraq "11" dedi. İnanın ki, iki damla yaş gəldi gözümdən, hətta bu yazını yazanda da o duyğuları yaşadım. Orhan Gencebay da "11" dedi. Ebru Gündeş Gökhana haralı olduğunu soruşdu. Həmyerlim qürurla "İğdırlıyam, Azərbaycan Türküyəm", dedi. Mənim gözlədiyim an da elə bu idi və mən həmvətənimin bu ürəkdən gələn sözlərini gözləyirdim. Ebru Gündeş "Mən azərbaycanlıları çox sevirəm, çox dürüst insanlardırlar", dedi və bizim milyon dollara belə edə bilməyəcəyimiz o reklam anı yaşandı. Ölkəmizin insanının dürüstlüyü və gücü bütün Türk xalqlarına bir daha aydın oldu. Üç-beş günlük şəxsi çıxarları üçün Azərbaycan Türkünün adına ləkə sürmək istəyənlərin də təxminən üzləri qızarmışdı o an.

Bu gözəl həyəcanı bir neçə həftə yaşayacağıq mənə elə gəlir və əminəm ki, həmvətənimiz bu müsabiqədən birinci olaraq çıxacaq və Azərbaycan Türkünün gücünü, mədəniyyətini bütün Türk dünyasına gözəl hərflərlə yazacaq. Gökhan Erolu buradan ürəkdən təbrik edirəm, öz adımdan və Belçikada yaşayan bütün Azərbaycan diasporu adından, "Euro Xəbər" qəzetinin əməkdaşları adından təbrik edirəm və bütün gücümüzlə onun yanında olduğumuzu bildirirəm.

Gökhan Erol 107 nömrəsi ilə yarışır və 107 yazıb 3004 nömrəsinə

göndərməyi bütün diaspor nümayəndələrimizdən xahiş edirəm.

*11 oktyabr, 2007-ci il*

## DAK-dan NƏ XƏBƏR?

**Hörmətli həmvətənlərim, nə zaman ermənilər ayağa qalxmağa çalışsa, elə bil dünya ayağa qalxır. Gücünə rişxənd etdiyimiz bu insanlar istədikləri vaxt dünya gündəmini dəyişdirə bilir və bununla kifayətlənməyib hədəflərinə də hər dəfə nail olurlar.**

Bəs, ermənilər buna necə nail olurlar? Mən istəyirəm Avropanın paytaxtından bu sualın cavabını verəm və bizim niyə öz həqiqətlərimizi dünyaya çatdırmamağımızın da səbəbini açıqlayam. Ermənini hamımız doğulduğumuz gündən tanıyırıq, nə qədər o gün gəlib, bu gün gedib desək də, düşmənimizi nə qədər xırdalatsaq da, bir gerçək var ki, bunu qəbul etməliyik. Oldu olası, bu erməni bizim başımıza bəla olub, hər birimiz dədə-babamızdan mütləq erməni nağılları (əslində gerçək olan) dinləmişik. Düzünə qalsa, bir növ uşağı xortdanla qorxudan kimi bizim də elə bununla beynimizə bir erməni hobbisi yerləşdiriblər. İndi nə zaman eşitsək, istər-istəməz bizdə xırda bir şok yaranır, hələ bir də bir iş gördülərmi, rəngimiz-rufumuz saralır, bir neçə gün də özümüzə gələ bilmirik. Lakin, bunun bir də bizə mənfi yönü olur, biz nə vaxt bunların ayaqlanmasını görürük o vaxt biz özümüzün yadımıza düşürük. Milliyyətçi ruhumuz baş qaldırır, gözəl çıxışlar və gözəl cavablar veririk (bu cavabları ancaq öz-özümüzə veririk, dünyanın xəbəri olmur!). Ağız dolusu sözlər deyirik, bir deyimlə desək, hücum edən itə dəyənəklə vurmağın yerinə, biz ancaq daş atırıq, o daşı da it işini bitirib qaçandan sonra atırıq. Bir atalar sözü daha var: «Daldan atılan daş, topuğa dəyər!». Bizimki isə heç topuğuna da dəymir.

Nəysə, bəs sonra nə olur? Bizim o gözəl adlı-sanlı cəmiyyətlərimiz, əgər demək düzgündürsə, diaspor təşkilatlarımız, görkəmli, milli birliyə çağıran, insanın bir az da gözlərini yaşardan açıqlamalar verirlər. Mən bunu Brüsseldən eşidəndə ürəyim ağrıyır, nə qədər cavab verməyim, söz deməyim? Desəm də mənim milliyyətçilik duyğularım baş qaldırır və özümü ağ kağızın önündə tapıram.

Bəli, bizim DAK da arabir yuxudan oyandırılır, o dəqiqə bir açıqlama verir, sonra yenidən yatır. Bu yatış və qalxış əsnasında DAK-ın varlığından xəbərdar oluruq, çox güclü və mənalı açıqlamalar verir. Son açıqlama mənim şəxsinə çox böyük hörmət bəslədiyim Sabir Rüstəmxanlıdan gəlib. O, deyib ki, DAK-dan küsüb ayrılanlar bizə top-tüfənglə hücum etməkdənsə, gəlib bizə qoşulsunlar. Bir yerdə Azərbaycanımızın məsələlərini həll edək. Mən küsməmişəm, küsdürülmüşəm. Daha doğrusu iş görə bilməyən bir qurumun fəaliyyətindən narahat olmuşam və öz ərizəmlə ayrılmışam. Belə baxanda, mənə cavab haqqı doğur. Sabir müəllim, bir dəfə DAK olaraq düzgün və planlı bir proqram təşkil edin, səhər mən sizin yanınızda olmağa söz verirəm. Türk dilində bir söz var: «Halva-halva deməklə, ağız şirin olmaz!». DAK iş görməyə başlasa, siz əmin olun ki, hamımız orda olacağıq, yetər ki, bir proqram hazırlayın və bu proqramı tətbiq etmək üçün bizlərə görəv verin!

*19 oktyabr, 2007-ci il*

## MƏN NƏ ÜÇÜN DAK-dan İSTEFA VERDİM?

**Uzun müddətdir DAK məclisi, DAK idarə heyəti və ümumiyyətlə DAK-ın apardığı tutarsız, Azərbaycan diasporuna zidd işlərə və bir-birindən xəbərsizlik problemlərinə görə DAK-ın Stokholmda keçirilən VIII Qurultayında təyin olunduğum Belçika nümayəndəliyi və DAK məclis üzvlüyümdən istefa etdim. Lakin DAK-da üzvlüyümü DAK-ın bu il Brüsseldə keçiriləcək IX Qurultayına kimi davam etdirəcəm və həmin Qurultayda DAK sədrliyinə namizədliyimi irəli sürəcəyimi bütün Azərbaycan xalqına bildirmək istəyirəm.**

İstefamın başlıca səbəbi DAK-ın heç bir bölgə nümayəndəliyi ilə birgə hərəkət etməməsi, DAK sədrinin özbaşına hərəkəti, digər ölkələrdəki DAK nümayəndələri ilə əlaqələr qurmadan həmin ölkələrdə tutarsız və adı çəkilən təşkilata ziyan vuran işlər görməsi, DAK-ın Bakı Ofisinin rəhbərliyinin sorumlu üzvlərindən xəbərsiz mətbuat konfransları keçirməsi və mətbuat açıqlamaları verməsi, DAK məclisinin DAK idarəsi ilə əlaqələrinin düzgün qurulmaması və nəhayət bu yaxınlarda DAK-ın Bakı ofisinin mətbuat xidməti tərəfindən təmsil olunduğum Brüsseldə Xocalı Soyqırımının anım heykəlinin qoyulması və guya artıq bununla bağlı icazə alınması barədə gerçəkliklə bağlı olmayan açıqlamasıdır. Bütün bunlardan əlavə rəhbərlik etdiyim "Belçika Azərbaycan Evi"nin bu məsələ ilə bağlı heç bir məlumatı yoxdur və DAK tərəfindən verilən açıqlama tamamilə gerçəklikdən uzaqdır.

DAK-ın Belçika nümayəndəsi olaraq bu vəzifəmdən bütün dünya azərbaycanlıları önündə istefa verirəm, lakin DAK üzvü kimi üzvlüyümü davam etdirdiyimi bildirirəm. Bu ilin 9-10-11 dekabrında Brüsseldə keçiriləcək DAK-ın növbədənkənar qurultayında sədrliyə namizədliyimi irəli sürəcəyimi bəyan edirəm.

DAK İdarə heyətində olan bütün dəyərli üzvlərə yeni qurultaya yeni bir nizamnamə ilə gəlmək fikrimi bildirirəm. Xatırladım ki, Nizamnamədə bu günə qədər DAK sıralarında xidmət etmiş həmvətənlərimizin görüş və təklifləri də nəzərə alınmışdır. DAK-ı birləşdirməyin və baş ofisinin Avropanın paytaxtı Brüsseldə olmasının tərəfdarıyam. Bu təşkilatın bundan sonrakı fəaliyyətində daha çox uğur qazanmasına və Azərbaycan diplomatiyasının Brüsseldə mərkəzləşməsi DAK-ın daha da inkişaf etməsinə səbəb olacaq. "Belçika Azərbaycan Evi"nin Brüsseldə olan bütün imkanları təmənnasız olaraq DAK-ın xidmətinə veriləcək və sizi əmin edirəm ki, Brüsseldə heç bir problem olmayacaq.

İstefamın bu gündən qüvvədə olduğunu bildirir, DAK-da bütün işləri bir üzv kimi davam etdirməyi məqsədəuyğun sanıram.

*noyabr, 2007-ci il*

## CAVAD DERƏXTİYƏ CAVAB

**Son günlərdə DAK-ın sabiq sədri Cavad Dərəxti bəzi KİV-lərə bir açıqlama verib. Cavad müəllim açıqlamasında DAK-ın fəaliyyətindən, sədrindən və iş görülmədiyindən şikayət edib. Mən bir dünya azərbaycanlısı olaraq, (belə olanda DAK üzvü sayılıram) Cavad müəllimə bir-iki söz demək ehtiyacını hiss etdim.**

Birincisi, DAK iflic vəziyyətdədir. Bəli, DAK elə qurulduğu gündən bu yana (xüsusən son 5 ildə) doğrudan iflic vəziyyətdədir. Bunun birinci sorumlusu isə Cavad Dərəxtidir. Biz son 5 ildə yazdıqlarımızla bunu dəfələrlə sübut etdik. Cavad müəllimi istefaya dəvət etdik, o isə iflic vəziyyətdə olmasına baxmayaraq, DAK-ı özü ilə bu günkü hala gətirib çıxardı.

İkincisi, bizim son 5 ildə dediklərimizə o vaxt qulaq asmayan və ya hücumla cavab verən Cavad müəllim, bu gün özü eyni şeyləri DAK-ın indiki idarə heyətinə və sədrinə deyir. Mənim ona dediyimin, yazdıqlarımın eynisini o yeni sədrə deyir. Bu da sübut edir ki, mənim 5 ildir yazdıqlarım və tənqidlərim düz idi.



Üçüncüsü, DAK İsveçdə qeydiyyatdaymış və İsveç dövləti DAK üçün məlumatlar və qeydiyyatdan keçiriləsi məsələlərlə bağlı problem yaradırmış!!!

Cavad müəllim, bu məsələni ilk çıxaran biz olmuşuq və bu məsələlərlə bağlı bütün sənədlər bizə İsveçdən polis tərəfindən sizin gördüyünüz işlərlə bağlı çatdırılıb. Sizin DAK adından İsveç dövlətindən aldığınız yardım pullarının hesabı sorulur və siz bu hesabı verə bilmirsiniz. Çünki bu pullar DAK-a deyil, başqa yerlərə xərclənib. Bəli, sözün düzü belədir. Siz indi can hayında iflic vəziyyətə saldığınız bu qurumdan yenə mədət umursunuz.

Əgər yadınızdadırsa, keçən il bir yazımda Cavad müəllimə bir təklif etmişdim. DAK sözünün önünə «C» hərfi qoymaqla bizim bu qurumla olan əlaqələrimiz ancaq cəmiyyət əlaqələri səviyyəsinə gələcəkdi və Cavad müəllim də İsveçdə istədiyi işlə bu qurumun adı ilə məşğul ola bilərdi. Yəni, CDAK (Cavad Dərəxti Azərbaycan Kommersiyası). Bəli, adı bu şəkildə İsveçdə qeydiyyatdan keçirə bilərdiniz və bizim sizə deyəcək heç sözümüz olmazdı.

Amma hal-hazırda bu qurumun adı DAK-dır (Dünya Azərbaycanlıları Konqresi) və hər bir vətəndaşımız kimi mənim də orada söz haqqım var, səs və sual haqqım var. Sən necə istədiyin kimi bu qurumu iflic etdinsə, bizim də bu qurumun bu vəziyyətdən çıxmasına kömək etmək haqqımız və hüququmuz var. Mən DAK-ın bu vəziyyətdən çıxmasındakı yeganə yolu bundan öncə dəfələrlə dediyim kimi yenə də təkrar edirəm: birdəfəlik olaraq mərkəz Brüsseldə yerləşdirilməlidir. Dünyanın gözü və qulağı olan Brüssel şəhəri Avropanın da paytaxtıdır, Avropa və ən böyük təşkilatlara mərkəz olan Brüssel şəhəri dünya azərbaycanlılarının da mərkəzi olmalıdır. Əsas vəzifəsi Azərbaycanın şimalı, cənubu və qərbinin məsələlərini Avropaya, dünyaya çatdırmaq olan DAK-ın Brüsseldə yerləşdirilməsi danılmaz bir gerçəklikdir.

Sədri və idarəçilərinin hansı ölkədə olmasına baxmayaraq, DAK Brüsseldən idarə olunmalıdır, fəaliyyətinin tamamını bu dünya paytaxtı sayılan yerdən idarə etməlidir. Avropa Birliyinin işlərinə bu yerdən daxil olmalı, iclaslara qatılmalı və bir qeyri-hökümət təşkilatı kimi Azərbaycanımızın haqq səsini burada yerləşən beynəlxalq qurumlara çatdırmalıdır.

İsveç, Bakı, Amerika, Almaniya DAK fəaliyyətlərini bərpa edə bilməyəcək, məncə DAK-ın mərkəzi Brüsseldə, iki şöbəsindən biri Bakıda, digəri isə Türkiyədə olmalıdır. Digər dövlətlərdə isə yalnız bölgə nümayəndəlikləri olmalıdır, vəssəlam!

Bu günə qədər DAK heç bir konqresində ortaya bir iş planı qoya bilməyib, tezliklə bir iş proqramına ehtiyac var və DAK artıq boş sözləri buraxıb Brüsseldəki qurumlarla öz əlaqələrini qurub, Brüssel ofisi ilə işləməli və

Brüsseldə rəsmi dövlət qeydiyyatından keçməli, ofisi açılmalı, indiyə qədər olmayan telefon və faks nömrələri olmalıdır.

Bir dünya görünümü olsun deyə, NATO, Avropa Parlamenti, İnsan Haqları Məhkəməsi və digər qurumlarda da qeydiyyatdan keçməlidir və o zaman DAK-dan nə ayrılan, nə tənqid edən, nə də narazı qalan olacaq.

DAK layiq olduğu yerdə Dünya Azərbaycanlılarına xidmət edəcək və hər kəs onun ətrafında qürurla toplanacaq.

Bu barədə «Belçika Azərbaycan Evi», «Euro Xəbər» qəzeti olaraq, Brüsseldəki mərkəz ofisimizdə hələlik DAK-ı qonaq etməyə hazırıq.

***noyabr, 2007-ci il***

## *TÜRKÜN DÜNYA GÜNDƏMİNDƏKİ YERİ!*

**Azərbaycan Türkü olaraq, ölkə xaricində yaşadığım 26 il mənə çox şey öyrətdi, çox hadisələri yaşamaq və görmək məcburiyyətində qaldım. Birincisi, 80-ci illərin lap əvvəlləriydi, mənim qürbət yoluna düşdüyüm, Azərbaycanın dəmir pərdə çərçivəsində yaşayışı və mənim demokratiyanın beşiyi sayılan Avropaya çıxışım.**

Avropanın, bizim dildə desək, "cikini-bikini" yaşadım, təmiz deyə biləcəyim üzünü də gördüm, ən çirkin üzünü də. Lakin bunların bir tərəfləri də var ki, məni çox təəccübləndirir. O da onlarda dostluq və yaxınlıq anlayışları yoxdur. Yəni bir avropalı mənim dostumdur demək çətin bir riskdir, bizim atalar sözü ilə desək, "ayı dərisindən post, avropalıdan dost olmaz". Nə qədər yaxşılıq edirsən et, onun başa düşmədiyi bir dildə danışdığın an hər şey bitir, o yaxından tanıdığını sandığın insan birdən soyuq və anlamsız bir insana dönür.

Hamımız son günlərdə çox yaxından izləyirik Türkiyə üzərində oynanılan oyunları, ibrət və nifrətlə seyr edirik. Bir ermənının öldüyü günü qınama qərarı alan Avropa (sözüm ona Birliyi) onlarla türk əsgəri öldürüldüyündə səsini belə çıxarmadı və mənim yuxarıda qeyd etdiyim kimi oldu avropalı.

Bəs bundan bir dərs çıxarmaq mümkünmüdür? Mümkündür, əslinə baxarsanız Avropa istəmədən Türkiyənin önünə bir şans qoydu və Türkiyə artıq bu tarixi şansı çox gözəl dəyərləndirməlidir. Artıq ciddi və gələcəyə yönəlik qərarlar almalıdır. Özünü hər dəfə köşəyə sıxışdırmaq istəyən bu avropasayağı oyunlardan bir dəfəlik qurtulmalıdır və Avropanın önünə üçüncü bir güc kimi çıxmalıdır. Bunun üçün artıq bütün imkanlar yaranıb və bütün hadisələr Türkiyənin xeyrinə işləyir. Hətta Fransa içindəki kini daha çox gizlədə bilmədi, "Aralıq dənizi ölkələri Birliyi" fikrini ortaya atdı ki, bu da elə Türkiyənin xeyrinədir.

Avropa ağır bir xəstəlik dönəmi keçirir, son qəbul etdiyi ölkələr bir donqar kimi belindədir, öz donqarını gizlətmək istərkən istəmədən Türkiyənin əlinə gözəl bir imkan verdi. Mən belə düşünürəm və sizlərlə Avropanın paytaxtı Brüsseldən paylaşıram. "Görünən kəndə klavuz lazım deyil", dünyanın dörd bir yanından minlərlə türk küçələrdədir, yaşadığı ölkənin vətəndaşları olmalarına baxmayaraq, öz doğma vətənləri üçün böyük-kiçik hər yaşdan, hər fikirdən olan insanlar əl-ələ verib, sağçısı, solçusu, kommunisti, islamçısı, hər kəs bir ürək, bir bilək oldu. Bax, elə Türkün gücü budur, dünyaya göstərdik ki, biz sizin uşağınız olmadıq, olmayacağıq da. Lazım gələrsə, tək vücud olub sizə qarşı bir güc ola biləcəyimizi də unutmayın. Bəli, tam olaraq verilən türk mesajı budur və türk xalqı artıq bu gücünü, bu fürsəti yaxşı dəyərləndirmək məcburiyyətində buraxılmışdır və mənə elə gəlir ki, elə də olacaq.

Bu günlərdə Azərbaycanın Türk Birliyi ölkələrini də Bakıda toplaması mənə görə ikinci gözəl qərardır. Ölkə Prezidentinin bu duyarlı hərəkəti Türk dünyasına qızıl hərflərlə yazılacaq və Avropaya bir göz dağı verəcək. Dünya bilməlidir ki, Türk xalqı istədiyi anda birləşə biləcək və birlikdə qərar ala biləcək durumdadır. Bunu xalqlarımızın özü tələb edir, küçədəki insanın, məktəbdəki tələbənin arzularıdır bu. Qəzamız mübarək olsun!

***15 noyabr, 2007-ci il***

## *QURULTAYDAN GÖZLƏDİKLƏRİMİZ*

**Bakıda çox önəmli bir qurultay gerçəkləşir, türkcə desək, dünya türklərinin qəlbi Bakıda vuracaq. Bu doğrudan da çox önəmli bir gündür, tarixi hadisədir. Son günlərdə yaşanan cansıxıcı hadisələr fonunda həyati önəm daşıyan bir qurultaydır.**

Bəs, bu qurultaydan Türk dünyası nə gözləyir? Mən öz təşkilatımız və

şəxsən öz adımdan çox şey gözləyirəm. Ümidlərin tükənmək üzrə olduğu, səbr kasasının daşması halına gəldiyi bir vaxtda, millətimizin canı-könüldən gözlədiyi, başda birlik və bərabərliyi gözləyirik. Ən çox ehtiyacımız olan budur, birlik, bərabərlik və tək yumruq.

Sözün düzünü desək, bundan öncə 10-u keçirilən bu qurultay hələ ki, öz xəttini, öz iş rejimini və dünyanın gözlədiyi hədəflərinə nail olmuş deyil. Bu gün Bakıda onbirincisinə şahid olacağımız bu qurultay istərdik ki, eyni zamanda keçən 10 qurultayın da müzakirə yerinə çevrilsin, səhvlər bir daha təkrar olunmasın, yanlışlar düzəldilsin və biz hədəfimizə əmin addımlarla irəliləyə bilək.

Türkiyəmiz çox önəmli bir dönəmdədir, dünyanın gözü üzərimizə çevrilib. Torpaqlarımız işğal altındadır, bu yetməzmiş kimi yeni oyunlarla yeni torpaqlar zəbt edilmək istənilir. Bizlər Türk dünyasının qəlbində, Azərbaycanımızda bir araya gəlmişik.

Mənim xahişim odur ki, ümidləri boşa çıxarmayaq, gözləntiləri xəyal qırıqlığına uğratmayaq, bizdən gözləniilənləri edək və bu qurultaydan tək vücud halında çıxaq.

Milli birlikdə önəmli addımlar atılsın, dil birliyi üçün lazımi nə isə edilsin, sərhədlər bir-birimizin üzünə qapalı deyil, açıq olsun. İnformasiya sahəsində ciddi addımlar atılsın, ölkələrimizdə vətəndaşlıq hüquqları bir-birinə bənzədilsin və bu qurultay hər il bir ölkədə düzənlənsin.

Bu gün çox böyük bir gündür, bunun dəyərini yaxşı bilməliyik, dünyanın dörd bir yanından minlərlə türk bu gün Azərbaycanda toplanıbsa və buna nail olunubsa, dünya bunu çox ciddiyə alacaq, ona görə özümüz də bu qurultayı ciddiyə almalıyıq.

Mənə elə gəlir ki, dünyada çox az xalq belə tədbirlər gerçəkləşdirə bilər. Bunun həm mənəvi, həm də maddi dəyəri çox yüksəkdir. Biz bundan çox faydalanmalıyıq və bu iki günü dolu-dolu yaşamalıyıq.

Başda tanışlıqlar önəmlidir, dörd bir tərəfdən gələn təşkilatlarımızla əməkdaşlığın yolları aranmalıdır, onlara informasiya köməyinin bundan sonra necə aparılacağı anladılmalıdır. Qurultay iştirakçılarının önünə gerçək bir proqram qoyulmalıdır, o zaman işlərimiz öncəki qurultaylardan daha sürətli və daha sağlam gedəcək.

Bunun üçün komissiyalar yaradılmalı, bölgələr və işlər müəyyənləşdirilməli, dəqiq görəvləndirmələr olmalıdır. İş planı hazırlanmalı və bu planları həyata keçirə biləcək maddi dəstəklər təmin olunmalıdır. 2008-ci il Türk dünyasının tanıtım ili elan olunmalıdır.

Yuxarıda qeyd etdiyim kimi bu qurultay hər il başqa bir Türk ölkəsində həyata keçirilməlidir. Çünki bu, eyni zamanda, bir-birimizin ölkələrini yaxşı tanımağa, mədəniyyəti ilə yaxından tanış olmağa, ölkələrin iqtisadiyyatının, turizmin, mədəniyyətin inkişafına kömək edəcəkdir.

2008-ci il üçün mənim təklifim də qurultayımızı Kiprdə düzənləyək, minlərlə türk Kiprimizi ziyarət eləsin. Allahın köməyi ilə 2009-cu ildə bəlkə elə Quzey İraq deyilən Türkmən elində yığışarıq.

Amin!

*30 noyabr, 2007-ci il*

## GƏLİN DAK-ı BAĞLAYAQ!

**Quruldyğu ildən bu yana ancaq və ancaq dünya azərbaycanlılarının önündə problem olan bu qurumu gəlin, bağlayaq. Quruldyğu ildə, təxminən 1997-ci ildə Amerikadakı ilk iclasında başlayıb problemlər və ilk iclasında da qurula bilməyib, aləm dəyib bir-birinə, anladanların dediyinə görə öncə Azərbaycan bayrağı olsunmu-olmasınmı dartışması başlayıb, sonralar da təşkil etdiyi bütün tədbirlərdə söyüş, döyüş və qarğaşa olub.**

Bu günlərdə isə, ağzı olan hər kəs bu barədə danışır, kimin əli kimin cibindədir, bəlli deyil. Bu günlərdə Bakıda keçirilən Türk dövlət və qurumlarının XI Qardaşlıq və Dostluq qurultayı kimi gözəl bir tədbir qaldı kənarda, mətbuatımız yenə də DAK-a kilidləndi, bu qurultaya kölgə salındı və insanlar istər-istəməz fikirləşdi ki, əcəba, bu DAK Azərbaycanın xeyrinə, yoxsa zərərinə işləyir?

Bu qurumun başında olanların dediklərinə baxılsa, bu qurumda Sabir Rüstəmxanlıdan başqa hamı agentdir. Bəli, hamı bir-birini hansısa ölkənin agenti adlandırır. Maraqlıdır ki, burada müxtəlif ölkələrin agentləri var və bir neçə ölkə DAK-la maraqlanırmış. Bəs. DAK iş görmürsə, niyə buna bu qədər maraq var, bu özü də başqa bir sualdır.

Bəli, keçdiyimiz günlər Türk qurultayına mən də dəvət edilmişdim, buradan XYAİÜDK-nin sədrinə öz təşəkkürümü bildirirəm ki, bizi bu qurultaya dəvət etdi. Qurultaya gəldiyim gün Cavad Dərəxti ilə eyni təyyarədə idim. İlk etirazını və məni məhkəməyə verəcəyini elə təyyarənin içində dedi, sonra isə səhər «Çanaqqala» restoranında xaş yeməyə gedəndə qarşılaşdım. Bu dəfə bir az sərxoş olan Cavad bəy, arxasında gəzdirdiyi mühafizəçisi ilə məni təhdid etdi. Kim olduğunu bilmədiyim bu mühafizəçi mənə «Ca-

vad haqqında yazılar yazma, yazsan sonun yaxşı olmaz», deyə təhdid etdi. Sonradan eşitdim ki, Cavad müəllim, eyni ilə bizim müğənnilərimiz kimi «security» ilə gəzirmiş Bakıda. Nədənsə, çox maraqlıymış, guya DAK içində Cavad bəyi vurmaq istəyən qüvvələr varmış və ən maraqlısı isə guya PKK Cavad bəyi axtarırmış.

Ay Allah, gör nə günlərə və nə vəziyyətə düşüb bu DAK. Qurulduğu gündən bəri ancaq və ancaq Azərbaycana zərər verən bu qurumun keçmiş rəhbəri, PKK məni vurduracaq, ondan qorxuram, deyir. Eyni o günlərdə DAK yeni idarə heyəti BMM-də bir mətbuat konfransı keçirdi. Mən də getdim və baxdım ki, orda da bütün gündəm Cavad Dərəxtinin üstündədir və Cavad bəyin mühafizəçiləri məndən başqa digərlərini də təhdid ediblər və orda da bir nəfər, səhv etmirəmsə, Ukraynadan gəlmişdi, o qədər adamın içində dedi ki, bu zalda çoxlu agentlər var, mən adların deməsən, zalı tərk etsinlər. Siz, heç mən agentəm deyən adam görmüsünüz? Yəni, qalxıb desin ki, bilirsiniz, məni bağışlayın, mən agentəm, gəlmişdim sizi dinləyəm, madam məni tanıdınız, üzürlü sayın, mən gedirəm.

DAK-DDAK birləşmək üçün ilk addımı atdı, zatən ən qorxulu vəziyyət budur. İndiyə qədər bu iki qurum (əslində, bir olan, bir əmələ xidmət etməli olan) arasında atılan ilk ciddi addım idi bu. Mən də bu qurumdan istefa etmiş biri olaraq, bu birləşməyə öz məmnuniyyətimi bildirdim və birləşmə olacaqsa, mən də onların yanında öz yerimi alacağımı bildirdim. Bəli, ən qorxulu vəziyyət bu idi ki, bunlar birdən-birə birləşər. Əhməd Obalı bəyə də burdan öz təşəkkürümü bildirirəm.

İndi isə bu qurumlar birləşir deyə, başda Cavad Dərəxti olmaqla, narahat olanların sayı artır və maraqlısı da odur ki, hamı bir-birini agentlikdə günahlandırır. Sözün açığını demək lazımdırsa, DAK-da agent əlindən tərpənmək mümkün deyil, əlini uzadırsan agentə dəyir!!!

Bu qədər agenti KQB, CİA belə görməmişdi. İndi onların vəziyyətini düşünürəm neçə gündür, bunlar deyir ki, biz nə gündəyik. Dünyada yeni bir agent qurumu yaranıb, adı da DAK, biz bundan xəbərsizik, camaatın üzünə nətər baxacağıq.

Bəli, DAK-ın son vəziyyəti budur. Ona görə ağlı başında olan hər bir azərbaycanlını bu qurumun bağlanmasını və yerinə gerçəkdən iş görə biləcək, yeni fikirlərlə hərəkət edə biləcək, söz deyil, iş görəcək, lobbiçiliklə məşğul olacaq, Azərbaycanın haqq səsini duyura biləcək yeni bir qurumun ətrafında toplanmasını arzulayıram, Sağ olun!

***13 dekabr, 2007-ci il***



# *ANTİVİRUS*

**Uzun illərdir cavabını tapa bilmədiyim bir sual məni düşündürür. Tanıdığım hər kəsə-ağsaqqallara, dünyagörmüş bütün insanlara, Azərbaycanı və azərbaycanlıları ən yaxşı tanıdığını deyənlərə verdim bu sualı, ya cavab verə bilmədilər, ya da hərə bir avaz oxudu. Heç birinin sözü bir-birini tutmadı. Bu gün isə bütün oxucularımıza verirəm eyni sualı: «Biz niyə beləyik?».**

Niyə biz həmişə özümüzə zərər veririk, niyə bir-birimizin ayağının altını qazırıq, niyə içimizdə yaxşı iş görən insanlara paxıllıq edirik, niyə öz davamızda, öz haqq məsələmizdə birləşə bilmirik? Bax, bu suallara 45 illik ömür həyatımda cavab axtardım.

Dünyanın müxtəlif yerlərində, müxtəlif xalqlar arasında parçalanmaq, ayrılmaq kimi mübahisələr ola bilər, ancaq şəxslərin şəxslər haqqında yalan, böhtan, şər yaymaları çox çirkin və savadsızlıq nümunəsidir. Özü də iş elə vəziyyətə gəlib çıxıb ki, bir şey tapıb deməyəndə, yəni səhv tapılmayanda, başlayırlar ağıla gəlməyən yalan və böhtanlar deməyə. «Sizcə bu niyə belədir»?

Söz verirəm ki, bu sualın cavabına veriləcək hər sözü qəzetimizdə işıqlandıracam.

Bizlər öz-özümüzdə də bir islahat etməliyik, toplum olaraq özümüzdə bəzi dəyişikliklər etməyin vaxtı gəlib, hətta keçib belə. Bu elə bir xəstəlikdir ki, bizim bütün milli varlığımıza zərər verir, bizi itmiş bir xalq vəziyyətinə gətirib çıxarır. Özü də hadisə o qədər ciddidir ki, toplumun hər səviyyəsində bu xəstəlik sürətli bir şəkildə irəliləyir, bu virusu kim salıb içimizə, nə zaman salınıb bilmək olmur, amma bir şeyi çox yaxşı bilirik ki, bu virus var, artıq böyüyüb və dəxi ölümümüzə gətirib çıxarır.

Məncə, çıxış yolu var, bu virusa biz bir antivirus düzəldə bilərik, yəni yeganə yolumuz budur. Bəs, antivirus necə olmalıdır?

Deməli, bu antivirus (digər normal viruslardan fərqli olduğundan) insandan əmələ gəlməlidir, çünki virusu daşıyan insandır, bunun dərmanla, sistemlə və ya iynə ilə sağaldılması mümkün olmadığından bu virusa qarşı insandan bir antivirus düzəldilməlidir. Bəli insandan. Bəs bu insandan alınmış antivirus necə işləməlidir? İlk növbədə, bu antivirus insanlarımızı milli mənliyimizə sahib çıxarmalıdır ki, camaatımız ölkənin çıxarlarını şəxsi çıxarlarından öndə tutsunlar. Dövlət atributlarına sahib çıxsınlar və saygılı davransınlar. Azərbaycanın ərazi bütövlüyünü (50 milyonu nəzərdə tutub) tanıyıb, ölkəmi-

zə sahib çıxsınlar. Hər bir soydaşımız öz soydaşına dünyadakı digər bütün insanlara göstərdiyi sayğının, hörmətin, dostluğun iki qatını göstərməlidir. Özünü Azərbaycan Türkü və dünyanın ən sayğılı millətlərindən biri olduğuna inandırmalıdır, ona görə də öz-özünə və çevrəsindəki hər bir Azərbaycan Türkünə yeni hisslərlə yanaşmalıdır.

Bilmirəm məramımı anlada bildim, ya yox, amma bu yazımdan sonra ilk Antivirus olmağı qəbul etdiyimi bəyan edirəm.

*27 dekabr, 2007-ci il*

## KEÇƏN İL

**Dəyərli həmvətənlərim, bir il daha keçdi ömrümüzdən, düz 365 gün və bu iri bir ildə biz azərbaycanlılar üçün də çox əlamətdar hadisələr yaşandı. Diasporumuzun uğuru da oldu, çətinliyi də. Novruz bayramında tonqalın üstündən tullananda «ağırlığım, uğurluğum odda yansın!», deyirik. Yeni ildə tonqalın üstündən atlanmasaq da, şam ağacının dibində bunu demək olar məncə.**

Bu il dolu-dolu hadisələr yaşadıq, Azərbaycan Türk dünyasına örnək olacaq hadisələri öz paytaxtında gerçəkləşdirdi. Ölkə başçısının qərarlanmış və toparlanmış Türk dünyası fikrinin təməlləri Bakıda bir daha möhkəmləndirildi, çox mühüm iki konfrans bizi istəməyənlərin gözünə bata-bata öz möhtəşəmliyi ilə Bakıda həyata keçirildi. Təbii ki, bu bizim kimi xaricdə yaşayan azərbaycanlılar üçün həsrətlə gözlənilən məsələlər idi və bizlər bu konfransların keçirilməsində iştirak edərək tarixi hadisələrə şahid olduq.

Biz, yəni Belçika Azərbaycan Evi və «Euro Xəbər» qəzeti üçün də bu il çox gözəl keçdi. Qəzetimiz və 2006-cı ildə çıxardığımız fransız dilində «Azərbaycan milli yeməkləri» adlı kitabımız öz uğurunu davam etdirərkən, bu ildə daha bir jurnalımız işıq üzü gördü və Azərbaycana gələn əcnəbi qonaqlara öz yurdumuzu tanıtmaq yolunda ən gözəl hadisə kimi qeydiyyata düşdü. «İ am in Baku» (Mən Bakıdayam) istər öz ölkəmizin insanı, istərsə də əcnəbi qonaqların Bakıdakı əl kitabçası və hələ Bakıya gəlmədən xarici ölkələrdəki səfirliklərimizdən pulsuz olaraq alıb Bakıya hazırlıqlı gəlmələrinə kömək edəcək bir kitabça kimi bizim uğurumuz olaraq bu ilə öz damğasını vurdu.



Bilirsiniz, bir təşkilatçı kimi belə hadisələrə yardımçı olmaq, inanın ki, bizləri çox mutlu edir və vətənə olan borcumuzu yerinə yetirə bildiyimizə inamımızı artırır.

Ancaq bu il bizi üzən hadisələr də oldu. DAK özünün növbəti qurultayını gerçəkləşdirdi və illərdən bəri üzərindəki uğursuzluğu atıb yeni bir kadrla işə başlamaq istədi, hətta bunu gerçəkləşdirdi. Lakin bu hadisədən sonra heç də xoşa gəlməyən və bizim diaspor tariximizə çirkin hərflərlə düşən hadisələr baş verdi. Birləşməsini gözlədiyimiz və onun üçün çalışdığımız DAK birdən üç oldu. Bəli, ikini birləşdirib bir etmək istədiyimiz qurum üç oldu, üç olması bir yana, aləm bir-birinə dəydi. İş görməməyindən şikayətləndiyimiz DAK-lar bu dəfə bizə problem oldu və çətinliklərimizdən biri vəziyyətinə gəldi. Bilirsiniz, bu DAK işdən, fəaliyyətdən başqa, hər şeylə məşğuldur, yerindən qalxan bu adı alır, istədiyi kimi işlədir, mən bu il diləyirəm ki, bu son olsun, təzə ilə bütöv bir DAK-la girək və söz deyil, iş görək.

Bu il digər bir əlamətdar hadisə də ölkə başçımızın öz qələmindən xalqa yazdığı ürək dolusu sözlərdir. Ölkə içində bilmirəm necə reaksiya oyandırdı, amma Avropanın paytaxtından bir avropalı gözü ilə baxanda bu çox səmimi və insanlara güvən verən bir hadisə olaraq qəbul olunur. Avropalı sıcaq, cana yaxın görünməsə də səmimiyyəti çox sevir, doğruları o insanın özündən eşitməyi çox sevir, ona görə də biz illərdir deyirik ki, avropalı ilə onun öz dilində danışmaq çox mühümdür. Bəli, ölkə başçımız Avropaya ən yaxın bir ölkənin başçısı kimi yazmışdı bu sözləri, avropalıya biz sizin qədər avropalıyıq demək istədi məncə və çox da gözəl dedi. Buna görə mən öz təmsil etdiyim qurumlar adından ölkə başçımıza minlərcə təşəkkür edirəm, xalqımızın bayramlarını təbrik edir və bu yeni ilin Türk dünyasına uğurlar gətirməsini Allahdan diləyirəm. Bayramlarınız mübarək!

*15 yanvar, 2008-ci il*

## YENİ İL VƏ ARZULAR!

**Yenə səssiz və sakit yeni bir ilin içində tapdıq özümüzü. Köhnə bir ili də həyatımızdan bir il kimi gömdük tarixin səhifələrinə. Bəzən insan xatırlamaq belə istəmir keçən günləri, bəzən də elə xatirələr olur ki, onları insan bütün gələcək həyatında tez-tez yada salır.**

Keçdiyimiz il ömrüm boyu xatırlayacağım bir anı yaşamadım, nə mən yaşadım, nə mənə yaşadanlar oldu və sakit, mənasız bir il idi, deyə bilərəm.

Öncəki il, yəni 2006-cı ildən 2007-ci ilə keçəndə çox ümidlər bəsləmişdim ruhumda, bəzilərini siz həmvətənlərimlə paylaşsam da, sizlərdən gizli ürəyimdə saxladığım arzularım vardı. Onların heç biri həyata keçmədi, keçən il ona görə mənim üçün heç də yadda qalacaq bir il olmadı.

Bəs bu il? Hər il olduğu kimi və hər kəsdə olduğu kimi yenə də çox arzular tutdum ürəyimdə, onların bəzilərini istəyirəm paylaşım sizlərlə, elə inanıram ki, bu arzuların bəziləri elə sizin də arzularınızdır.

Bildiyiniz kimi, 31 Dekabr yeni bir ilin ilk bayram axşamı olduğu qədər, dünyada bəlkə də tayı-bərabəri olmayan yalnız Azərbaycan Türkünün ikinci bir bayram qeyd etdiyi gündür. O gün Azərbaycan xalqı üçün ikiqat bayramdır. Doğrudan da, bəzən fikirləşirəm ki, iki bayramı bir gündə qeyd edən başqa bir xalq varmı? Buna görə də biz çox şanslı və çox gözəl bir millətik.

Bu gözəl gündə mən çox şey arzuladım. Başda hər bir türk övladı kimi ölkəmin və millətimin gözəl günlərini arzuladım, torpaqlarımızın bütünlüyünü arzuladım, xalqın rifahını, vətənin bütünlüyünü və dünyada həmvətənlərimizin birliyini arzuladım. Dünyanın ölkəmizi və millətimizi daha yaxşı tanımasını, mədəniyyətimizin dünya xalqları tərəfindən daha yaxşı öyrənilməsini dilədim. Gələcək nəsillərin bizim qoruyub-saxlayacağımız Azərbaycan torpaqları ilə fəxr etməsini, dünyanın dörd bir yanında «azərbaycanlıyam» sözünü ürəklə deyə bilməsini arzuladım.

Bunlar olarmı? Məncə olar, çünki ilin başındayıq və mən bunları arzuladım, gerçəkləşməsi o qədər də çətin deyil, çünki insanın öz əlində olan şeylərdir arzuladıqlarım. Yəni özümüzün ixtiyarımızda olan, özümüzün rahatlıqla həyata keçirə biləcəyimiz şeyləri dilədim. İnanın ki, heç də çətin deyil, çox asanlıqla ola bilən hadisələrdir. Türkiyəmizdə bir gözəl söz var, xüsusən də milliyyətçi qismlər bu sözü tez-tez işlədirlər: «Ey Türk, titrə və özünə gəl!». Bəli, yetər ki, bizdə də belə bir şərait yaransın, özümüzə gələ bilsək, bu arzularımızın hamısı həyata keçə bilər.

İlk işarələr gəlməyə başlayıb, ölkə başçımız bu təzə ilin ilk günləri bu arzularımızın təməl daşı olacaq sözləri deyib, artıq iş başlayıb, görəv verilib, işləmək lazımdır. Bu qoyulan hədəflərə ulaşmaq lazımdır, demədi deməyin, əmr verilib, söz çox açıq və netdir. 2008-ci il Azərbaycanın dirçəliş ili elan olunub, bu il Azərbaycan öz həyati qərarını verəcək və bu qərar da yeni, bütöv bir Azərbaycanın ili olacaq. 2008-ci il tarixə gözəl hərflərlə yazılacaq, mən buna inanıram. Özü də mən buna Brüsseldən inanıram, istəyirəm ki, bütün Azərbaycan xalqı buna inansın və tək yumruq olsun, yolumuz açıq olsun!

*31 yanvar, 2008-ci il*





# *DAk BRÜSSELDƏ*

**Neçə illərdir yazıram, deyirəm, nəhayət DAk-ı deyəsən Brüsselə gətirməyə nail oldum. Bilirsiniz, neçə illərdir ki, DAk-ın fəaliyyəti barədə yazılar yazıram, öz işindən başqa işlərə qoşulan DAk axırda deyəsən öz əsas vəzifəsini başa düşür və bu günlərdə Brüsselə gəlməyə qərar verib. Xoş gəlir, səfa gətirir! Bəs, gəlib nə edəcək, deyə bir sual da çıxır ortaya.**

İndi DAk yuxarıda dediyim kimi bu günə qədər adına layiq bir iş çıxarmayıb, dünyada görüləcək bu qədər iş varkən, o ancaq və ancaq özünü siyasi kriteriyalar arenasında tutub, dünyaya ölkəmizi tanıtmaq əvəzinə, ölkəmizdə olan siyasi məsələlərə qoşulub və sonuncu dəfə də baş verən hadisələrə baxsaq, görərik ki, indi də qardaş Türkiyənin daxili məsələlərinə qarışır, anlamaq mümkün deyil!

Mənə görə DAk-ın əsas vəzifəsi dünyada Azərbaycanı tanıtmaqdır, ölkəmizin mədəniyyətini dünya ictimaiyyətinə çatdırmaqdır, ölkəmizin ərazi bütövlüyü üzrə dünya ölkələri ilə işlər aparmaqdır, yenə dünya təşkilatlarına üzv olub, onların iclaslarına bitərəf təşkilat kimi qatılıb haqq səsimizi dünyaya çatdırmaq və bütün təşkilatlarımızı öz ətrafında toplamaqdır.

Dünyadakı təşkilatlarımıza informasiya dəstəyi verməli, harada olmağından asılı olmayaraq, həmvətənlərimizlə əlaqələr qurmalı, onlara Azərbaycançılıq naminə məlumatlar, materiallar, informasiyalar verməli, onların şəbəkələşib öz yaşadıqları ölkələrə inteqrasiya etmələrinə dəstək olmalı və bununla da həmin ölkələrdə Azərbaycanın fəal tanıdılmasına kömək göstərməlidir.

DAk əslində Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinə bir alternativ olmalıdır.

Baxın, demək istədiyim qətiyyən yanlış başa düşülməsin. Dövlət komitəsi adından da göründüyü kimi dövlətə bağlıdır, bu qurum bizə Milli liderimizin ən böyük hədiyyəsidir. DAk eynilə bu qurumun vəzifələrinə sahib olmalıdır, amma qeyri-hökumət qurumu olaraq, yəni komitəmiz necə dünyadakı Azərbaycan diasporuna kömək məqsədi ilə qurulubsa, DAk da eyni vəzifələri daşımalıdır, amma dövlətə bağlı olmadan.

Dövlətə bağlı olmamaq sözünü də yanlış anlamayın. Burada söhbət dövlətə qarşı olmaqdan getmir, dövlət bütün qurumlarına kömək göstərdiyi halda, DAk-a da göstərməlidir, amma DAk-ın iş prinsiplərinə, DAk idarə sisteminə qarışmamalıdır. DAk-da siyasətçilərə və siyasi işlərə icazə verilməməlidir. DAk ancaq beynəlxalq qeyri-hökümət təşkilatı olmalıdır.

Bəs, bütün bunlara əməl olunsa, nə olacaq? Başda bütün beynəlxalq qurumlar bu təşkilatımızı tanıyacaqlar, iclaslarına dəvət edəcəklər, səsini dinləyəcəklər, işlərinə kömək edəcəklər (maddi və mənəvi) və beləliklə də bizim işlərimiz öz həll yolunu tapmağa başlayacaq.

Bəli, hörmətli DAk nümayəndələri, Brüsseldə sizdən bunları gözləyirik, yenə də xoş gəlirsiniz!

*14 fevral, 2008-ci il*

## NƏ YAZIM?

**Bəli, nə yazım, 16 ildir dünyanın gözü önündə törədilən və heç bir dövlət tərəfindən insanlıq suçu kimi qəbul olunmayan Xocalımını yazım, erməni terrorçuları tərəfindən törədilən bu cinayətin özlərini humanist qəbul edən avropalılar tərəfindən niyə görünmədiyinimi yazım, yoxsa bütün beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan torpaqları olduğu təsdiqlənən Qarabağdan ermənilərin niyə çıxmadığındanmı yazım?**

Bu qədər problemlərimiz varkən, dünyaya dərdimizi anlatmamız gərəkirkən, haqq səsimizi bulunduğumuz ölkələrdə həm qəzetlər, həm də televiziyalara çatdırmağımız gərəkirkən, DAK adlı qurumun içində bir-birimizi niyə yediyimizimi yazım?

Çox maraqlıdır, bu DAK qurulduğu gündən bəri bu yana ancaq və ancaq mübahisələrə, bölünmələrə, parçalanmalara şahid olub, əsas vəzifəsini qoyub bir kənara, ancaq və ancaq şəxsi mənafeyini güdən bir təşkilata çevrilib. Bir qrup şəxsin mənfəətlərinə görə tez-tez konqreslərə gedilir və hər konqresdən sonra yenə bu dəyişməyən qrupun oyun sahəsinə çevrilir.

Bilirsiniz, mən DAK ilə yollarımı iki il bundan öncə ayırmışdım. Səbəbi isə çox aydın idi, DAK iş görmədiyinə və ya görməsinə əngəllər yaradıldığına görə ərizəmi verib Belçika nümayəndəliyindən ayrılmışdım. Keçdiyimiz günlərdə Brüsseldə toplaşan DAK İdarə Heyəti müəyyən qərarlar aldı, ən başda yenidən qurultay keçirmək qərarı verdi və məni də Belçika nümayəndəliyinə yenidən təyin etdi, eyni zamanda bu quruma qurultayın təşkil olunması vəzifəsi verildi. Mən bunu qəbul elədim, çünki bu qurumun işsizlikdən qurtulmasına, fəaliyyət göstərən bir qurum halına gəlməsinə və daxilindəki bu qurumu istəməyən mənbələrdən təmizləməyə kömək göstərmək üçün qəbul etdim.

Nə isə vəziyyət deyəsən o qədər də vahiməli deyil, mən ən yaxşısı qardaş Türkiyədən gələn o gözəl xəbəri yazım. Türkiyəmizin Baş Naziri Tayyib Ərdoğanın ermənilərin üzünə şillə kimi dəyən o sözünü yazım. Bizim illərdir gözlədiyimiz bu hadisəni ermənilərə açıq bir şəkildə «Qarabağı tərk edin!» dediyi bu sözü yazım. Beləliklə, yuxarıda vahiməli bir söz yazılıb, elə bil onları unutduran bu gözəl xəbərlə yazımı tamamlayım, sağ ol qardaş Türkiyə!

*29 fevral, 2008-ci il*

## HƏR ŞEYƏ RƏĞMƏN İŞLƏRİMİZ GEDİR!

**Bəli, hər şeyə rəğmən, içimizdə bizi yıxmaq istəyənlərə, ətrafımızdakı düşmənlərimizə rəğmən işlərimiz yavaş-yavaş da olsa, davam edir. Bu Xocalı ilində çətinliklərimizə baxmayaraq, dünyanın dörd bir yanında tək vücud, tək ürək olduq. Ən sevindiricisi isə qardaş Türkiyə bu il digər illərdən fərqli olaraq, qanayan yaramız Xocalıya daha diqqətlə və tam qardaşca yaxınlaşdı və bu da dünya Türklərinin sevincinə səbəb oldu. Dünyanın dörd bir yanı, bəli, elə bir ölkə olmadı ki, orada Xocalımızın adı hallanmasın. Bu, çox sevindirici bir haldır. Düzdür, hüznlü günümüzdə sevinmək olmaz, amma biz bunu dünya ictimaiyyətinə çatdırdığımıza görə hüznlü bir sevinc yaşadığımızı gizlətmək mümkün deyil.**

Bu il keçən illərdə olduğu kimi «Belçika Azərbaycan Evi» də boş durmadı. Keçən il CD ilə avropalılara faciəmizi anlatmışdıq, bu il də fransız dilində kitab çap edərək bu qanlı yaramızı avropalılara anlatmağa nail olduq. "Əsir Torpaq Qarabağ" adlı kitabımız artıq Belçika, Lüksemburq, Fransada geniş yayılmağa başladı. Bu işimizlə də qürur duyuruq, mənə elə gəlir ki, artıq önümüzdəki günlərdə daha əhəmiyyətli işlər görəcəyik.

İkinci məsələmiz DAK-dır. Bu təşkilatımız da olumsuz və onu içindən yıxmaq istəyən güclərə rəğmən, öz fəaliyyətini çox gözəl bərpa etməyə başladı. Hazırkı DAK sədri öz fəaliyyətini dayanmadan davam etdirir, çox önəmli görüşlər keçirir, Avropanın ən önəmli şəxsiyyətləri ilə görüşlər yapır..., bunlar hamısı bizim DAK- dan gözlədiklərimiz idi. Buna bir də biz - «Belçika Azərbaycan Evi» Belçika nümayəndəliyi olaraq başladıq. İşlər çox ciddi şəkildə dəyişdi və iş gedir, amma bu işdən narahat olan bir qrup var ki, durmadan ürək ağrısı çəkirlər. Onlar DAK-ın işləməyini istəməyən, arxalarında

qaranlıq güclərin olduğu bir qrupdur. 4-5 nəfərdən ibarət bu qrup İsveçdən tez-tez DAK adına yalan xəbərlər yayaraq həmvətənlərimizə problemlər yaratmağa çalışırlar, amma cavablarını alırlar. Bunlar əsl cavabı isə iyun ayında Brüsseldə keçiriləcək X qurultayda alacaqlar. Mən əslində bunların yerində olsam heç o iclasa gəlmərəm, amma bunlar elə yerlərdən idarə olunurlar ki, o güc hər şeyə rəğmən bu iclaslara qatılmaq və özlərini bu qurumun içinə soxmaq məcburiyyətində hiss edirlər. Amma yenə deyirəm bu dəfə ağızlarının cavabını alacaqlar, xalqımız bunlara ən yaxşı cavabı verəcək və bir dəfəlik bu qrupu, daha doğrusu bu "xəstə qrupu" aramızdan silib atacağıq. Bunlar bu böyük adın önündə əngəl olamayacaqlar, bunu bilsinlər artıq, bu hərəkat öz gücünü tapıb, bu yoldan dönmək olmaz.

*14 mart, 2008-ci il*

# ŞAHZADƏ WİLLİAMS VƏ MİLLİYYƏTÇİLİK!

**Təxmini hamımız tanıyırıq, amma tanımayanlar üçün qısa bir məlumat verməkdə fayda var deyə düşünürəm. Şahzadə Williams İngiltərə şahzadəsi Çarlz ilə şahzadə Diananın oğlanlarından biridir, İngilis kral ailəsindəki krallıq sırasında ikinci sırada yer alır.**

Bu yaxınlarda şahzadə Williamsın nənəsi kraliça Elizabet tərəfindən gizlicə Əfqanıstandakı döyüşə göndərildiyi meydana çıxdı. Bu xəbər mətbuatda yayımlandığı üçün Şahzadə Williams geri-İngiltərəyə çağırıldı. Bəli, gəlin indi bir az milliyyətçilikdən söhbət açaq. Dünyada bəlkə də bizdən çox vətən adını, millət adını çəkməkdə üstün olan xalq yoxdur. Vətən üçün şeir yazmaqda, mahnı bəstələməkdə dünyada birinci yerdəyik. Lakin iş o yazdıqlarımızı, bəstələdiklərimizi, oxuduqlarımızı həyata keçirməyə gələndə ortada adam tapılmayan yeganə xalq yenə də bizik (burada biz deyəndə bütün Türk xalqını nəzərdə tuturam). İngiltərə kimi inkişaf etmiş, dünyanın bir çox ölkəsini əsarəti altına almış bir ölkənin yaxın zamanlarda kralı olacaq bir vətəndaşı XXI əsrdə savaşa hazır olsun deyə, ölkəsinin milli dəyərlərini anlasın deyə, normal vətəndaş ilə kral ailəsinin heç bir fərqi olmadığını sübut etmək üçün sıravi əsgərlərlə bərabər eynilə onların vəziyyətində əskərlik etməsi biz türklər tərəfindən oturub uzun-uzun düşünüləcək bir hadisədir. Söhbət vətəndən, bayraqdan, millətdən düşəndə quş südünün belə əskik olmadığı masalar ətrafında saatlarla ayaq üstə



danışan bizlərin bu hadisədən alacağı çox böyük dərslər var məncə. Bu hadisələrin baş verdiyi günlərdə Fransada bir toplantıda xarici işlər nazirliyimizin bir diplomatı tərəfindən keçirilən Azərbaycanla bağlı konfransda diplomat xanımımızın düz arxasında duran Azərbaycan bayrağının tərs asılmış olduğunu gördüm, çox üzüldüm, amma ilk deyildi bu hadisə. Yadıma bir hadisə düşdü, Milli liderimizin Lüksemburqa səfərlərinin birində qalacağı mehmanxananın qabağındakı bayrağımızın tərs asıldığını görmüşdüm. O vaxtlar Brüsseldəki Azərbaycan səfirliyində işləyirdim, səhv etmirəmsə, 1997-ci il idi, çox əsəbləşmişdim, bir neçə dəqiqə sonra Milli lider gələcəkdi və bayrağımız tərs asılmışdı. Bütün mehmanxananı ayağa qaldırdım, o zamankı səfir, Bülent, nə olub, problem yoxdur, bir şey olmaz demişdi, elə bildim başımdan qaynar su tökdülər, mən onu dinləmədim və təcili olaraq mehmanxana personelinə bayrağımızı düzəltmələrini tapşırdım və düzəldikdən sonra rahat bir nəfəs aldım. Belə hadisələr mənim başıma çox gəlib, 5 il səfirlikdə işlədiyim zamanlar belə hadisələrlə çox mücadilə etdim. Hər dəfə də bəlkə səhv başa düşüldüm, amma deməyi və düzəltməyi özümə borc bildim, heyif ki, o Parisdəki iclas zalında mən olmamışam, amma şəkillərdə göründüyü kimi zalda çoxlu sayda diplomatımız olub, buna baxmayaraq, bayrağımız tərs vəziyyətdə asılı qalıb.

*30 aprel, 2008-ci il*

# ADINI QOYMADIĞIM YAZI!

**Dilə asan gəlsə də, düz 30 ildir ki, bu davaya könül vermişəm. 30 il! Belə olanda mənim də söz deməyə haqqım vardır və icazənizlə haqqım üzrə bəzi məsələləri deyim. Diaspor sözü işlədəndə mən özümü tamamilə məsuliyyətli bir insan sayıb, sözümü demək istəmişəm və demişəm də. Bu sözlərim kiməsə maraqlı və doğru gəlsə də, çox insanların acığına gedib, hiddətlənənlər, hücum edənlər, qara yaxanlar, daha kimlər tərəfindən dəyişik təpkilərlə qarşılanıb, amma yenə də dediyimi demişəm, bu gün də elə edirəm və demək düşündüyümü deyirəm.**

Vəziyyət ağırdır və getdikcə də ağırlaşmağa davam edir. Baxın, elə bu ilin əvvəlində bir neçə ağrılı günlərimizin anımı ərəfəsində hələ də əsir torpaqlarımız üstündə cürbəcür oyunlar oynanılır, amma, bəs, biz nə edirik? Ancaq və ancaq öz reklamlarımızla, bir-birimizə hücum etməklə, cəmiyyət dağıdıb yenidən cəmiyyət qurmaqla məşğuluq.

İş görməməyimiz bir tərəfə, iş görənlərə də imkan verməməyə çalışırıq, onlara qaralar yaxırıq və bir neçə özünü bilməyənin əlində, öz milli diasporumuzu oyuncaq etmişik.

Sizə səmimi deyim ki, düşmənlərimiz bu hadisələrdən çox gözəl həzz alırlar, ləzzət edir onlara. Özünü diaspor nümayəndəsi sayan bu 3-5 "rəqqası" göbək rəqsləri ilə aramıza soxurlar və bizlər də bu rəqqaslara böyük bir ləzzətlə baxıb əl çalırıq.

Daha nə deyim, mənim yazılarımı və mətbuatda gedən tənqidlərimi indiyə qədər izləyən həmvətənlərim çox yaxşı bilir ki, diaspor işində mən hər zaman doğruları demişəm, inandığım yolda yürümüşəm, kimsənin çörəyinə bais olmamışam, bundan belə də olmayacam.

Bu qloballaşan dünyada bizlər bir diaspor kimi öz yerimizi tutmamışıq, düzgün təşkilatlanma, iş prinsipi və avropasayağı planla işləyə bilməmişik və bu işləyə bilməməyimizin səbəbini bilə-bilə bunun üçün bir tədbir görməmişik.

Mən bunları demək istəyirəm, yəni yazmağım bir tərəfə, çıxıb konfranslarda danışmaq istəyirəm, öz bildiyim, öz getdiyim bu 30 illik diaspor yolunu və bundan sonrasını, dünyadakı həmvətənlərimlə paylaşmaq istəyirəm, olmur. Alınmır! Ya mənim şansım yoxdur, ya da birilərinin şansı çoxdur, hec cürə nəsib olmur. Ya dəvət olunmuram, ya da olunan dəvətə gedə bilmirəm, bu rəqqasları alqışlamayacağım bilinir. Özünü diaspor nümayəndələri sayan bu 3-5 nəfər DAK adını özlərinə oyuncaq edib, yerdən-yerə vurur, istədikləri kimi oynayırlar. Bu rəqqaslara öz sözümü deyə bildiyim qədər deyəcəm, ta ki, onların üzündəki maskaları çıxarılana kimi mücadiləm davam edəcək. Söz verirəm!

*15 aprel, 2008-ci il*

## BU SABAH GÖZ YAŞLARIMI TUTAMADIM

Mehmet Akifin Türk millətinə ərmağan etdiyi "İstiklal" marşını yazması tarixçəsini elektron adresimə bir dost göndərmişdi. Görüntülü hazırlanmış bu tarixi hadisəni seyr edərkən çox duyğulandım, yenə göz yaşlarımı tutamadım. Halbuki hadisənin yaşandığı tarixdən düz 87 il keçmişdi. Bəs, 87 il sonra insanın gözlərini yaşardan, ürəyini kövrəldən, insanı duyğulandıran səbəb nə ola bilərdi? Onu düşündüm, düşünərkən də bu yazını qələmə almaq gəldi





içimdən, hər halda milliyətçilik ruhu, milli düşüncəyə sayğı, vətənə, millətə bağlılıq bu olsa gərək.

Daha sonra isə başladım 87 il əvvəl ilə bu günümüzü müqayisə etməyə. Olmayacak, xəyal belə edilməyəcək fikirlər keçdi başımdan, əcəba, varmıdır Mehmet Akif kimi insanlar bugünkü tariximizdə? Yaşayan belə bir əfsanə insan varmı deyə düşündüm, hesablar etdim, ağlımdan cürbəcür adlar keçdi, nə etdimsə, olmadı. Bu bənzətməyə bir qılıf tapa bilmədim, üzüldüm, gözlərim yaşardı. Avropanın paytaxtında 87 il öncəni düşündükcə, öz getdiyim yolu belə sorğulamağa başladım, sıxıldım, utandım, çox üzüldüm. Sona çatanda isə getdiyim davanın, yolun ağırlığı düşdü çiynimə.

Mehmet Akifin Türk "İstiklal" marşını yazması prosesini sizlərə tövsiyə etməyi düşündüm, içində bulunduğumuz qarışıq dövrdə bir-birimizi yeməyimiz, torpaqlarımıza sahib çıxmadığımız bu zamanda, bu hadisəni sizlərin də oxumanızı düşündüm, rica edirəm, oxuyun yandakı bu yazını. Mənim üçün maraqlıdır ki, sizlərin də gözləri yaşaracaqmı, sizlərin də ürəyi kövrələcəkmi, sizlərin də qəlbi sızlayacaqmı? Əgər elə olmayacaqsa, düşünürəm ki, mən bəlkə xəstəyəm, özümün müayinəm ilə məşğul olmağa başlayacam, inanın ki, düz deyirəm, çox üzgünəm, çox. Bizim də üzərində uzun-uzadı düşünməmiz vacib olan bir sözdür, Mehmet Akif ölüm döşəyində yatarkən, bir nəfərin söhbət arasında işlətdiyi söz "Bəlkə, "İstiqlal" marşını dəyişdirək və yaxud təzəsini yazaq?", bu sözü duyarkən başını qaldırıb deyir ki: ***"Allah, bu millətə bir daha "İstiqlal" marşı yazmağı nəsib etməsin"***. Bu sözdən sonra əslində yazını bitirmək lazımdır. Amma ürəyimdə bir səs deyir ki, əslində təzə başlamalıdır.

Bu gün özlərini, Türk dünyası, bütöv Azərbaycan, milli birlik, yolunda sayan insanlar (!!!) gəldi gözümün qabağına, milli davamızı özlərinin çörək qapısı bilib, min bir sifətlə oynayan oyunçular gəldi gözümün önünə, 1921-ci ildə yaşamağı düşündüm, o tarixlərdə olmağı xəyal etdim, Çanaqqalanı, Sarıqamışı düşündüm, çox üzüldüm, çox.

*30 aprel, 2008-ci il*

## MİLLİ LİDERİMİZ BUNLARI GÖRSƏYDİ!

**Bu günlərdə dahi insan milli liderimizin anadan olmasının 85 illiyini qeyd edirik. Bir Azərbaycan Türkü, təşkilatçı və diaspor nümayən-**

dəsi olaraq milli liderimizlə bir neçə dəfə görüşmək, söhbət etmək mənə də nəsib olmuşdu. Bu məsələ ilə bağlı mənim çox yazılarım olub, bu gün isə o yazılarımdan fərqli olaraq, milli liderimizin 85 illik yubileyi ərəfəsində diasporumuzun bugünkü acınacaqlı vəziyyətindən danışmağı düşünürəm.

Yazımın adından məlum olduğu kimi milli liderimiz bu günləri görsəydi nə edərdi, deyə düşündüm. Bəli, son günlərdə milli liderimizin diqqətlə qurduğu və şəkil verdiyi, bütün dünya azərbaycanlıları kimi mənim də qayğıyla izlədiyim diasporumuzun bu gün yaşadığı acılı vəziyyət barədə yazmağı düşündüm.

O vaxt da bu sual gəldi ağlıma, dedim görəsən, milli liderimiz bu vəziyyəti görsəydi, nə edərdi?

Bilirsiniz, mənə elə gəlir ki, birincisi bu vəziyyət heç yaranmazdı, çünki onun göstərdiyi qayğı və diqqət bugünkü vəziyyətin yaranmasına imkan verməzdi. İkincisi, o öz tövsiyyələrini vaxtında və yerində verdiyi üçün yenə də bu vəziyyət yaranmayacaqdı. Üçüncüsü isə, hər yerindən qalxan, ağzı söz tutan hər bir insanın bu önəmli məsələmiz haqqında ağzına gələn hər sözü danışmasına imkan yaranmazdı.

Bu gün elə bir vəziyyət yaranıb ki, Türkiyəmizdə bir söz var "Ağzı olan danışır". Bax, belə bir vəziyyətdir, hələ elələri var ki, danışır, amma nə dediyi naməlumdur.

Vəziyyət elə bir yerə çatıb ki, əlaqəsi olmayan hər kəs danışır diasporumuz olub "kolxoz bazarı". Hələ elələri var ki, onların adlarını elə bu məsələlərlə bağlı eşitmişik, 30 ili keçmiş təşkilatçılıq həyatımda adını, izini görüb duymadığım insanlar (!) var, ən çox da onlar danışır. Danışması bir tərəfə, əmrlər verir, yol qoyur, hədəf göstərir, tövsiyyələr verir. Bir nəfər də çıxıb demir ki, ay vətəndaş, nə danışırsan, sən kimsən?

Doğrudan da ciddi və təhlükəli bir vəziyyət yaranıb. Mən çox-çox əvvəllər demişəm, təkrar edirəm, Azərbaycan sözünə imtiyaz qoymaq lazımdır, bu sözü işlədən məsuliyyət daşımalıdır, hər yerindən qalxan bizim kimi böyük xalqın adını istədiyi kimi çəkməməlidir.

Milli liderimiz uzaqgörən bir insan olub, elə bu vəziyyətə düşəcəyimizi bilib. Bilib ki, elə bu işlər üçün komitə yaradıb və bu məsələləri dövlət təminatı altına alıb. Əslində, bu komitəmiz bu işləri tənzimləməlidir, öz tövsiyyələrini verməlidir, düzənli olması üçün də öz diqqətindən qaçırmamalıdır.

Deyilir ki, Dünya Azərbaycanlılarının sədri Güneyli olmalıdır. Özü də bu sözü işlədənlər ziyalı dediyimiz şəxslərdir(!). Mənə görə, bu sözü deməyin özü elə yanlış, mənasız, bölücülüyə əsaslanan sözdür. Nə deməkdir, dünya azərbaycanlıları adını təmsil etmək ancaq azərbaycanlıların bir qisminin



idarəsinə verilməlidir? Bu sözü kim və hansı haqla deyir? Bu sözü işlədən kim olursa olsun, məncə diaspordan başı çıxmayan, milli birliyin nə demək olduğunu bilməyən insandır, o, vətənə xidmət etməyən insandır. Bu sözün işlənməsi belə Azərbaycan diasporuna edilən ən böyük xəyanətdir. Bu sözü işlətmək elə 50 milyonun özünə xəyanətdir. Bu sözü işlətmək vətən uğrunda canlarını qurban verən yüz minlərlə şəhidimizə xəyanətdir. Bu sözü işlətmək Azərbaycan dövləti tərəfindən qadağan olunmalıdır.

Hər bir xalqın milli dəyərləri var ki, onunla oynamaq olmaz, onu meydan ortasında istədiyin vaxt, kefin qalxanda işlətmək olmaz, o dəyərlər ki, var, adına milliyyətçilik deyilir, onu işlətməyin bir nizamı olmalıdır.

Bü gün isə bayaq dediyimiz kimi "Ağzı olan danışır" .

Amma ümidlərimiz hələ ki, tükənməyib, nə vaxtsa, necəsə, bir güclü, hörmətli diasporumuzu yaradacağıq. Mən buna inanıram. Milli Liderimizin 85 illik yubileyini də dərin sayqıyla anıram.

*15 may, 2008-ci il*

## DAk

**İndi bəzi oxucularımız deyəcək ki, bəsdir, yenə DAk? Bilirsiniz, nə var, bu qurum nə zaman ki, bu 5-10 nəfərin əlindən qurtulacaq, o vaxt da biz artıq DAk-ın aqibətindən yox, görəcəyi işlərdən danışmağa başlayacağıq.**

Bu son günlərdə redaksiyamıza demək olar ki, hər gün DAk-la bağlı bir xəbər gəlir. Xəbər də nə xəbər! Boş sözlər, boş xəyallar, cürbəcür ssenarilər və əlaqəsi olmayan insanların boş-boş açıqlamaları.

Son açıqlama isə məşhur müğənnimiz İlhamə xanımdan gəlib. İlhamə xanım açıqlamasını elə ciddi verib ki, deyərsiniz ki, DAk-ı illər boyu bu xanım idarə edib, qərarlar açıqlayıb, sensasiyalı açıqlamalar yayıb və öz zənnincə DAk-ı birləşdirib.

Bilirsiniz, əslində DAk təkdir, birləşikdir, yəni dünya azərbaycanlılarının heç bir problemi yoxdur. Bu 5-10 nəfər ki, var özlərini dünya azərbaycanlılarının qədərini təyin edənlər kimi təqdim edərək çıxıblar ortaya, problem onların öz aralarında gedir, bizlər də oturub seyr edirik. Birləşirlər, ayrılırlar, bizim adımızdan öz-özlərinə qərarlar verirlər, sonra da o qərarları yenə özbaşlarına ləğv edirlər. Günləri belə keçir bu zavallı insanların!!!

Zavallı deyirəm, doğrudan zavallıdırlar, psixoloji problemləri var, çün-

ki normal insanlar belə hərəkət etmirlər. Düşünün ki, dünyada 50 milyonluq qədim bir xalqın taleyini öz əllərində bilirlər, 3-5 nəfər öz-özlərinə dünya azərbaycanlılarının taleyi ilə oynayırlar, sizcə zavallı deyillərmi?

İnsanda bir az ağıl olmalıdır, inanın ki, bunlar hər dəfə açıqlama verəndə məni gülmək tutur. Öz-özümə gülürəm və düşünürəm ki, əcəba, bunlar xalqımızın onlara güldüyündən xəbərdar deyillərmi? DAk dünyanı qoyub qırağa düşüb bizim rayonlara. Hər gün bir rayonumuzdan DAk-la bağlı bir xəbər gəlir. Avropa, dünya qalıb kənarda, DAk gedib Balakənə! Gəlin, siz siz olun, buna gülməyin.

Biz DAk-ı Brüsseldə görmək istəyərdik, bir də baxırıq DAk Yevlaxdadır. Bəs nədir bu məsələ, heç başa düşə bilmirik. Bu son açıqlamalar əməlli-başlı bu işin xarab olduğunu sübut edir. Artıq bu qrupdan bu işi qurtarmaq lazımdır, bu qrupu isə tamamilə bu işdən uzaqlaşdırmaq. Bax, bu olacaq DAk-ın qurtuluşu və DAk Azərbaycanda deyil, Avropada işini davam etdirməlidir.

Allah ağıl, fikir versin, başqa nə deyim?

*30 may, 2008-ci il*

## NƏ YAZIM, NECƏ YAZIM?

**Bəli, nə yazım? Əslində hər şeyi bir kənara qoyub, ancaq gördüyümüz gözəl işlərdən yazmaq daha yaxşıdır məncə. Lakin çox yaxşı bilirəm ki, nə yazsam da yenə axırı gəlib ya DAk-la, ya da diasporumuzla bitəcək.**

Bilirsiniz, redaksiyamızdan hər dəfə mənə deyiləndə ki, Bülent bəy, köşə yazınızı göndərin mən bu problemi yaşayıram, sanki artıq bu mənim mənliyim olub, nə yazsam axırı gəlib diasporumuzda qurtaracaq.

Qəzetimizdə görürsünüz yəqin ki, formalaşma davam edir, Azərbaycanımızın gözəl gələcəyi üçün biz də bir diaspor təşkilatı və media qurumu olaraq əlimizdən gələn xidməti etmək və bu gedişlə öz rolumuzu başa düşərək əmin addımlarla bu proseslərə qoşulmuşuq.

*«Belçika Azərbaycan Evi» və "Euro Xəbər" qəzeti olaraq dayanmadan* işlərimizi davam etdirir, qəzetimizi nəşr edir, kitablar çıxarır və yeni reklam bukletimiz "İ am in Baku" nun növbəti sayı ilə ölkəmizi ziyarətə gələn xarici qonaqlara xidmət göstəririk.

Artıq üçüncü ildir ki, Avropanın bir çox ölkəsində [illegible] bəri qeyd





olunan Qonşular Bayramını da öz paytaxtımızda keçirməyin qürurunu yaşayırıq. Bilirsiniz, bunların hamısı ölkəmizin Avropaya inteqrasiyası yolunda atılan addımlardır, öz içimizdə bununla maraqlananlar olmasa da, gördüyümüz xarici insanlar doğru yolda olduğumuzu və gözəl işlər gördüyümüzü bizə *bildiriblər və bu da bizə bu yolda böyük həvəs və qürur hissi verir.*

Amma bir şeyi də yaxşı bilirik ki, hələ yolumuz uzundur, işlərimiz çoxdur, yeni-yeni layihələr həyata keçirməli, gördüyümüz işlərin əhatəsini genişləndirməliyik. Hədəfimiz Azərbaycanın hər guşəsi və dünyanın dörd bir yanındakı həmvətənlərimizlə əlaqələr yaratmaqdır. Bu çox çətin olsa da bacarmalıyıq, hədəflərimizə çatmalıyıq.

İndi deyəcəksiniz ki, bəs bu güc sizdə varmı? Bəli, var. İndiyə qədər gördüyümüz işlərə dönüb baxdığımda bu gücün bizdə ola biləcəyinə inanıram, məhz o qüvvə ilə də işlərimizi davam etdiririk. Bu çətin yolda təbii ki, üzücü, qırıcı, həvəsdən salıcı, bezdirici hücumlara da məruz qalırıq, lakin bu bizi heç vaxt yolumuzdan saxlamağa yetməz, hər hücumun altından təzə bir güclə, təzə bir qüvvə ilə çıxırıq. Allah bizimlədir, yolumuz qutsal və doğrudur.

Yeri və zamanı gəlmişkən, DAk-la bağlı da bir neçə kəlmə deyim icazənizlə, sonra bağlayım yazımı. Nəhayət, DAk deyilən və ancaq adı olan bu qurumumuz ətrafında dönən işlər və o qrup ki, var, hansı ki, DAk-ın qədərini yönləndirmək istəyir, bu "şəxsiyyətlər" (?!) bir-birilərini o qədər yeyirlər ki, artıq söhbət beldən aşağıdadır. Əslində, bugünkü yazımı elə buna həsr etmək istəyirdim. Yazımın adını da "Alçaq dağlara qar yağarsa..." qoyacaqdım. Bu bir Türk atalar sözüdür, hər halda anlayan anladı.

***13 iyun, 2008-ci il***

## QURDUN HEKAYƏSİ

**Bu günlərdə Türk dünyasının vəziyyəti, bizim diasporumuzda uzun illərdən bəri baş verən parçalanmalar, illərdir xəyalımız olan Türk dünyasının birliyinə nail olmamağımız məni çox düşündürdü. Bu yaxınlarda bir dostumla qurdların həyat tərzi və yaşantıları barədə etdiyimiz söhbət məni maraqlı bir düşüncəyə vadar etdi. Oturub fikirləşdim, götür-qoy etdim, axırda bu fikrimi siz həmvətənlərimlə də paylaşmağa qərar verdim və yazımın adını da "Qurdun hekayəsi" qoydum.**

Bəli, deməli qurd sizin də bildiyiniz kimi çox maraqlı bir heyvandır.

Onu digər heyvanlardan fərqləndirən ünsürlər də çoxdur. Birinci xüsusiyyəti gözlərindəki sirdir, o, canlı, çox güclü gözlərə sahibdir və gözləri ilə qarşı tərəfi uydura bilir. İkinçi maraqlı və önəmli cəhəti isə əhilləşməməsidir. Qurdun digər heyvanlardan fərqli olaraq bəlkə də Türk boyuna yaxın olmasına səbəb onun əsarətə gəlməməyidir. Yəni qurd heç bir şəkildə əsarətə düşmür, o ancaq təbii şəraitdə sərbəst yaşamalıdır. İndi deyəcəksiniz ki, nə olub, artıq heyvanlar aləmindən yazırsan? Yox, məramım başqadır, bu sadəcə yazımın girişidir, bir az qurdu tanıtmaq istədim.

Bəli, deməli bu içində yaşadığımız vəziyyət, heç cürə bir araya gəlməməyimiz, birliyə nail olmamağımız, parçalanmaq, güvənsizlik və bir-birimizə hücumun heç demə əsl qaynağı qurdda imiş, daha doğrusu mən belə düşünürəm.

Sizin də çox yaxşı bildiyiniz kimi qurdun türk dünyasında xüsusi yeri var. Dədə Qorqud dastanında var olan Qurd, Oğuz türklərinin "ERGENEKON" dastanında qəhrəman olub, orta Asiyadan çıxan Türk boyu Oğuzlara yol göstərib, indiki yaşadığımız vətən topraqlarını bulmamıza kömək edib. Buraya qədər çox gözəl.

Ancaq, dostumuzla söhbət edəndə qurdun bir çox yeni xüsusiyyətini də öyrəndim və bu xüsusiyyətini öyrənəndən sonra dedim ki, deməli problem elə burdaymış. Bəli, indiyə qədər bir-birimizlə birləşməməyimizin, bir-birimizə güvənməməyimizin, bir-birimizə hücum çəkməyimizin cavabdehi qurddur. Bəli, qurddur! Deməli, qurd bizim ilk soyumuz olan Oğuz boyuna yol göstərib bu gözəl vətən torpaqlarını tapmağımıza səbəb olduğu kimi, eyni zamanda bizə istər-istəməz başqa bir xüsusiyyətini də yeridib və bizlər də fərqində olmadan əsrlər boyu beləcə yaşamışıq.

Deməli, qurdlar meşədə və dağlarda sürülər halında yaşayırlar. Onlar ailələr halında olurlar və birgə qruplar şəklində dolanırlar. Bir-birləri ilə çox sıx bağlarla bağlı olmalarına baxmayaraq, qurdlar bir arada yatanda heç bir qurd başqa bir qurda arxasını dönüb yatmırmış, lap erkək qurdla dişi qurd belə. Hətta onların balaları belə bir-birilərinə arxalarını dönməzlər. Deməli, bütün qurdlar bir-biriləri ilə ancaq üzbəüz yatarlar, bunun da səbəbi bir-birilərinə olan güvənsizlikdir. Yəni, açığı bir qurd həyatı boyu bir qurda arxasını dönmür və hər zaman özünü qoruyur.

Bəli, indi başa düşdünüzmü, biz niyə birləşmirik, indi bildinizmi Türk dünyasında niyə birliyə nail ola bilməmişik. İndi gördünüzmü biz bir-birimizə niyə hücum çəkirik, bildinizmi bu vəziyyətdə olmağımıza səbəb qurd imiş. Bəli, bütün problem qurdda imiş, mən artıq rahatam, suçlu tapıldı, siz də rahat olun.

*27 iyun, 2008-ci il*



## Bülənt Gürçamın fəaliyyəti barədə mətbuatda dərc edilmiş yazılardan nümunələr

# Ortaya faktlar qoyulacaq

**Bülənt Gurcam:** "Biz daha mədəni şəkildə avropalıların fikirlərinə girməliyik"

*Belçikanın paytaxt şəhəri Brüsseldə fəaliyyət göstərən* ***"Azərbaycan evi" Cəmiyyətinin rəhbəri, soydaşımız Bülənt Gurcam*** *Bakıda oldu.*

*Tanışlıq üçün qeyd edək ki, B Gurcam əslən azərbaycanlıdır. Ailəsi 1931-ci ildə İrəvandan Türkiyəyə köçüb. O, 1962-ci ildə İğdır vilayətində doğulub. İxtisasca jurnalistdir. Türkiyənin bir neçə nüfuzlu qəzetlərində çalışıb 1980-ci ildə Brüsselə köçüb və orada jurnalist kimi fəaliyyətə başlayıb. Həmin ölkədə Azərbaycan diasporunun təməlini də o qoyub.*



Bülənt Gürcam

[illegible]

# "Dünya azərbaycanlılarına müəyyən hüquqlar verilməlidir"

**Bülənt Gürcan:** "Onlara dövlətçiliyin formalaşmasında iştirak etmək üçün şərait yaradılmalıdır"

***Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi xaricdə fəaliyyət göstərən diasporumuzun daha mükəmməl formalaşması üçün yeni mərhələnin əsasını qoydu. Eyni zamanda onların üzləşdiyi problemləri yenidən gündəmə gətirdi.***

Bu toplantıya bir çox ölkələrdən xüsusi nümayəndələr qatıldı. Onlar dövlət və diaspor arasındakı münasibətlərin səviyyəsi ilə bağlı müxtəlif fikirlər və təkliflər irəli sürdülər. *Biz də sözügedən məsələ ilə bağlı* **Belçikada fəaliyyət göstərən "Azərbaycan Evi" təşkilatının sədri Bülənt Gürcanla** söhbətləşdik.

***- Qurultayın nəticələrini necə dəyərləndirirsiniz?***

- Bu cür tədbirlərin keçirilməsi çox yaxşıdır. Hamının deyiləsi sözü var idi. Mən Dünya Azərbaycanlılarının Qurultayında ilk dəfə idi ki, iştirak edirdim. Lakin orada çıxış edə bilmədim. Prezident İlham Əliyevin çıxışı çox gözəl məqamlar üzərində qurulmuşdu. O, dünya azərbaycanlılarının ürəyinə su səpən bir çıxış etdi.

**ardı səh. 3▶**

Cəmiyyət

14

http://www.ucnoqta.com
E-mail: mail@ucnoqta.com
OKTYABR 28, 2006

ÜÇ NÖQTƏ
199 (1430)

# "Qarabağ Azərbaycanın bir güşəsidir"

BÜLƏNT GÜRÇAM: " QARABAĞA AİD AYRICA BİR STEND NÜMAYİŞ ETDİRİLƏCƏK"



Yasəmən

# Презентация книги "Национальная кухня Азербайджана"



19 октября в Международном пресс-клубе состоялась церемония презентации книги "Национальная кухня Азербайджана", изданной в Бельгии. В издании, наряду с информацией о блюдах национальной кухни, содержится информация о древних городах Азербайджана, традициях и древних находках, обнаруженных при археологических раскопках. В издание, помимо 55 различных рецептов национальных блюд, вошли данные о Шеки, Гяндже, Лянкяране, Игдыре, Нахчыване и Агрыдаге.

Глава "Азербайджанского дома Бельгии" Бюлент Гюрджам отметил, что целью публикации данной книги большим тиражом является дать достойный ответ на уловки армян, которые в последние время представляют в Европе национально-культурные, материальные и духовные ценности азербайджанского народа как свои, включая такие азербайджанские блюда как плов, долма, бастурма, кябаб и довга.

По словам Б.Гюрджам, книга "Национальная кухня Азербайджана" будет продаваться в Азербайджане, а также Франции, Бельгии, Германии, Голландии и др. европейских странах. Он дополнил, что целью издания является также развитие туризма Азербайджане и превращение страны в место отдыха для туристов.




**Bülent Gürçam 20 yanvar hadisələri ilə bağlı Türkiyənin "Hürriyyət" qəzetində danılmaz faktorlar çap etdirmişdir.**

*(23 yanvar 1990)*

# "Türk təşkilatlarında bir oyanma baş verir"

## *Bülənt Gurcam:* "Artıq diaspor qurumlarımız hərəkətə gəlib"



Belçikanın paytaxtı Brüsseldə "Azərbaycan günləri" keçiriləcək. "Azərbaycan günləri"ni Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin fəal dəstəyi ilə Belçikadakı Azərbaycan Evi təşkil edir. Bunu dünən Dövlət Komitəsində təşkil etdiyi mətbuat konfransı zamanı Bakıda bir neçə günlük səfərdə olan "Azərbaycan Evi"nin rəhbəri Bülənt Gurcam söylədi.

Öncə cəmiyyət haqqında məlumat verən B.Gurcam bildirdi ki, Belçikada "Azərbaycan Evi" 2000-ci ildən fəaliyyət göstərir. Qurumun sədri bildirdi ki, Bakı səfərində məqsəd iyunda Belçikada "Azərbaycan günləri"nin təşkilinə hazırlıqla bağlıdır. "Biz artıq çox fəal olaraq Dövlət Komitəsi ilə işləməyə başlamışıq. Çox böyük planlarımız var. Bunlardan biri də "Azərbaycan günləri"nin keçirilməsidir". Onun sözlərinə görə, tədbir Dövlət Komitəsi ilə birgə düzənlənəcək. "Dövlət Komitəsi bir çox Avropa dövlətlərində bu cür tədbirlər keçirib və hər biri də böyük maraqla qarşılanıb. "Azərbaycan günləri"ndə isə Azərbaycan xalçalarının sərgisi, rəsm əsərləri sərgisi, azəri mətbəxi, millətçilik, türkçülük simvolları nümayiş etdiriləcək. Avropa Azərbaycanı yalnız problemli dövlət kimi yox, çox qədim kökə, mədəniyyətə malik bir dövlət kimi tanımalıdır".

B.Gurcam bildirdi ki, xarici dövlətlərin Azərbaycana olan maraqları günbəgün artır. Yaxın günlərdə Avstriyada bütün türk diaspora təşkilatları ilə birgə keçirilən toplantı böyük rezonans doğurub. B.Gurcam bildirdi ki, artıq diaspor qurumlarımız hərəkətə gəlib. Xaricdə fəaliyyət göstərən bütün türk diaspor təşkilatları erməni məsələsinə görə birgə fəaliyyət göstərməkdə maraqlıdırlar və bu istiqamətdə işlər görülür. "Erməni məsələsi ilə bağlı ayrı-ayrılıqda fəaliyyət zəif alınırdı. İndi isə artıq türklər bir mövqedən çıxış edirlər. Türk təşkilatlarında bir oyanma baş verir". "Azərbaycan Evi"nin sədri qeyd etdi ki, yaxın günlərdə türk diaspor təşkilatları ilə birgə işləmək üçün planlar hazırlanacaq. Onun sözlərinə görə, bununla bağlı "Azərbaycan Evi" ciddi tədbirlər hazırlayıb. Xocalı soyqırımı ilə bağlı dörd dildə dərgi buraxılıb və müxtəlif xalqların nümayəndələri arasında yayılıb. 2002-ci ildə qurum Brüsselin mərkəzi küçələrinin birində çadır quraraq imzatoplama kampaniyası həyata keçirib. Bu kampaniyada Xocalı soyqırımı ilə bağlı videogörüntülər nümayiş etdirilib. Çoxlu sayda imza toplanıb və Belçika Xarici İşlər Nazirliyinə göndərilib. İndi qurum imzatoplama kampaniyasını bir az da genişləndirməyi, Xocalı soyqırımı ilə bağlı məhkəmələr qarşısında iddia qaldırmağı planlaşdırır. "Çünki ermənilər də məhz bu metodlardan istifadə edib öz qondarma "soyqırım"larını tanıtmaq istəyirlər. Biz isə aksiyalar, yürüşlər keçiririk. Düzdür, bu da lazımdır. Ancaq Avropada yalnız onların qəbul edəcəkləri tərzdə hərəkət etmək lazımdır. Bu da bizə yalnız məhkəmələr yolu ilə kömək edə bilər". B.Gurcam bildirdi ki, bütün bu söylənilənlər tezliklə reallaşacaq. Qurumun rəhbəri onu da dedi ki, qurumun mərkəzi qərargahı önündə Dədə Qorqudun heykəli ucaldılıb. Bu heykəl Avropada böyük maraq doğurub. Heykəlin önünə Dədə Qorqud kitabı da qoyulub.

Avropa Azərbaycanlıları Konqresinin üzvü Nazim Qaraxanlı isə çıxışında bildirdi ki, martın 17-dən 23-dək Dövlət Komitəsinin iki əməkdaşı Avstriyanın paytaxtı Vyana şəhərində Azərbaycan diaspor təşkilatlarının birgə toplantısında iştirak ediblər. Toplantıya əcnəbi diplomatlar da qatılıb. Onlara Azərbaycan barədə geniş açıqlamalar verilib. "Əvvəllər ermənilər Azərbaycanla bağlı Avropa dövlətlərində yanlış fikirlər formalaşdırıblar. Ona görə də bu yanlışlıq pərdəsini qaldırmaq üçün doğrudan da bu gün Avropada Azərbaycan reallıqlarını, mədəniyyətini, tarixini, mətbəxini əks etdirməklə tədbirlər düzənləmək lazımdır ki, dünya ictimaiyyəti qarşısında özümüzü təqdim edək" - deyə N.Qaraxanlı bildirdi. Avstriyada keçirilən görüşlər barədə geniş açıqlama verən komitə əməkdaşı qeyd etdi ki, artıq türk diaspor təşkilatları ilə birgə çox güclü birlik formalaşıb. Gələcəkdə tədbirlərin birgə keçirilməsi nəzərdə tutulur. "Çünki türkün vahid bir düşməni var. Ona görə də türklər təklif etdilər ki, bütün dünya türkləri birgə olmalı, bir mövqedən çıxış etməlidir. Bütün ofislərin qapıları sizin üzünüzə açıqdır, sizin yanınızdayıq". N.Qaraxanlı onu da dedi ki, martın 31-də mart qırğını ilə bağlı Vyanadakı soydaşlarımız mitinq təşkil edib ATƏT-in missiyasının binasının qarşısınadək yürüş edəcəklər. Türklər də bu yürüşə qatılacaqlar. N.Qaraxanlının sözlərinə görə, hazırda Dövlət Komitəsi böyük bir proqram üzərində işləyir. Bu ilin sonunda isə Avropada türk və Azərbaycan diasporlarının birgə qurum şəklində fəaliyyətini əks etdirən toplantının keçirilməsi planlaşdırılır.

Toplantının sonunda B.Gurcam vurğuladı ki, Ermənistan apreldə qondarma "erməni soyqırımı"nı Belçikada da qaldırmaq istəyir. "Azərbaycan Evi" və digər diaspor təşkilatlarımız bunun qarşısını almaq, Belçikada yaşayan xalqlara əsl həqiqəti çatdırmaq üçün planlar hazırlayırıq.

**Rəşad Baxşəliyev**

23 fevral 2008-ci il, şənbə XALQ QƏZETİ

# Fransız dilində nəşr edilmiş "Əsir torpaq – Qarabağ" kitabının təqdimatı olmuşdur

**Fevralın 22-də Beynəlxalq Mətbuat Mərkəzində fransız dilində nəşr edilmiş "Terre occupe-Haut Karabakh" ("Əsir torpaq-Qarabağ") kitabının təqdimatı olmuşdur.**

Kitabın müəllifi, Belçika Azərbaycan Evinin sədri Bülent Gürcam rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında məlumat vermişdir. Qeyd etmişdir ki, artıq 8 ildir fəaliyyət göstərən təşkilat Belçikada Azərbaycan diasporunun formalaşması və inkişafında, ölkəmizdə gedən proseslərin Avropa ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl iş aparır, müxtəlif layihələr həyata keçirir. Azərbaycan diaspor nümayəndələrinin fəallığının artırılması məqsədi ilə Belçika Azərbaycan Evi "Euro Xəbər" qəzeti ilə birlikdə "Yurd daşı" adlı xüsusi mükafat təsis etmişdir. Bu mükafat Avropada Azərbaycan həqiqətlərinin yayılmasında xüsusi xidmətlər göstərmiş soydaşlarımıza hər il təqdim ediləcəkdir.

B.Gürcam "Əsir torpaq-Qarabağ" kitabı haqqında məlumat verərək bildirmişdir ki, təşkilat Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimaiyyətində, o cümlədən Avropada obyektiv təsəvvürün formalaşması məqsədi ilə müvafiq çap məhsulları hazırlayır və yayır. Həmin nəşr məhsullarından biri olan bu kitabda Dağlıq Qarabağın, eyni zamanda Ermənistanın paytaxtı Yerevan şəhərinin qədim Azərbaycan torpağı olması haqqında, ermənilərin bu ərazilərə köçürülməsi, XX əsrin əvvəllərində və sonlarında onlar tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı haqqında çoxsaylı sənədlər, məlumatlar, fotoşəkillər toplanmışdır. Xocalı soyqırımı ilə bağlı Avropa ölkələrində apardıqları təbliğat işi haqqında danışan natiq, bu il də Brüsseldə mitinqin keçiriləcəyini və burada həmin kitabın təmənnasız olaraq paylanacağını bildirmişdir.

# BÜLƏNT GÜRCAM BAKIDA MƏTBUAT KONFRANSI KEÇİRDİ

Dünən Bakı mətbuat klubunda Belçikada yerləşən "Azərbaycan evi" ictimai təşkilatının rəhbəri Bülənt Gürcam və təşkilatın Bakı təmsilçisi Aydın Cəfərov mətbuat konfransı keçirdilər. Tədbiri keçirməkdə məqsəd adıçəkilən təşkilatın ərsəyə gətirdiyi HYPERLINK "http://www.diaspora.az.com" saytını ictimaiyyətə təqdim etmək idi. A.Cəfərov saytın üç -fransız, ingilis, Azərbaycan dillərində olduğunu bildirərək sayt haqqında məlumat verdi. Onun sözlərinə görə, saytda Azərbaycanın dövlət himni, musiqisi, və təmsil etdikləri cəmiyyətin yaranma tarixi, həmçinin idman səhifələri, Sidney olimpiadasında qazanılan uğurlar və Azərbaycandan başlanan mühacirət həyatı öz əksini tapıb. Saytın təqdimatının ilk olaraq Bakıda keçirildiyini nəzərə çatdıran B.Gürcam belə bir konfransın Brüsseldə də baş tutacağını vurğuladı. O, İnternet saytının açılışının Avropada Azərbaycan həqiqətlərinin yayılmasında xüsusi əhəmiyyət kəsb edəcəyini önə çəkdi.

## "Azərbaycan milli mətbəxi"

**Kitab Belçika-Azərbaycan Evinin maliyyə dəstəyiylə çıxıb**

ELNUR

Dünən Beynəlxalq Mətbuat Mərkəzində (BMM) Belçika-Azərbaycan Evinin maliyyə dəstəyiylə işıq üzü görmüş "Azərbaycan milli mətbəxi" kitabının təqdimatı keçirildi. Kitabın fransız dilində nəşr edildiyini qeyd edən komitənin sədri Bülənt Gürçanın sözlərinə görə, əsas məqsəd Azərbaycanın nəinki mətbəxini, həmçinin mədəniyyətini və tarixini də Avropaya tanıtmaqdır. Belə ki, kitabda Azərbaycan mətbəxiylə yanaşı, maddi mədəniyyət nümunələri də öz əksini tapıb. Təşkilat sədrinin sözlərinə görə, fəaliyyətləri yalnız bununla bitmir. Onlar həmçinin ayda 2 dəfə buraxılan və daisporanın Avropada fəaliyyətini işıqlandıran "Eu Xəbər" (Avro xəbər) qəzetini də çap etdirir. Bundan əlavə, Belçikanın paytaxtı Brüsselin mərkəzi parklarının birində 3 gün ərzində avropalılara Azərbaycan mətbəxi təqdim olunacaq. B.Gürçan qeyd etdi ki, təşkilat bu yaxınlarda Azərbaycan-Avropa Jurnalistlər Assosiasiyası (AAJA) adlanan yeni tipli bir qurumun yaradılması təşəbbüsünü irəli sürüb. Onun sözlərinə görə, bu qurum ölkədə söz azadlığının inkişafında, demokratik fikirlərin formalaşmasında, Azərbaycan jurnalistlərinin Avropalı həmkarları ilə təcrübə və informasiya mübadiləsi sahəsindəki əlaqələrinin artmasına yardım etmək məqsədi daşıyır. Bundan əlavə, AAJA peşəkar kadrlar yetişdirməkdə və onların həyatlarının sığortalanması sahəsində də işlər görəcək.

*The newspaper is distributed in Azerbaijan and Europe*

# EURO Xəbər

*EURO NEWS*

№ 10 (54) 30 may - 14 iyun 2007-ci il
Qiyməti 20 qəpik

Résumés des articles sont en français. The summaries of the articles are in english

Avropa Qonşular Günü Azərbaycanda



Fransada yayım firmaları necə çalışırlar?



Selülitlərinizə əlvida deyin!

## Azərbaycanı Tanıtma Fondu (ATF)

### *Bu qurum yaradılarsa, lobbiçiliyimizdə irəliləyiş və uğur olacaq*

*"Belçika Azərbaycan Evi"nin sədri Bülent Gürçanın hazırladığı və aləqədar qurumlara göndərdiyi Azərbaycanı Tanıtma Fondu (ATF) layihəsinin yaranması üçün hələ ciddi addımlar atılmayıb*



Ardı 3-cü səhifədə

**Fotolar** .......... **65-96**
Ermənistan və Firəngistan .......... 97
Cavad Derəxti fenomeni .......... 100
Brüsseldən baxanda .......... 103
Bir il daha keçdi .......... 104
Hamımız Erik Fayqlıq! .......... 105
Bir millətin iki diasporu olmaz .......... 106
Nə vaxta qədər belə davam edəcək? .......... 108
Yazıram! .......... 109
Soyqırım ərəfəsində bayram .......... 110
Daha nağıllara inanmıram mən .......... 112
10 May .......... 113
Konqreslər .......... 114
Ağrı dağı və Erik Fayql .......... 116
Diasporun gücü .......... 117
45 il .......... 118
DAK-da sular duruldumu? .......... 120
Diaspor işində mədəniyyətin rolu .......... 121
Son günlərdə nə isə olub! .......... 122
Ocağın sirrini külündən soruş .......... 123
Nuri Paşa .......... 125
Pop star .......... 126
DAK-dan nə xəbər? .......... 127
Mən nə üçün DAk-dan istefa verdim .......... 129
Savad Derəxtiyə savab .......... 130
Türkün dünya gündəmindəki yeri .......... 132
Qurultaydan gözlədiklərimiz .......... 133
Gəlin DAK-ı bağlayaq .......... 135
Antivirus .......... 136
Keçən il .......... 138
Yeni il və arzular .......... 139
DAK Brüsseldə .......... 140
Nə yazım? .......... 142
Hər şeyə rəğmən işlərimiz gedir! .......... 143
Şahzadə Villiams və millətçilik .......... 144
Adını qoymadığım yazı .......... 145
Bu sabah göz yaşlarımı tutamadım .......... 146
Milli liderimiz bunları görsəydi .......... 147
DAK .......... 149
Nə yazım, necə yazım? .......... 150
Qurdun hekayəsi .......... 151

***Nəşriyyatın direktoru: professor N.B.Məmmədli***

*Yığılmağa verilmiş 11.05.2008.*
*Çapa imzalanmış 30.06.2008.*
*Şərti çap vərəqi 10,7. Sifariş № 292.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*